RƏSMİ DÖVLƏT QƏZETİ



# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 127 (9006) ŞƏNBƏ, 18 iyun 2022-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az

## Azərbaycan və Venesuela hər zaman bir-birinin suverenliyini və müstəqilliyini dəstəkləyib



2

## IX Qlobal Bakı Forumu beynəlxalq səviyyədə qlobal məsələlərin müzakirə olunduğu platformadır



2

## Azərbaycanın əsas inkişaf göstəriciləri davamlı surətdə artır



2



# İlham Əliyev beynəlxalq birliyi qlobal təhdidlərə qarşı həmrəyliyə çağırdı

### Dünyanın 50-dən çox ölkəsinin siyasi xadimlərinin iştirak etdiyi IX Bakı Qlobal Forumunda yeni reallıqlarla bağlı mühüm təkliflər səsləndirildi

**Sivilizasiyalararası əməkdaşlığın mühüm platformasına çevrilən Azərbaycanda dünyanın siyasi arenasında baş verən məsələlərə təsir göstərmək imkanlarına malik olan Bakı Qlobal Forumunun IX toplantısı keçirilir.**

Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə reallaşan və dünyanın 50-dən çox ölkəsinin nüfuzlu siyasi xadimlərinin, həmçinin beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi forumda qlobal təhdidlər, o cümlədən təhlükəsizliyin və sülhün təmin olunması perspektivləri, enerji təhlükəsizliyinə yaranan təhdidlərin aradan qaldırılması yolları, həssas bölgələrdə sülh, əməkdaşlıq, inteqrasiya, artan ədalətsizliklər, yoxsulluğun qarşısının alınması kimi mühüm məsələlər müzakirə edilir. İyunun 16-da başlayan forum bu gün - iyunun 18-də başa çatacaq.

7

## Azərbaycan tarixən ərəb dövlətləri ilə sıx əlaqələrə malikdir



2

## Forum beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verir



2

## Qlobal Bakı Forumuna böyük maraq var



2

# Dövlət büdcəsi inkişaf prioritetlərinə uyğun icra edilib

İyunun 17-də Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası keçirilib.

Milli Məclisin Sədri Sahibə Qafarova növbədənkənar sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Sonra deputatlar gündəliyə münasibət bildiriblər. Gündəliyin qəbulundan sonra iclasda cari məsələlərin müzakirəsi keçirilib. Cari məsələlərin müzakirəsində Milli Məclisin komitə sədrləri Hicran Hüseynova, Siyavuş Novruzov, deputatlar Fazil Mustafa, Razi Nurullayev, Hikmət Məmmədov, Azər Badamov, Naqif Həmzəyev, Əli Məsimli və Aydın Mirzəzadə çıxış ediblər.

Deputatlar iyunun 15-də Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə Şuşa şəhərində "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfrans və iyunun 16-da Bakı şəhərində keçirilən "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumu ilə bağlı fikirlərini bölüşüblər.

4

# Müttəfiqlik nümunəsi

### Şuşada keçirilən beynəlxalq konfrans Azərbaycan-Türkiyə siyasi sisteminin qarşılıqlı inteqrasiyası, daha geniş əməkdaşlığı üçün yeni imkanlar açdı

Böyük zəfərin simvoluna çevrilən Şuşa bərpa-quruculuq, tərəqqi ünvanına çevrilməklə yanaşı, həm də Azərbaycanın siyasi, diplomatik mərkəzi statusuna da sahiblənib. Həyata keçirilən müxtəlif layihələr əsasında siması günbəgün dəyişən və sürətlə inkişaf edən mədəniyyətimizin paytaxtında mühüm toplantıların, konfransların və forumların keçirilməsi də bunun bariz təcəssümüdür.

İyunun 15-də Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfrans da bunun bariz təcəssümü oldu. Bu toplantı eyni zamanda iki qardaş ölkənin həmrəyliyinin təntənəsi kimi tarixə yazıldı.

7

# Bolqarıstan Azərbaycandan qaz idxalının artırılmasında maraqlıdır




8

## Meymunçiçəyi "qapımıza" çatdı

Gürcüstanda iki yoluxma faktının qeydə alınması ciddi tədbirlər görülməsini zəruri edir

10

## Ermənistanda xalq dilənçi vəziyyətinə düşüb

Gündəlik istehlak mallarının bahalaşması vəziyyəti daha da çətinləşdirir

10

## 36,5 milyondan çox uşaq acı qaçqın taleyi yaşayır

Müdafiəsiz azyaşlılar insan alverinin qurbanına çevrilirlər

12

# IX Qlobal Bakı Forumu beynəlxalq səviyyədə qlobal məsələlərin müzakirə olunduğu platformadır



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Səudiyyə Ərəbistanının Kral Faysalın İslam Araşdırmalar Mərkəzinin İdarə Heyətinin sədri Şahzadə Türki Al Faysal Al Saudu qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Türki Al Faysal Al Saudun ötən il ölkəmizə səfəri və dövlətimizin başçısı ilə görüşü məmnunluqla xatırlandı. IX Qlobal Bakı Forumunun əhəmiyyətinə toxunuldu, bu tədbirdə çox sayda nüfuzlu qonağın iştirak etməsi foruma olan marağın göstəricisi kimi qiymətləndirildi. Bu forumun beynəlxalq səviyyədə artıq qlobal məsələlərin müzakirə olunduğu bir platformaya çevrildiyi bildirildi.

Görüşdə Azərbaycan ilə Səudiyyə Ərəbistanı arasında dostluq münasibətlərinin uğurla inkişaf etdiyi vurğulandı.

# Azərbaycanın əsas inkişaf göstəriciləri davamlı surətdə artır



İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki bölməsinin baş direktoru Tatyana Valovayanı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə dövlət başçısı bu il Azərbaycanın BMT-yə üzv olmasının 30 illiyinin qeyd edildiyini, mart ayında Şuşada bununla əlaqədar konfransın keçirildiyini və bunun xüsusi rəmzi məna daşıdığını bildirdi.

Prezident İlham Əliyev Azərbaycanın BMT və onun ixtisaslaşmış təşkilatları ilə sıx əməkdaşlıq etdiyini vurğuladı, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunması istiqamətində ölkəmizin əldə etdiyi nailiyyətlərdən danışdı. Dövlət başçısı Azərbaycanda Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının fəaliyyət göstərdiyini və ölkənin əsas inkişaf göstəricilərinin davamlı surətdə artdığını qeyd etdi.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərimizin bərpasının və yenidən qurulmasının hazırda ölkəmizin gündəmində prioritet vəzifələrdən biri olduğunu, Azərbaycanın böyük mina problemi ilə üzləşdiyini də dedi, 2020-ci il noyabrın 10-dan indiyədək 220-dən çox şəxsin mina hadisələri nəticəsində həlak olduğunu və ya xəsarət aldığını, bu gün daha bir analoji hadisənin baş verdiyini bildirdi.

Tatyana Valovaya Azərbaycana səfər etməkdən və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkil etdiyi "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumunda iştirakından, həmçinin Nizami Gəncəvi Beynəlxalq Mərkəzi ilə BMT-nin Cenevrədəki ofisi arasında əməkdaşlığın qurulmasından məmnunluğunu ifadə etdi.

Qonaq Azərbaycanda dövlət səviyyəsində Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasına xüsusi diqqət yetirilməsinin önəmini bildirdi. O, Dayanıqlı İnkişaf Məqsədlərinə nail olunmasında qadınların rolunun artırılmasına dair konsepsiya ilə çıxış etdiyini və bu xüsusda işlərin aparıldığını dedi.

Söhbət zamanı Azərbaycan ilə BMT-nin Cenevrədəki ofisi və ixtisaslaşmış təşkilatları arasında əməkdaşlığa dair fikir mübadiləsi aparıldı.

# Azərbaycan tarixən ərəb dövlətləri ilə sıx əlaqələrə malikdir





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də Ərəb Dövlətləri Liqasının Baş katibi, Misirin sabiq xarici işlər naziri Əhməd Əbul Qeyti qəbul edib.

AZƏRTAC xəbər verir ki, Əhməd Əbul Qeyt Azərbaycanda olmaqdan məmnunluğunu ifadə etdi, ölkəmizdə və paytaxt Bakıda gördüyü inkişaf proseslərinin onda dərin təəssürat hissi yaratdığını dedi. Qonaq Azərbaycanın əldə etdiyi nailiyyətlərin məhz dövlət başçısı tərəfindən həyata keçirilən uzaqgörən siyasətin nəticəsi olduğunu vurğuladı. Qlobal Bakı Forumunda iştirakdan məmnunluğunu bildirən Əhməd Əbul Qeyt forumun aktual mövzuya həsr olunduğunu və tədbir çərçivəsində maraqlı müzakirələrin aparıldığını qeyd etdi. Qonaq Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında əməkdaşlıq məsələlərinə toxundu.

Prezident İlham Əliyev tarixən Azərbaycanın ərəb dövlətləri ilə sıx əlaqələrə malik olduğunu, ölkələrimizin ortaq dini dəyərlər və tarix əsasında bir-birinə bağlı olduğunu bildirdi. Dövlət başçısı 2007-ci ildə Ərəb Dövlətləri Liqasının Baş Qərargahına səfərini və oradakı görüşlərini xatırladı.

Söhbət zamanı Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında əməkdaşlığın inkişaf etdirilməsinə dair fikir mübadiləsi aparıldı.

Sonda Əhməd Əbul Qeyt Ərəb Dövlətləri Liqası adından dövlət başçısına xatirə hədiyyəsi təqdim etdi.

# Forum beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verir



İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İsrailin sabiq Baş naziri Ehud Barakı qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə paytaxtımızda keçirilən IX Qlobal Bakı Forumunun önəmi vurğulandı. Bu tədbirin beynəlxalq əhəmiyyətli mühüm məsələlərin müzakirə edilməsi üçün geniş imkanlar yaratdığı bildirildi.

Forumun çox yüksək səviyyədə təşkil olunduğu və burada iştirak etmək üçün dünyanın müxtəlif yerlərindən çox sayda qonağın ölkəmizə gəldiyi məmnunluqla qeyd olundu. Bildirildi ki, forum beynəlxalq əməkdaşlığın genişləndirilməsi işinə öz töhfəsini verir.

# Qlobal Bakı Forumuna böyük maraq var



İyunun 17-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xorvatiyanın sabiq Prezidenti Kolinda Qrabar-Kitaroviçi qəbul edib.

AZƏRTAC xəbər verir ki, görüşdə Qlobal Bakı Forumunun önəminə toxunuldu, burada iştirak edənlərin sayının hər il daha da artdığı vurğulandı. Tədbirin gündəliyinin çox geniş olduğu bildirildi. Forumun beynəlxalq əməkdaşlığın genişləndirilməsi, geosiyasi vəziyyət, enerji, səhiyyə, iqlim məsələləri, mədəniyyətlərin dialoqu kimi sahələrlə bağlı müzakirələrin aparılması və yeni ideyaların yaranması üçün yaxşı platforma olduğu qeyd edildi.

# Azərbaycan və Venesuela hər zaman bir-birinin suverenliyini və müstəqilliyini dəstəkləyib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 17-də ölkəmizdə işgüzar səfərdə olan Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro ilə videokonfrans formatında görüşüb.

AZƏRTAC xəbər verir ki, görüşün videokonfrans formatında keçirilməsinə səbəb Venesuela nümayəndə heyətinin üzvlərində COVID-19 testinin nəticəsinin pozitiv çıxmasıdır.

Görüşdə Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduronun regional səfər çərçivəsində Azərbaycana səfər etməsinin önəminə toxunuldu və bu, siyasi münasibətlərimizin yüksək səviyyədə olmasının göstəricisi kimi dəyərləndirildi. Venesuela Prezidentinin bu səfərinin əlaqələrimizin inkişafına töhfə verəcəyinə əminlik ifadə olundu.

Nikolas Maduro Azərbaycana üçüncü dəfə səfər etməsindən məmnunluğunu bildirdi və Venesuelanın ölkəmizlə əlaqələrə böyük önəm verdiyini vurğuladı. Qonaq ikitərəfli münasibətlərimizin daha da inkişaf etdirilməsinin zəruriliyini bildirdi, çoxtərəfli səviyyədə, o cümlədən Qoşulmama Hərəkatı çərçivəsində görülən işləri müsbət qiymətləndirdi.

Söhbət zamanı beynəlxalq təşkilatlar çərçivəsində, o cümlədən Qoşulmama Hərəkatında ölkələrimizin birgə uğurlu fəaliyyət göstərdiyi qeyd edildi. Qoşulmama Hərəkatında Azərbaycanın sədrliyinin bir il də uzadılması məsələsində Venesuelanın dəstəyi vurğulandı. Azərbaycanın Qoşulmama Hərəkatının təməl prinsipləri olan Bandunq prinsiplərinə sadiq olduğu bildirildi.

Dövlətimizin başçısı vurğuladı ki, Venesuela hər zaman Ermənistan-Azərbaycan münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həllini dəstəkləyib. Prezident İlham Əliyev qeyd etdi ki, münaqişə öz həllini tapıb, Azərbaycan ədaləti, beynəlxalq hüququ, ərazi bütövlüyünü özü bərpa edib. Dövlət başçısı onu da bildirdi ki, ölkələrimiz hər zaman bir-birinin suverenliyini və müstəqilliyini dəstəkləyib və bundan sonra da dəstəkləyəcək.

Söhbət zamanı iqtisadi sahədə də əməkdaşlığın genişləndirilməsi və biznes dairələri arasında birgə işbirliyinin zəruriliyi qeyd olundu. Bu baxımdan birgə investisiya layihələri, müştərək müəssisələrin yaradılması kimi məsələlərin müzakirəsinin böyük önəm daşıdığı bildirildi.

Görüşdə OPEC+ formatı çərçivəsində də ölkələrimizin uğurlu fəaliyyəti vurğulandı.

Dövlət başçıları ikitərəfli münasibətləri və qarşılıqlı maraq doğuran məsələləri müzakirə etdilər.

# Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət



Azərbaycanda işgüzar səfərdə olan Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro iyunun 17-də Fəxri xiyabana gələrək müasir müstəqil Azərbaycan dövlətinin banisi, Ümummilli Lider Heydər Əliyevin məzarını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Venesuela Prezidenti Ulu Öndər Heydər Əliyevin xatirəsini dərin ehtiramla yad edib, məzarı önünə əklil qoyub.

# Şəhidlərin xatirəsinə ehtiram



Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduro iyunun 17-də Şəhidlər xiyabanını ziyarət edib.

AZƏRTAC xəbər verir ki, Prezident Nikolas Maduro Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini ehtiramla yad edib, "Əbədi məşəl" abidəsinin önünə əklil qoyub.

Sonda Azərbaycan paytaxtının mənzərəsini seyr edən Venesuela Prezidentinə Şəhidlər xiyabanının tarixi və Bakıda görülən abadlıq-quruculuq işləri barədə məlumat verilib.

# Səfər başa çatdı

Venesuela Bolivar Respublikasının Prezidenti Nikolas Maduronun Azərbaycan Respublikasına işgüzar səfəri iyunun 17-də başa çatıb.

AZƏRTAC xəbər verir ki, hər iki ölkənin dövlət bayraqlarının dalğalandığı Heydər Əliyev Beynəlxalq Aeroportunda ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident Nikolas Maduronu Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov və digər rəsmi şəxslər yola saldılar.



# Azərbaycan Cənubi Qafqazın sülh, əməkdaşlıq bölgəsinə çevrilməsi üçün səylərini əsirgəmir



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 17-də Ərəb Dövlətləri Liqasının Baş katibi Əhməd Əbu Əl-Ğeytlə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə IX Qlobal Bakı Forumunun əhəmiyyəti vurğulanıb, tədbir çərçivəsində keçirilən müzakirələrin və fikir mübadiləsinin qlobal gündəlikdə əsas yer alan məsələlərin həllində yeni yanaşmaların işlənib hazırlanmasına töhfə verəcəyinə əminlik ifadə olunub.

Dünyada yeni çağırışlar, o cümlədən hazırkı beynəlxalq geosiyasi vəziyyət, qlobal təhlükəsizlik məsələləri, qida böhranı riskləri, enerji çatışmazlığı problemi, pandemiya ilə mübarizə və bir çox digər məsələlər müzakirə edilib.

Qırx dörd günlük Vətən müharibəsindən sonra yaranan yeni reallıqlar fonunda regional təhlükəsizliklə bağlı fikirlərini bölüşən Baş nazir Azərbaycanın Cənubi Qafqazın sülh, əməkdaşlıq və qarşılıqlı fəaliyyət bölgəsinə çevrilməsi üçün səylərini əsirgəmədiyini diqqətə çatdırıb.

Regionda nəqliyyat-kommunikasiya sisteminin bərpası gələcək üçün böyük perspektivlər vəd etdiyi və bu baxımdan Zəngəzur dəhlizinin yaradılmasının mühüm əhəmiyyət kəsb etdiyi vurğulanıb.

Eyni zamanda işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən quruculuq, bərpa və yenidənqurma işləri barədə məlumat verilib.

Görüşdə həmçinin Azərbaycan ilə Ərəb Dövlətləri Liqası arasında əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Azərbaycanla Qətər arasında müxtəlif istiqamətlərdə əməkdaşlığın perspektivləri müzakirə olunub



Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov iyunun 17-də Qətər Dövlətinin mədəniyyət naziri Abdülrəhman bin Həməd Al Tani ilə görüşüb.

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə IX Qlobal Bakı Forumunun əhəmiyyəti vurğulanıb, Qətərin tədbirdə yüksək səviyyədə təmsil olunması təqdir edilib.

Azərbaycan-Qətər münasibətlərinin müxtəlif istiqamətlərdə inkişaf etdiyi məmnunluqla vurğulanıb. İki ölkə arasında beynəlxalq təşkilatlar, xüsusən də İslam Əməkdaşlıq Təşkilatı, Qoşulmama Hərəkatı və BMT çərçivəsində mövcud olan səmərəli əməkdaşlıq qeyd edilib.

Azərbaycanın Qoşulmama Hərəkatının sədri kimi təşkilatın məqsədlərinin təşviq olunması, beynəlxalq sülhün, təhlükəsizliyin və əməkdaşlığın gücləndirilməsi istiqamətində gördüyü işlər diqqətə çatdırılıb.

Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzü barədə danışan Baş nazir 30 il işğal altında qalan və 44 günlük Vətən müharibəsi nəticəsində azad olunan əzəli Azərbaycan torpaqlarında hərbi cinayətlərin, urbisid, kultursid və ekosidin törədildiyini bildirib. Vurğulanıb ki, həmin ərazilərdə Azərbaycan xalqının mədəni və dini irsi məhv edilib, dini abidələrimiz, məscidlərimiz dağıdılıb, yandırılıb və təhqir olunub.

Görüşdə həmçinin Azərbaycan ilə Qətər arasında elm, təhsil, mədəniyyət və turizm sahələrində əlaqələrin daha da inkişaf etdirilməsinin vacibliyi qeyd edilib, müxtəlif istiqamətlərdə əməkdaşlığın perspektivləri müzakirə olunub.

# Azərbaycan BMT və onun ixtisaslaşmış təşkilatları ilə sıx əməkdaşlıq əlaqələrinə malikdir



İyunun 17-də Milli Məclisin Sədri Sahibə Qafarova IX Qlobal Bakı Forumunda iştirak etmək üçün ölkəmizdə səfərdə olan BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki bölməsinin Baş direktoru Tatyana Valovaya ilə görüşüb.

Qonağı Milli Məclisdə salamlamaqdan məmnunluğunu bildirən spiker Sahibə Qafarova bu səfərin BMT-nin Cenevrədəki bölməsi ilə Azərbaycan arasında əməkdaşlığın daha da möhkəmləndirilməsinə öz töhfəsini verəcəyinə inamını ifadə edib.

Paytaxtımızda keçirilən IX Qlobal Forumun əhəmiyyətindən danışan Milli Məclisin Sədri Azərbaycanın mühüm beynəlxalq tədbirlərə uğurla evsahibliyi etdiyini, ölkəmizdə keçirilən bu kimi tədbirlərin beynəlxalq əməkdaşlığın genişləndirilməsinə, bir sıra qlobal məsələlərin müzakirəsinə, yeni ideya və təşəbbüslərin meydana gəlməsinə mühüm töhfələr verdiyini diqqətə çatdırıb.

Bir neçə gün əvvəl BMT Baş Məclisinin 76-cı sessiyasının sədri Abdulla Şahidlə Milli Məclisdə görüşünü xatırladan spiker Sahibə Qafarova həmin görüşdə müzakirə olunan məsələlərin əhəmiyyətini qeyd edib. Milli Məclisin Sədri bildirib ki, bu il Azərbaycanın BMT-yə üzv olmasının 30 illiyi tamam olub və cari ilin mart ayında ölkəmizin mədəniyyət paytaxtı Şuşada bu münasibətlə konfrans keçirilib. Spiker qeyd edib ki, Azərbaycan BMT və onun ixtisaslaşmış təşkilatları ilə sıx əməkdaşlıq əlaqələrinə malikdir.

Sahibə Qafarova diqqətə çatdırıb ki, Azərbaycan Qoşulmama Hərəkatına sədrliyi dövründə bu təşkilatın bir neçə sessiyasının çağırılmasının təşəbbüskarı olub və həmin sessiyalarda pandemiya ilə əlaqədar mühüm qətnamələr qəbul edilib. Bundan başqa, ölkəmiz Prezident İlham Əliyevin təşəbbüsü ilə Qoşulmama Hərəkatının Parlament Şəbəkəsini yaradıb. İnanırıq ki, Parlament Şəbəkəsinin Birinci Konfransı bütün üzv ölkələr üçün faydalı olacaq.

Sahibə Qafarova diqqətə çatdırıb ki, hazırda Azərbaycan postmünaqişə dövrünü yaşayır. Ölkəmiz davamlı sülh və sabitliyin tərəfdarıdır. İnanırıq ki, tezliklə Ermənistanla Azərbaycan arasında sülh sazişi imzalanacaq. Zəngəzur dəhlizinin istifadəyə verilməsi isə təkcə region ölkələrinin deyil, digər ölkələrin inkişafı üçün də faydalı olacaqdır.

Azərbaycana səfərindən məmnunluğunu bildirən BMT Baş katibinin müavini və BMT-nin Cenevrədəki bölməsinin Baş direktoru Tatyana Valovaya ötən 30 il ərzində Azərbaycanın böyük uğurlar qazandığını və inkişaf etdiyini diqqətə çatdırıb. Bildirib ki, Azərbaycan BMT üçün bir sıra istiqamətlərdə əməkdaşlıq baxımından mühüm tərəfdaşdır. O, ölkəmizin Qoşulmama Hərəkatına uğurlu sədrliyindən razılığını bildirib, Azərbaycanın COVID-19 pandemiyası ilə mübarizədə digər ölkələrə yardımlarına görə təşəkkür edib.

Söhbətdə gender bərabərliyi, qadınların təhlükəsizlik məsələlərində, hərbi münaqişələrin həllində, siyasətdə iştirakı və digər məsələlər barədə fikir mübadiləsi aparılıb.

Görüşdə Milli Məclis Aparatının rəhbəri Fərid Hacıyev, Azərbaycan Respublikasının BMT-nin Cenevrə şəhərindəki bölməsində və digər beynəlxalq təşkilatlar yanında nümayəndəsi Qalib İsrafilov və digər rəsmi şəxslər iştirak ediblər.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

# Azərbaycanın və Rusiyanın xarici işlər nazirləri arasında telefon danışığı olub



İyunun 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov və Rusiya Federasiyasının xarici işlər naziri Sergey Lavrov arasında telefon danışığı baş tutub.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, nazirlər ikitərəfli gündəliyin aktual məsələləri ətrafında fikir mübadiləsi aparıblar.

Bölgədəki cari vəziyyəti, o cümlədən Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşması məsələlərini müzakirə edən tərəflər üçtərəfli bəyanatların tam icrasının vacibliyini vurğulayıblar.

Telefon danışığı zamanı müzakirələrin Rusiya xarici işlər nazirinin Azərbaycana səfəri çərçivəsində davam etdirilməsi razılaşdırılıb.

# *Türkiyə mediası:* Prezident İlham Əliyev Ermənistana əsassız iddialarına görə bir daha sərt xəbərdarlıq etdi

Azərbaycan Prezidenti İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə iyunun 16-da "Qlobal dünya nizamına təhdidlər" mövzusunda keçirilən IX Qlobal Bakı Forumu Türkiyə kütləvi informasiya vasitələri tərəfindən geniş işıqlandırılıb.

AZƏRTAC xəbər verir ki, qardaş ölkə mediası Azərbaycan Prezidenti İlham Əliyevin forumun açılış mərasimində iştirakına və dövlət başçısının dərin məzmunlu nitqinə ətraflı yer ayırıb.

Anadolu və İHA xəbər agentlikləri, "TRT Haber", "A Haber", "Haber Global" telekanalları, "Yeni şafak", "Sabah", "Hürriyet" və digər qəzetlər, o cümlədən əyalətlərdə fəaliyyət göstərən media qurumları məlumat veriblər ki, Albaniya Prezidenti İlir Meta, Bosniya və Herseqovinanın Rəyasət Heyətinin sədri Şefik Caferoviç, Gürcüstan Prezidenti Salome Zurabişvili, Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus, Türkiyənin sabiq Baş naziri Binəli Yıldırım, BMT-nin Cenevrə ofisinin baş direktoru Tatyana Valovaya və digər ali qonaqlar forumun fəal iştirakçıları olublar.

Dövlət başçısının forumdakı dərinməzmunlu nitqindən ayrı-ayrı hissələrə müraciət edən Anadolu Agentliyi yazır ki, çıxışında keçmiş Qarabağ münaqişəsinin süni şəkildə yaradılması və hazırkı regional proseslərə aydınlıq gətirən Prezident İlham Əliyev dedi: "Ötən əsrin tarixində aydın göstərilir ki, 1920-ci ilin noyabrında, Azərbaycanın sovetləşdirilməsindən altı ay sonra sovet hakimiyyəti Azərbaycanın tarixi parçası olan Zəngəzuru Ermənistana birləşdirdi. Yəni, Ermənistan Qarabağdakı ermənilər üçün status tələb etməyə cəhd edəcəksə, nə üçün azərbaycanlılar Qərbi Zəngəzurda özləri üçün status tələb etməsin? Həmin ərazilərin əhalisi tamamilə azərbaycanlılardan ibarət olub. Bu yanaşma çıxılmaz vəziyyətə gətirib çıxaracaq və hesab edirəm ki, Ermənistan hökuməti İkinci Qarabağ müharibəsinin dərsini unutmamalıdır. Həmin dərsi yaxşı öyrənməli və Azərbaycana qarşı hər hansı ərazi iddialarından çəkinməlidir".

Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsində qazanılan rəşadətli qələbədən sonra bölgədə yaranmış yeni situasiya, normallaşma prosesindəki vəziyyətlə bağlı fikir və mülahizələrinə diqqətlə yanaşan İHA xəbər agentliyi forumdan olan məlumatı geniş təhlil əsasında ictimaiyyətə təqdim edib. Agentlik yazır ki, bölgədə sülh, sabitlik və inkişaf tərəfdarı olan Azərbaycanın mövqeyi dəyişməzdir.

Məlumatı "Azərbaycan Prezidenti Əliyevdən Ermənistana Qarabağ xəbərdarlığı! Qərbi Zəngəzur mesajı" sərlövhəsi ilə təqdim edən "A Haber" telekanalının rəsmi saytı diqqətə çatdırıb ki, Ermənistan hakimiyyətinin əsassız iddiaları bölgədə yeni qarşıdurma riskləri yaradır. Regionda hər kəs üçün məqbul olan vəziyyət sülh cəhdlərini düzgün dəyərləndirməkdir.

Prezident İlham Əliyevin forumdakı nitqindən mühüm ifadələri ekran manşeti kimi təqdim edən "Haber Global" telekanalının rəsmi saytında yer alan "Əliyev: Qarabağ məsələsinin həll edilməsi bölgədə sülh üçün bir fürsətdir" sərlövhəsi məlumatda dövlətimizin başçısının qəti və dəyişməz mövqeyi geniş ictimaiyyətə çatdırılır.

"TRT Haber" telekanalı yaydığı efir və yazılı materiallarında diqqətə çatdırıb ki, Prezident İlham Əliyev Qarabağa əsassız status iddiası ilə çıxış edən Ermənistana bir daha sərt xəbərdarlıq edib.

Prezident İlham Əliyevin Ermənistana əsassız iddialarına görə bir daha sərt xəbərdarlıq etdiyini bu və ya digər formalarda diqqətə çatdıran qardaş ölkə mediasında, eləcə də mövzu ilə bağlı geniş məlumatların yayıldığı efir materiallarında, analitik təhlillərdə, eləcə də foruma aid digər məlumatlarda Azərbaycanın böyük uğurlarına, beynəlxalq tədbirlərə yüksək səviyyədə evsahibliyi etməsinə, eləcə də Azərbaycan-Türkiyə qardaşlıq münasibətlərinə toxunulub.

# Azərbaycan ilə Avropa Şurası arasında əməkdaşlıq perspektivləri müzakirə edilib

İyunun 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə işgüzar səfərdə olan Avropa Şurası (AŞ) Nümayəndələr Komitəsinin Demokratiya üzrə məruzəçilər qrupunun (GR-DEM) sədri, İsveçin Avropa Şurası yanında daimi nümayəndəsi Martin Ehnberqin rəhbərlik etdiyi GR-DEM üzvü olan bir qrup səfirlərdən ibarət nümayəndə heyəti ilə görüşüb.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, görüş zamanı Azərbaycan ilə Avropa Şurası arasında müxtəlif istiqamətlərdə əməkdaşlıq perspektivləri, AŞ-nin ölkəmizə dair 2022-2025-ci illər üçün Fəaliyyət Planının icra mexanizmləri ətrafında müzakirələr aparılıb.

Nazir Ceyhun Bayramov qarşı tərəfə bölgədə münaqişəsonrası mövcud vəziyyət, azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri, minaların təmizlənməsi, sülh quruculuğu istiqamətində Azərbaycan hökuməti tərəfindən atılan addımlar barədə ətraflı məlumat verib.

Səfərlə bağlı xoş təəssüratlarını bölüşən nümayəndə heyətinin üzvləri keçirilən görüşlərin və aparılan müzakirələrin ölkə haqqında, xüsusilə də ölkənin inkişafı ilə bağlı yerindəcə tanış olmaq baxımından əhəmiyyətini vurğulayıblar.

Nazir nümayəndə heyətinin suallarını cavablandırdı və qarşılıqlı maraq doğuran məsələlər üzrə fikir mübadiləsi aparıldı.

# *Karlos Rafael Faria TORTOSA:* "Venesuela Azərbaycanla əlaqələri genişləndirməkdə maraqlıdır"

İyunun 17-də Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Venesuela Bolivar Respublikasının xarici işlər üzrə xalq hakimiyyəti naziri Karlos Rafael Faria Tortosa ilə onlayn formatda görüşüb.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tərəflər ölkələrimiz arasında bütün istiqamətlər üzrə əməkdaşlıq münasibətlərinin genişləndirilməsi perspektivlərini vurğulayıblar və gündəlikdə duran məsələlər barəsində fikir mübadiləsi aparıblar. Nazirlər ikitərəfli münasibətlərin uğurlu inkişafından məmnunluq ifadə ediblər.

Nazir Ceyhun Bayramov iki ölkə arasında beynəlxalq təşkilatlar çərçivəsində keçirilən görüşləri xatırladaraq səmərəli müzakirələrin aparıldığını vurğulayıb. O, Venesuela və Azərbaycanın Qoşulmama Hərəkatı və BMT daxil olmaqla, çoxtərəfli platformada əməkdaşlığının əsasında uğurlu ikitərəfli münasibətlərin dayandığını qeyd edib. Həmçinin münasibətlərin inkişafı baxımından siyasi məsləhətləşmələr mexanizminin davam etməsinin önəmi səsləndirilib.

Venesuela Bolivar Respublikasının xarici işlər üzrə xalq hakimiyyəti naziri Karlos Rafael Faria Tortosa Venesuelanın Azərbaycanla əlaqələri genişləndirməkdə maraqlı olduğunu qeyd edib.

Görüşdə tərəflər həmçinin qarşılıqlı maraq doğuran regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Milli Məclisin iclasında





# Dövlət büdcəsi inkişaf prioritetlərinə uyğun icra edilib

**İyunun 17-də Milli Məclisin növbədənkənar sessiyasının ilk iclası keçirilib. Milli Məclisin Sədri Sahibə Qafarova növbədənkənar sessiyanı açıq elan etdikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.**

Sonra deputatlar gündəliyə münasibət bildiriblər. Gündəliyin qəbulundan sonra iclasda cari məsələlərin müzakirəsi keçirilib. Bu müzakirədə Milli Məclisin komitə sədrləri Hicran Hüseynova, Siyavuş Novruzov, deputatlar Fazil Mustafa, Razi Nurullayev, Hikmət Məmmədov, Azər Badamov, Naqif Həmzəyev, Əli Məsimli və Aydın Mirzəzadə çıxış ediblər.

Deputatlar iyunun 15-də Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə Şuşa şəhərində "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfrans və iyunun 16-da Bakı şəhərində keçirilən "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumu ilə bağlı fikirlərini bölüşüblər. Deputatlar Prezident İlham Əliyevin IX Qlobal Bakı Forumundakı nitqində müasir dövrün çağırışları ilə bağlı irəli sürdüyü tezisləri və dünyada və regionda sülhün möhkəmləndirilməsi ilə bağlı səsləndirdiyi fikirləri yüksək dəyərləndiriblər, bu beynəlxalq tədbirlərin əhəmiyyətindən danışıblar. Deputatlar çıxışlarında həmçinin seçicilərini düşündürən bir sıra məsələlər, şəhid ailələri və qazilərin, əlilliyi olan şəxslərin sosial müdafiəsi və digər aktual məsələlərlə bağlı qeydlərini bildiriblər, rəylərini səsləndiriblər.

Sonra gündəlikdəki məsələlərin müzakirəsi keçirilib.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyə 16 məsələ daxil edilib. Birinci məsələ "Azərbaycan Respublikası Milli Məclisinin parlamentlərarası əlaqələr üzrə işçi qruplarının rəhbərlərinin seçilməsi haqqında" Milli Məclisin qərarında dəyişikliklər edilməsi barədə Milli Məclisin qərar layihəsidir.

Qərar layihəsi barədə Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov məlumat verib. Səməd Seyidov VI çağırış Milli Məclisin səmərəli beynəlxalq fəaliyyətini qeyd edib və Azərbaycan reallıqlarının çatdırılması, beynəlxalq əlaqələrin möhkəmləndirilməsi istiqamətində parlament diplomatiyasının imkanlarından səmərəli istifadənin vacibliyindən bəhs edib.

Parlamentin müzakirəsinə çıxarılmış qərar layihəsində Azərbaycan-Paraqvay parlamentlərarası əlaqələr üzrə işçi qrupunun təşkil olunduğunu diqqətə çatdıran komitə sədri erməni diasporunun güclü mövqeyə malik olduğu Latın Amerikasının mərkəzində yerləşən Paraqvayla əlaqələrin möhkəmləndirilməsinin əhəmiyyətini vurğulayıb. O, Paraqvayın Azərbaycanın ərazi bütövlüyünü həmişə dəstəklədiyini, həmçinin həmin ölkə parlamentinin Xocalı soyqırımını tanıdığını qeyd edib. Səməd Seyidov Milli Məclisdə yaradılan sayca 83-cü işçi qrupu olan Azərbaycan-Paraqvay parlamentlərarası əlaqələr üzrə işçi qrupuna rəhbərin Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsi sədrinin müavini Hikmət Məmmədovun təklif edildiyini bildirib.

Deputat Məlahət İbrahimqızının sənədə müsbət münasibəti dinlənildikdən sonra qərar layihəsi səsə qoyularaq qəbul olunub.

Spiker Sahibə Qafarova bildirib ki, növbəti 3 məsələ üçüncü oxunuşda olan qanun layihələridir və onlar cənab Prezidentin bir məktubu ilə Milli Məclisə daxil olub. Qərara alınıb ki, mahiyyətcə bir-birinə yaxın olan bu qanun layihələrinin təqdimatlarından sonra müzakirələr birgə aparılsın, lakin ayrı-ayrılıqda səsə qoyulsun.

Gündəliyin ikinci məsələsi olan "Elektroenergetika haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü İltizam Yusifov təqdim edib.

O, istilik təchizatı sahəsini tənzimləyən qanunvericiliyin təkmilləşdirilməsi məqsədilə hazırlanan qanun layihəsinin əvvəlki oxunuşları barədə məlumat verərək, bildirib ki, sənədlə bağlı heç bir etiraz və ya təklif daxil olmayıb.

Gündəliyin üçüncü məsələsi olan "Sahibkarlıq sahəsində aparılan yoxlamaların tənzimlənməsi və sahibkarların maraqlarının müdafiəsi haqqında" və "Sahibkarlıq sahəsində aparılan yoxlamaların dayandırılması haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsini (üçüncü oxunuş) İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili diqqətə çatdırıb. Bildirib ki, sənəddə sahibkarlıq sahəsində yoxlamalarla bağlı istilik enerjisinə münasibətdə digər enerji və kommunal xidmətlərlə eyni hüquqi rejimin tətbiq edilməsi təklif olunub.

Tahir Mirkişili əvvəlki oxunuşlarda layihə ilə bağlı deputatlar tərəfindən hər hansı bir təklif və irad bildirilmədiyini qeyd edib və deputatları qanun layihəsini dəstəkləməyə çağırıb.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü İltizam Yusifov bu məsələ ilə bağlı komitənin rəyinin müsbət olduğunu bildirib.

Gündəliyin dördüncü məsələsi olan İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) barədə Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov məlumat verərək bildirib ki, qanun layihəsinin əvvəlki oxunuşlarında hər hansı bir dəyişiklik edilməyib.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin üzvü İltizam Yusifov bu məsələ barədə də komitənin müsbət rəyini səsləndirib.

Üçüncü oxunuşda təqdim olunan hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq qəbul edilib.

Sonra "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi müzakirəyə çıxarılıb. Spiker bildirib ki, sənəddə nəzərdə tutulan dəyişiklik uyğunlaşdırma xarakteri daşıyır və ona görə də "Normativ hüquqi aktlar haqqında" Azərbaycan Respublikasının Konstitusiya qanununa əsasən bir oxunuşda qəbul ediləcək.

Məsələ ilə bağlı Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov məlumat verib. Bildirilib ki, "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında" Qanunun 25-ci maddəsində nəzərdə tutulan müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərinin Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 11 oktyabr tarixli fərmanı ilə Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində yaradılan "Dövlət Dəniz və Liman Agentliyi" publik hüquqi şəxsin səlahiyyətlərinə aid edildiyi üçün qüvvədə olan maddənin dispozisiyasında "orqanı" sözünün "orqanının müəyyən etdiyi orqan (qurum)" sözləri ilə əvəz edilməsi təklif edilib.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Parlamentin Sədri bildirib ki, gündəliyin qalan 11 məsələsi ikinci oxunuşda olan qanun layihələridir və gündəliyin 6-cı məsələsi olan "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi (ikinci oxunuş) ilə bağlı məlumat vermək üçün İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişiliyə söz verib.

Tahir Mirkişili bildirib ki, Milli Məclisə təqdim olunan həm "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi, həm də "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrasına dair illik hesabat" qanunvericiliyə uyğun tərtib edilib və ötən ilin büdcəsi Prezident İlham Əliyevin müəyyən etdiyi strateji inkişaf prioritetlərinə, sosial-iqtisadi siyasət və təhlükəsizlik çağırışlarına uyğun icra edilib. O, büdcənin icrasının komitədə ikinci oxunuşda müzakirəsi ilə bağlı məlumat verərək, diqqətə çatdırıb ki, komitənin iclasında 2021-ci il dövlət büdcəsi xərclərində əhəmiyyətli paya sahib olan Təhsil Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi və İcbari Tibbi Sığorta Agentliyinin nümayəndələri tərəfindən təmsil etdikləri qurumların xərc istiqamətləri ilə bağlı ətraflı təqdimatlar dinlənilib və deputatlar tərəfindən büdcənin ortamüddətli xərclər çərçivəsində və nəticə əsaslı büdcə olaraq daha geniş şəkildə müzakirəsi aparılıb.

Komitə sədri ötən ilin büdcəsinin gəlirləri və xərcləri ilə bağlı göstəricilər haqqında əvvəlki oxunuşlarda kifayət qədər geniş məlumat verildiyini qeyd edərək vurğulayıb ki, 2021-ci il bütövlükdə ölkəmizin sosial-iqtisadi inkişafı baxımından uğurlu bir il olub və 2021-ci ilin dövlət büdcəsi COVID-19 pandemiyasının təsirləri və Vətən müharibəsindən sonra quruculuq işləri nəzərə alınmaqla icra olunub. Hesabat dövründə əlavə dəyər neft sektoru üzrə 1,8%, qeyri-neft sektoru üzrə 7,2% artıb, ÜDM-nin real artımı isə 3,4% proqnoza qarşı 5,6% təşkil edib.

2021-ci ildə ixrac idxalı 12,2 milyard dollar üstələmiş, ölkənin məcmu valyuta ehtiyatları 2,5 milyard dollar artaraq 53 milyard dollara və ya xarici dövlət borcunun 6 mislinə çatıb. Xarici dövlət borcu ilin əvvəli ilə müqayisədə 685,8 mln. dollar azalaraq ilin sonunda 8 milyard 135 milyon dollar olmaqla ÜDM-nin 14,9%-ni təşkil edib. Bildirilib ki, hesabat ilində dövlət büdcəsinin gəlirləri 25 milyard 427 milyon manat proqnoza qarşı 26 milyard 396,3 milyon manat təşkil edib. Gəlirlər proqnozla müqayisədə 969,3 milyon manat və ya 3,8 faiz çox icra olunub.

2021-ci il dövlət büdcəsinin təsdiq olunan 28 milyard 543 milyon manat xərclərinin 27 milyard 422,4 milyon manatı, yəni 96,1%-i icra olunub. Xərclərin 60,5%-ni cari xərclər, 31,5%-ni əsaslı xərclər, 8%-ni isə dövlət borcuna və öhdəliklərinə xidmətlə bağlı xərclər təşkil edib. Sosialyönümlü xərclər ümumi xərclərin 37,5%-ni təşkil edib. Dövlət büdcəsindən təhsil üçün ayrılmış xərclərin 96,7%-nin, müdafiə və təhlükəsizlik üçün ayrılmış xərclərin 99,2%-nin, meliorasiya tədbirləri üçün ayrılmış xərclərin 98,7%-nin, ərzaq təhlükəsizliyi üçün ayrılmış xərclərin 97,3%-nin, elm üçün ayrılmış xərclərin isə 84,6%-nin icrası təmin edilib. İşğaldan azad olunmuş ərazilərdə yenidənqurma və bərpa işləri üçün büdcədə nəzərdə tutulmuş 2 milyard 200 milyon manat vəsaitin 99%-nin icrası təmin olunub.

Müzakirələrdə Milli Məclis Sədrinin birinci müavini Əli Hüseynli, komitə sədrləri Siyavuş Novruzov, Zahid Oruc, deputatlar Qüdrət Həsənquliyev, Razi Nurullayev, Vüqar Bayramov, Tahir Kərimli, Vahid Əhmədov, Etibar Əliyev çıxış edərək büdcənin icrası göstəriciləri ilə bağlı rəylərini və qarşıya qoyulan hədəflərin, ayrılan vəsaitlərin yerinə yetirilməsi istiqamətində fikirlərini bildiriblər, qeydlərini səsləndiriblər.

Maliyyə naziri Samir Şərifov deputatların qaldırdıqları məsələlərə münasibət bildirib, qeydlərinə aydınlıq gətirib. Nazir çıxışında qeyd edib ki, 2021-ci il sosial-iqtisadi baxımdan xalqımız və dövlətimiz üçün uğurlu olub. Ötən il ərzində ölkəmizin beynəlxalq səviyyədə nüfuzu daha da artıb, dövlətimizin maliyyə vəziyyəti möhkəmlənib, qarşıya qoyulan əsas məsələlərlə bağlı dövlət büdcəsinin maliyyələşdirdiyi layihələrin icrasına nail olunub. Ölkədə COVID-19-a qarşı vaksinasiyanın həyata keçirilməsi, pandemiya ilə bağlı məhdudiyyətlərin yumşaldılması, dünya bazarında neftin qiymətinin artması fonunda yaranmış əlverişli daxili və xarici makroiqtisadi mühit iqtisadiyyatın daha tez bərpa olunmasına şərait yaradıb. Bildirilib ki, ötən il monetar və fiskal siyasətin sıx əlaqələndirilmiş şəkildə həyata keçirilməsi nəticəsində və milli valyutanın sabit məzənnəsi şəraitində ölkə iqtisadiyyatında sürətli bərpa və artım dinamikası müşahidə olunub. Qeyd olunub ki, 2021-ci ilin nəzərdə tutulan vəzifələri dövlət büdcəsi vasitəsilə təmin olunub.

Müzakirələrdən sonra "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclis gündəliyin yeddinci məsələsinə - "Ələt Azad İqtisadi Zonası haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin ikinci oxunuşda müzakirəsinə keçib. Məsələ ilə bağlı Sahibə Qafarova qeyd edib ki, cari il iyunun 2-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin başçılığı ilə parlamentin bir qrup deputatı Ələt Azad İqtisadi Zonasına (Ələt AİZ) səfər ediblər. Səfər çərçivəsində deputatlar zonada aparılan işlərlə, yaradılan şəraitlə yaxından tanış olublar. Səfərin "Ələt Azad İqtisadi Zonası haqqında" qanunda dəyişikliklərin mahiyyəti və ümumilikdə zonanın xarakterik cəhətlərinə yaxından bələd olmaq baxımından əhəmiyyəti vurğulanıb.

"Ələt Azad İqtisadi Zonası haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) ilə bağlı Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. Komitə sədri bildirib ki, dəyişikliklər əsasən Ələt AİZ-də Azərbaycan şirkətləri mal və xidmətləri zonaya satdıqda və ya aldıqda, həmçinin zonada qeyri-istehsal fəaliyyəti ilə məşğul olduqda onların hansı vergi və gömrük rejiminin tətbiq edilməsini tənzimləyir. Burada əsas məqsəd Azərbaycan sahibkarlarının zonada fəaliyyəti zamanı xarici şirkətlərlə eyni bərabər şəraitin yaradılmasıdır.

Qanun layihəsi səsə qoyularaq qəbul edilib.

Gündəliyin səkkizinci məsələsi - "İnvestisiya fəaliyyəti haqqında" qanun layihəsi (ikinci oxunuş) ilə də bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili məlumat verib. Komitə sədri bildirib ki, təqdim olunan sənəd cənab Prezident İlham Əliyevin "İnvestisiya fəaliyyətinin təşviq edilməsi və xarici investorların hüquqlarının qorunması ilə bağlı bir sıra tədbirlər haqqında" sərəncamından irəli gəlir. O, sənədin birinci oxunuşunda deputatlar tərəfindən irəli sürülən 20-yə yaxın təklifin qanunvericilik təşəbbüsü hüququnun subyekti ilə müzakirəsi və 7-yə yaxın təklifin nəzərə alındığını bildirib.

Bu qanun layihəsi də səsvermədən keçərək qəbul edilib.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnzibati Prosessual Məcəllədə, İnzibati Xətalar Məcəlləsində, Cinayət Məcəlləsində və "Vətəndaşların müraciətləri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (ikinci oxunuş) təqdim edib.

Bildirib ki, sənəd "Azərbaycan Respublikası vətəndaşlarının qanunvericilik təşəbbüsü hüququndan istifadə etməsi qaydası haqqında" qanunun qüvvəyə minməsi ilə əlaqədar olaraq mövcud qanunvericilik aktlarının bu qanuna uyğunlaşdırılması məqsədilə hazırlanıb.

Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova diqqətə çatdırıb ki, gündəliyin növbəti 4 məsələsi ölkə Prezidenti tərəfindən bir məktubla parlamentə daxil olub və mahiyyətcə bir-birinə yaxın qanun layihələridir. Gündəliyin onuncu - on üçüncü məsələləri müvafiq olaraq ikinci oxunuşda olan Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Milli arxiv fondu haqqında" qanunda dəyişiklik edilməsi barədə və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihələridir. Spiker bildirib ki, bu qanun layihələrinə Hüquq siyasəti və dövlət quruculuğu və Mədəniyyət komitələrində də baxılıb.

Qeyd edib ki, bu dəyişikliklər on ikinci məsələ olan "Milli Arxiv Fondu haqqında" qanuna təklif edilən dəyişikliklərə bağlıdır və digər qanunlarda edilən dəyişikliklər həmin qanundan irəli gəlir. Ona görə də birinci olaraq "Milli Arxiv Fondu haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı Mədəniyyət komitəsinin sədri Qənirə Paşayevanın məlumatı dinlənilib.

Qənirə Paşayeva qanun layihəsinin birinci oxunuşunda çıxış edən deputatların sənədi dəstəklədiklərini qeyd edib, layihənin Milli Arxiv Fondunun inkişafına və fəaliyyətinin təkmilləşməsinə xidmət etdiyini bildirib. Komitə sədri dəyişikliklərin strateji sahə olan Milli Arxiv Fondunun fəaliyyətinə və orada çalışanların sosial müdafiəsinin gücləndirilməsinə böyük dəstək olacağına inamını bildirib.

İclasda Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında (ikinci oxunuş), İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında (ikinci oxunuş) və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə (ikinci oxunuş) qanun layihələrini təqdim edib. O, qanun layihələri ilə bağlı heç bir iradın və təklifin daxil olmadığını bildirib.

Deputat Etibar Əliyevin Milli Arxiv Fondu ilə bağlı qaldırdığı məsələlərə Mədəniyyət komitəsinin sədri Qənirə Paşayeva aydınlıq gətirəndən sonra qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin qalan son üç məsələsi də dövlət başçısının bir məktubu ilə parlamentə təqdim olunub və mahiyyətcə bir-birinə yaxındır. Bu qanun layihələrində nəzərdə tutulan dəyişikliklər "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanundan irəli gəlir.

On dördüncü və on beşinci məsələlər - Cinayət Məcəlləsində dəyişiklik edilməsi haqqında və İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrinin ikinci oxunuşu ilə bağlı Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov məlumat verib. Bildirilib ki, insan orqan və toxumalarının donorluğu və transplantasiyası ilə bağlı qanunvericiliyin tələblərinin pozulması ilə bağlı təklif olunan inzibati və cinayət məsuliyyətini ehtiva edən dəyişikliklər barədə əvvəlki oxunuşda ətraflı məlumat verilib və qanun layihələri ilə bağlı heç bir təklif, irad daxil olmayıb.

Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Əhalinin sağlamlığının qorunması haqqında", "Mülki dövriyyədə olmasına yol verilməyən (mülki dövriyyədən çıxarılmış) əşyaların siyahısı haqqında", "Mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına xüsusi icazə əsasında yol verilən (mülki dövriyyəsi məhdudlaşdırılmış) əşyaların siyahısı haqqında", "İnsan alverinə qarşı mübarizə haqqında" və "Reklam haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (ikinci oxunuş) barədə danışaraq bildirib ki, bu dəyişikliklər uyğunlaşdırma xarakteri daşıyır. Əhliman Əmiraslanov qanun layihəsinin birinci oxunuşunda deputatların qanunun icrası ilə bağlı səsləndirdikləri fikirlərin müqabilində görülən işlər barədə məlumat verib.

Əhliman Əmiraslanov qeyd edib ki, "İnsan orqan və toxumalarının donorluğu və transplantasiyası haqqında" qanunun tətbiqi ilə əlaqədar Səhiyyə Nazirliyinin nəzdində Orqan Donorluğu və Transplantasiyası üzrə Koordinasiya Mərkəzi yaradılıb, eyni zamanda beyin ölümü diaqnozunun qoyulması da daxil olmaqla müvafiq sənədlər zərfi hazırlanıb, həmçinin orqan və toxumaların transplantasiyasını həyata keçirəcək klinikaların və mütəxəssislərin hazırlığı ilə bağlı tədbirlər də planlaşdırılır.

İnsan hüquqları komitəsinin sədri Zahid Oruc və İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişilinin rəhbərlik etdikləri komitələrin dəyişikliklərlə bağlı müsbət rəyləri və deputat Aydın Hüseynovun fikirləri dinlənildikdən sonra təqdim olunan hər üç qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

## "Qlobal dünya nizamına təhdidlər"

IX QLOBAL BAKI FORUMU 16-18 İYUN 2022 BAKI, AZƏRBAYCAN
NİZAMİ GƏNCƏVİ BEYNƏLXALQ MƏRKƏZİ

# IX Qlobal Bakı Forumu işini panel iclasları ilə davam etdirib

**Bakıda "Qlobal dünya nizamına təhdidlər" mövzusunda keçirilən IX Qlobal Bakı Forumunun ikinci günündə ilk panel iclası "Qlobal səhiyyənin idarə edilməsi" mövzusuna həsr olunub.**







AZƏRTAC xəbər verir ki, Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumdziyanın moderatorluğu ilə keçirilən panel iclasında "Dünyada pandemiya ilə mübarizə təcrübəsindən hansı əsas dərslər götürülə bilər?", "Sosial media dövründə "Vaksin tərəddüdü"nün yayılmasına qarşı necə mübarizə aparırıq?", "Erkən xəbərdarlıq sistemlərinin, habelə vaksinlər, terapevtik vasitələr, fərdi mühafizə vasitələri və respiratorların ötürülməsi, izlənməsi və paylanmasının daha yaxşı qlobal koordinasiyasına necə nail ola bilərik?", "ÜST-ün COVID-19 alətlərinin əlçatanlığının sürətləndirilməsinin, eləcə də COVAX-ın dövlətlər tərəfindən təcili və tam şəkildə maliyyələşdirilməsini və bu kimi gecikmələrin gələcəkdə baş verməməsini necə təmin edə bilərik?", "Əksər həssas qrupların ehtiyaclarının düzgün və sürətli şəkildə qarşılanmasını necə təmin edə bilərik?", "COVID-19 pandemiyasından sonra "daha yaxşı bərpa et" prinsipini rəhbər tutduğumuzdan yenidənqurma proqramlarının transformativ yaşıl xarakterini necə vurğulaya bilərik?", "Bütün dünyada müxtəlif icmalar daxilində dayanıqlılığı təmin etməyimizlə əlaqədar bütün ölkələrin vətəndaşları üçün əlçatanlığı necə təmin edə bilərik?" kimi mövzular ətrafında müzakirələr aparılıb.

Zlatko Laqumdziya pandemiya dövründə Azərbaycanın koronavirusa qarşı mübarizədə göstərdiyi yardımları xatırladıb və buna görə Prezident İlham Əliyevə təşəkkür edib.

Açılış nitqi ilə çıxış edən Ümumdünya Səhiyyə Təşkilatının Baş direktoru Tedros Adhanom Qebreyesus dünyada COVID-19-a yoluxma sayının kəskin azaldığını və pandemiyanın geridə qalmaq üzrə olduğunu deyib.

Onun sözlərinə görə, bir çox ölkələrdə testlərdə pozitiv nəticələrin payı azalıb. Lakin aşağı gəlirli ölkələrdə bu, problem olaraq qalmaqdadır. "Pandemiyanın sona çatması üçün insanların vaksinasiyadan keçməsi çox vacibdir. Pandemiyadan dərs çıxarmalı və növbəti belə hallara hazır olmalıyıq. COVID-19 pandemiyası təşvişlərindən birdəfəlik çıxmalıyıq. ÜST dünyada sağlamlığın təmin olunması üçün 300-dən çox təklif verib. Burada beynəlxalq alətlərin işləməsi mühüm əhəmiyyət kəsb edir. Çünki heç bir ölkə belə bir vəziyyətlə təkbaşına mübarizə apara bilməz. Ölkələr ilkin tibbi yardım sistemini səmərəli təşkil etməlidirlər", - deyən Baş direktor Ümumdünya Səhiyyə Təşkilatının ehtiyacı olan dövlətlərə tibbi yardım göstərilməsi üçün şəbəkə yaradılması üzərində işlədiyini də diqqətə çatdırıb. ÜST-ün büdcəsinin 50 faizə qədər artırıldığını bildirən T.A.Qebreyesus bunun təşkilatın texniki cəhətdən daha yaxşı xidmət göstərməsinə səbəb olacağını deyib.

Sonra BMT-nin sabiq Baş katibi Pan Gi Munun videomüraciəti təqdim edilib. IX Qlobal Bakı Forumunun çevik dialoqların aparılması üçün səmərəli platforma olduğunu vurğulayan BMT-nin sabiq Baş katibi Pan Gi Mun beyin mərkəzlərinin bir araya gəlməsi ilə sağlam gələcəyi təşviq edən düşüncələrin paylaşılmasının faydalı olacağını diqqətə çatdırıb.

"Dünya qarşısında duran təhdidləri aradan qaldırmaqla dayanıqlı inkişafa nail olmaq mümkündür. Bunun üçün yeni qaydalar işlənib hazırlanacaq və onlar icra ediləcək. ÜST tərəfindən yeni qaydaların hazırlanması və ölkələrdə icrası gündəmdə olan məsələdir. Həmin qaydaların şəffaf şəkildə həyata keçirilməsi vacibdir. Pandemiya göstərdi ki, ictimai səhiyyəyə diqqət artırılmalıdır. COVID-19 kimi yoluxucu xəstəliklərin yayılmasının qarşısının alınması çoxtərəfli əməkdaşlıqla mümkündür. Pandemiyaya cavab olaraq vaksinlər istehsal olundu. Onların ədalətli paylanması və əlçatan olması vacibdir. Gəlir səviyyəsindən asılı olmayaraq, heç bir ölkə bu prosesdən kənarda qalmamalıdır. Ümid edirəm ki, 2022-ci ildə çoxtərəfli əməkdaşlıq tətbiq etməklə sosial-iqtisadi sabitliyə nail olunacaq, rifah əldə ediləcək, xroniki risklər azalacaq. Dayanıqlı İnkişaf Məqsədlərinə də məhz belə əməkdaşlıqla nail olmaq mümkündür", - deyə Pan Gi Mun bildirib.







İclasa onlayn formatda qoşulan Kolumbiya Universitetinin professoru, Baş katibin SD üzrə xüsusi müşaviri Cefri Saks pandemiyanın alovlandığı zamanlarda bəzi ölkələrin düzgün siyasətlə epidemioloji vəziyyəti nəzarət altına aldıqlarını və yoluxma sayını azaltdıqlarını bildirib. Onun sözlərinə görə, bu prosesdə vətəndaş cəmiyyətlərinin də məsuliyyətli davranışı rol oynayıb. C.Saks pandemiya ilə əlaqəli tədqiqatların yetərli olmadığını, bəzi ölkələrin şəffaf məlumatlar və hesabatlar təqdim etmədiyini də diqqətə çatdırıb. O, Ümumdünya Səhiyyə Fondunun yaradılmasının vacibliyini vurğulayıb.

Panel iclasında çıxış edən BMT Baş Assambleyasının 73-cü sessiyasının sədri, Ekvadorun sabiq xarici işlər naziri Mariya Fernanda Espinoza çevik ümumbəşəri səhiyyə sisteminin qurulmasını vacib hesab edib.

"COVID-19 pandemiyası bizə sosial həmrəyliyin də mühüm amil olduğunu göstərdi. Belə ki, dövlət və özəl sektorlar arasında əlaqələr inkişaf etməlidir. Həmçinin koronavirus əleyhinə vaksinlər əlçatan olmalıdır. Təəssüf ki, səhiyyə xidmətləri, peyvəndlərin hamı üçün olması qaydası işləmədi. Vaksinlər ədalətli şəkildə paylanmadı. Onu qeyd etmək lazımdır ki, regional inteqrasiya COVID-19-dan əvvəl də zəif idi. Pandemiya hər kəs, xüsusilə səhiyyə sistemləri üçün dərs oldu, çoxtərəfli əməkdaşlığın vacib alət olduğunu öyrətdi. Hazırda COVID-19-dan çıxış planları hazırlanır. Bu zaman keçmiş səhvlər təkrarlanmamalıdır. Ölkələr iqtisadiyyatlarına vəsait yatırırlar. Bu məsələdə kasıb ölkələrə də yardım edilməlidir. Dayanıqlı İnkişaf Məqsədlərinə çatmaq üçün trilyon dollarla vəsait tələb olunur. Ümid edirəm ki, qlobal dünya nizamına nail olacağıq", - deyə M.F.Espinoza qeyd edib.

Latviyanın sabiq Prezidenti Valdis Zatlers pandemiyanın Ümumdünya Səhiyyə Təşkilatının nə qədər vacib bir qurum olduğunu göstərdiyini və təşkilatın ictimai səhiyyəni tənzimləyən ümumdünya nazirlik rolunu oynadığını diqqətə çatdırıb. Pandemiya dövründəki antivaksin hərəkatının da unudulmamalı olduğunu bildirən V.Zatlers deyib: "İnsanlara anlaya bildikləri dildə başa salınmalıdır ki, onlar yanlış məlumatlara doğru yönəlməsinlər. Pandemiya xaosa səbəb oldu. Peyvəndin sınaqdan keçirilmədiyi, insanlar üzərində eksperiment aparıldığı barədə dezinformasiyalar yayıldı. Halbuki, pandemiya başlayandan qısa müddət sonra xəstəxanalar doldu, maska taxılması ilə bağlı məcburiyyətlər tətbiq edildi, qapanmalara gedildi. Hər kəs anlamalıdır ki, vaksinsiz pandemiyanın öhdəsindən gəlmək mümkün olmazdı. Əfsuslar olsun ki, vaksin milliyyətçiliyinin də şahidi olduq. İnsanlara anladıqları dildə mesajlar verilməlidir. Çünki başqa bir pandemiya da yarana bilər. Bütün bunlara hazır olmaq üçün düzgün maariflənmənin olması vacibdir".

Panel iclasında çıxış edən və ölkəmizdə pandemiya ilə mübarizədən danışan səhiyyə naziri Teymur Musayev Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən bütün tədbirlərin ÜST ilə sıx əməkdaşlıq və əlaqələndirilmiş şəkildə görüldüyünü bildirib. Nazir deyib: "Dövlətimizin başçısı tərəfindən Nazirlər Kabinetinə tapşırıqlar verildi və Operativ Qərargah yaradıldı. Operativ Qərargah tərəfindən qərarlar qəbul edildi, vaksinlər paylandı və peyvəndləmə prosesi həyata keçirildi".

T.Musayev əlavə edib ki, COVID-19 pandemiyası hər bir ölkəyə müəyyən dərslər verdi. Öyrəndiyimiz dərsləri, pandemiyanı nə dərəcədə idarə edən bildiyimizi və sona gəlib çatıb-çatmadığımızı müzakirə etməyin vaxtıdır. Təəssüf ki, bu dövrdə təkcə pandemiya ilə deyil, antivaksin hərəkatına qarşı mübarizə də ön plana çıxdı. Bir sıra kütləvi informasiya vasitələrində vaksinlərlə bağlı əhalini qorxuya salan saxta məlumatlar yayıldı. Belə saxta məlumatlarla mübarizə qarşımızda duran əsas öhdəlikdir. Medianın elmi təsdiqi olmayan məlumatları yaymaq hüququ yoxdur. Media ilə tənzimlənmə aparılmalıdır. Çünki nəticədə antivaksin hərəkatı ilə üzləşdik. Azərbaycan hökuməti isə media ilə paralel işləyərək koronavirus, vaksinlər barədə vaxtaşırı dolğun, düzgün məlumatları ictimaiyyətə çatdırdı. Vətəndaşların dövlətə güvənməsi səhiyyə sistemlərinin düzgün təşkilində vacib amildir. Ümumiyyətlə pandemiyanın tədbirləri düzgün anlaşılmasında əhalinin savadlılığı vacibdir.

Pandemiyanın səhiyyə sisteminə düzgün investisiyaların yatırılmasının vaxtı gəlib çatdığını göstərdiyini vurğulayan nazir deyib: "Pandemiya böhrandır. Böhranlar olmadan tərəqqiyə nail olmaq mümkün deyil. Bu, bizi müəyyən addımlar atmağa sövq etdi və çoxtərəfli əməkdaşlığın vacibliyini öyrətdi".

Bosniya və Herseqovinanın sabiq Prezidenti Mladen İvaniç milyonlarla doza vaksinin zəngin ölkələr tərəfindən alınıb saxlanıldığı və yararsız hala salındığını vurğulayıb. Onun sözlərinə görə, hətta ölkələr arasında əməkdaşlıq əvəzinə, rəqabət də yarandı. "Virus infeksiyaları asanlıqla yayılır və sərhəd tanımır. Sərhədlər bağlansa da, yayılmanın qarşısını almaq mümkün olmur. Odur ki, çoxtərəfli əməkdaşlıq məsələləri ön planda olmalıdır. Kasıb ölkələrdə çox inkişaf etməyən səhiyyə sisteminin mövcudluğu yeni pandemiyaların yaranmasını qaçılmaz edir. Onlara kömək etmək lazımdır. Hər kəs gələcək təhdidlərə hazır olmalıdır", - deyə sabiq prezident bildirib.

Panel iclası müzakirələrlə davam edib.

❖ ❖ ❖

IX Qlobal Bakı Forumunun "Cənubi Qafqaz, barışıq, əməkdaşlıq və inteqrasiya" mövzusuna həsr olunan panel iclasına Latviyanın sabiq Prezidenti Valdis Zatlers (2007-2011) moderatorluq edib.

İclasda Ermənistanla Azərbaycan arasında uzunmüddətli silahlı münaqişənin və əvvəlki müharibələr nəticəsində tamamilə pozulmuş münasibətlərin necə bərpa edilməsi, Ermənistan-Azərbaycan münasibətlərinin normallaşdırılması prosesində vasitəçilik prosesləri, bu əlaqələrin potensial olaraq kimlər tərəfindən pozula biləcəyi və onların cəhdlərinin minimuma endirilməsi, dünya ölkələrinin Cənubi Qafqazda sabitlik və sülhü necə təmin edə biləcəyi ilə bağlı fikir mübadiləsi aparılıb.

Panel müzakirələrdə Azərbaycanın xarici işlər nazirinin müavini Elnur Məmmədov, Gürcüstan sabiq Baş nazirinin müavini Eka Tkeşelaşvili (2010-2012), Türkiyənin sabiq xarici işlər naziri Hikmət Çetin (1991-1994), Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliev (2012-2017), Rumıniyanın sabiq xarici işlər naziri (2008, 2015-2017), Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Daimi Beynəlxalq katibliyinin Baş katibi Lazar Komanesku və Rusiyanın sabiq Baş nazirinin birinci müavini (1991-1992), Rusiyanın sabiq dövlət katibi (1991-1992) Gennadi Burbilis iştirak ediblər.

Xarici işlər nazirinin müavini Elnur Məmmədov Ermənistan-Azərbaycan münasibətlərinin yaxşılaşdırılması, sülh prosesi üçün təşəbbüslərdən danışıb, son altı ayda qazanılan nailiyyətlərdən bəhs edib. O, iki ölkə arasında münasibətlərin normallaşdırılmasının, sülhün təmin olunmasının regiona rifah və inkişaf gətirəcəyini bildirib. Elnur Məmmədov vurğulayıb ki, sərhədlərin beynəlxalq hüquq çərçivəsində tanınması, Ermənistanın Azərbaycana qarşı ərazi iddialarından imtina etməsi vacibdir. O, həmçinin qeyd edib ki, Cənubi Qafqazın üç ölkəsi regionun inkişafı üçün əməkdaşlıq etməlidir.

Cənubi Qafqaz regionunda nəqliyyat, logistika əlaqələrindən də danışan nazir müavini qeyd edib ki, Azərbaycanla Gürcüstan arasında bu sahədə əməkdaşlıq davamlı xarakter alıb. E.Məmmədov indiyədək iki ölkə arasında bir çox yolların inşa edildiyini, neft və qaz layihələrinin həyata keçirildiyini bildirib.

"Avropa İttifaqı Ermənistan-Azərbaycan münasibətlərinin yaxşılaşdırılması üçün öz töhfəsini verib. Avropa İttifaqı Şurası prezidenti Şarl Mişelin təşəbbüsü ilə görüşlər keçirilib. Görüşlərdən sonra delimitasiya komissiyası yaradılıb. Bu il mayın 24-də komissiyanın ilk iclası keçirilib. Biz sülh müqaviləsinin işlənib hazırlanması üçün işçi qrupu barədə Ermənistandan cavab gözləyirik", - deyə nazir müavini qeyd edib.

Gürcüstan sabiq Baş nazirinin müavini Eka Tkeşelaşvili (2010-2012) Qlobal Bakı Forumunda Cənubi Qafqaz bölgəsindəki proseslərdən danışılmasının təqdirəlayiq olduğunu bildirib. Ötən altı ay ərzində Azərbaycanla Gürcüstan arasında ikitərəfli münasibətlərin inkişaf etdiyini diqqətə çatdırıb.

E.Tkeşelaşvili Azərbaycan torpaqlarının işğaldan azad olunması ilə sülhə doğru müəyyən addımların atıldığını və Gürcüstanın bu danışıqlarda iştirak etməyə hazır olduğunu vurğulayıb.

"Hazırda Cənubi Qafqaz regionunda yeni reallıq mövcuddur. Bu reallıq məhz Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsi ilə yaranıb. Artıq ikitərəfli münasibətlərin inkişaf etdirilməsi ilə ticarətin həcmi artırıla, yeni nəqliyyat layihələri həyata keçirilə bilər", - deyə Eka Tkeşelaşvili diqqətə çatdırıb.

Türkiyənin sabiq xarici işlər naziri Hikmət Çətin (1991-1994) Türkiyənin Ermənistan-Azərbaycan münasibətlərinin yaxşılaşdırılması prosesində iştirakından, ölkəsinin bu münaqişənin həlli üçün göstərdiyi səylərdən danışıb. O, Türkiyənin Azərbaycanın torpaqlarının işğalından sonra Ermənistanla sərhədləri bağladığını vurğulayıb.

Sabiq xarici işlər naziri 30 il sonra Azərbaycanın öz ərazilərini azad etməsi və bölgədəki vəziyyətin normallaşdırılması prosesinə də toxunub. Deyib ki, Qafqaz regionunda sabitliyin təmin edilməsi bölgəyə davamlı inkişaf gətirəcək.

"Ermənistan hələlik atəşkəs prinsiplərinə riayət etmir. Laçın dəhlizi açıqdır və fəaliyyət göstərir. Lakin Zəngilan dəhlizi hələ də açılmayıb. Bu proses üzərində çalışmaq və keçirilən görüşlərdə qəbul edilən qərarları yerinə yetirmək vacibdir. Sülh müqaviləsi regiona iqtisadi inkişaf və rifah gətirəcək", - deyə Hikmət Çətin vurğulayıb.

Bolqarıstanın sabiq Prezidenti Rosen Plevneliev (2012-2017) çıxışında Qlobal Bakı Forumunun dünyanın bir çox ölkəsindən rəsmiləri, alimləri bir araya gətirdiyini söyləyib, Azərbaycanın sülh üçün bir nümunə olduğunu qeyd edib.

"Regionda sülhün təmin olunması bölgəyə inkişaf gətirəcək. Münaqişələrin tam həlli üçün sülh müqaviləsinin imzalanması vacibdir. Sülh müqaviləsi Budapeşt Memorandumuna və ya Minsk razılaşmalarına oxşamamalı, dayanıqlı olmalıdır. Prezident İlham Əliyevin də dediyi kimi, Ermənistanı inteqrasiya etmək lazımdır. Müasirləşdirilmiş Ermənistana töhfə verən layihələr təklif etməliyik. Ermənistan və Azərbaycan regionun inkişafı üçün əməkdaşlıq etməlidir", - deyə R.Plevneliev qeyd edib.

O, Türkiyənin Cənubi Qafqaz bölgəsində münaqişənin həllində rolunun böyük olduğunu, münasibətlərin yaxşılaşdırılması üçün təşəbbüs göstərdiyini qeyd edib.

Sabiq Prezident həmçinin Cənubi Qafqazın inkişafı üçün Çin ilə əməkdaşlığın faydalı olacağını vurğulayıb.

Rumıniyanın sabiq xarici işlər naziri Lazar Komanesku yenidən Bakıda olmasından məmnunluğunu bildirib. O, bu beynəlxalq forumda iştirak etməkdən şərəf duyduğunu söyləyib.

L.Komanesku Qara dəniz bölgəsinin geostrateji mövqeyindən danışıb, Cənubi Qafqaz regionu ilə əməkdaşlıq barədə fikirlərini ifadə edib. O, Cənubi Qafqaz regionunun son illərdə davamlı olaraq inkişaf etdiyini bildirib.

Lazar Komanesku həmçinin sülh müqaviləsinin imzalanmasının Cənubi Qafqaz ölkələrinin inkişafı üçün münbit zəmin yaradacağına əminliyini bildirib.

Rusiyanın sabiq Baş nazirinin birinci müavini Gennadi Burbilis hazırda regionda dərin, fundamental şəraitin yarandığını bildirib. O, iyunun 16-da Prezident İlham Əliyevin mövcud vəziyyəti nikbinlik və əminliklə forum iştirakçılarına çatdırdığını qeyd edib.

"Sülhün təmin edilməsi üçün heç bir ciddi əngəl yoxdur. Rusiya sülhün təmin edilməsini dəstəkləyir", - deyə sabiq dövlət katibi qeyd edib.

Onun sözlərinə görə, artıq səmimi vasitəçilik anlamı var. "Yüzlərlə danışıq aparıla, yüzlərlə hesabat verilə bilər. Lakin nə olursa-olsun, proseslər nəticəyönümlü və siyasi etika çərçivəsində olmalıdır", - deyə Gennadi Burbilis diqqətə çatdırıb.

Sonra müxtəlif məsələlər üzrə müzakirələr aparılıb.

❖ ❖ ❖

Bakı Forumu iyunun 17-də "Dəyişən Avropa və Qərbi Balkanların təhlükəsizliyi" mövzusunda panel iclası ilə davam edib.

Bosniya və Herseqovinanın sabiq Baş naziri Zlatko Laqumdziyanın və Amerika xarici siyasəti üzrə Milli Komitəsinin prezidenti və baş icraçı direktoru Suzan Elliotun moderatorluğu ilə keçirilən iclasda Breksit və Avropada liberal demokratiyaların meydana gəlməsinin Avropa İttifaqının (Aİ) dünya səhnəsində oynamalı olduğu rola necə təsir edəcəyi, Avropa ilə onun qonşuları arasında hansı hərbi təhlükəsizlik mexanizmləri işlənib hazırlanması, ABŞ-ın və Rusiyanın yenicə təşəkkül tapan yeni quruluşda oynayacaqları rol, Aİ-nin Şərqi Avropada səmərəli sülh və təhlükəsizlik tədbirlərini səmərəli surətdə artırması, Aİ, Qərbi Balkan regionu və Cənubi Qafqaz arasındakı münasibətlər, həmçinin digər məsələlərlə bağlı fikir mübadilələri aparılıb.

Panel müzakirələrində əsas məruzəçi Albaniyanın Prezidenti İlir Meta, məruzəçilər Xorvatiyanın sabiq Prezidenti İvo Yosipoviç, Serbiyanın sabiq Prezidenti Boris Tadiç, Macarıstanın sabiq Baş naziri Peter Medgyessi, Monteneqronun sabiq Prezidenti Filip Vuyanoviç və Albaniyanın sabiq Prezidenti və Baş naziri Sali Berişa iştirak ediblər.

*Ardı 6-cı səh.*

"Qlobal dünya nizamına təhdidlər"

# IX Qlobal Bakı Forumu işini panel iclasları ilə davam etdirib

Əvvəli 5-ci səh.

Albaniya Prezidenti İlir Meta Avropa İttifaqının daha da genişlənə biləcəyini bildirib, Aİ-nin resurslarının məhdud olduğunu qeyd edib. İttifaqın özünəməxsus hərbi qüvvələri olduğunu diqqətə çatdıran Prezident İlir Meta deyib ki, NATO da Bosniya və Herseqovina ilə Kosovo arasında səmərəli dialoqun aparılmasına təşəbbüs göstərməlidir.

"Qarşımızda çoxlu çağırışlar var. Avropa İttifaqının siyasətində əsas məsələ əməkdaşlıq və sabitliyin təmin edilməsidir. Albaniya İttifaqın Qərbi Balkanadək genişlənməsinin tərəfdarıdır. Berlin prosesi Qərbi Balkan regionuna tətbiq olunmur. Biz düşünürük ki, bu, maliyyə çarxları vasitəsilə edilməlidir", - deyə İ.Meta diqqətə çatdırıb.

Xorvatiyanın sabiq Prezidenti İvo Yosipoviç bildirib ki, Qərbi Balkan regionunda millətçilik azalmalı, Serbiya və Kosovo bir-birinin müstəqilliyini qarşılıqlı surətdə tanımalıdır. Həmçinin bu bölgədə korrupsiya aradan qaldırılmalı, iqtisadi və mədəni əlaqələr inkişaf etməlidir.

Onun sözlərinə görə, ABŞ və Aİ Qərbi Balkan ölkələrinə dəstək göstərə bilərlər. Ancaq əsas qərarlar region ölkələri tərəfindən verilməlidir. Avropa İttifaqının Qərbi Balkan ölkələrinə korrupsiya ilə mübarizədə kömək göstərməli olduğunu bildirən sabiq Prezident deyib ki, ABŞ da bu prosesdə region ölkələrinə yardım etməlidir.

Serbiyanın sabiq Prezidenti Boris Tadiç Qərbi Balkan regionunun davamlı inkişafının, sadəcə, qarşılıqlı hörmət əsasında baş verə biləcəyini bildirib.

"Serbiya Prezidenti olduğum müddətdə Avropa İttifaqında hər zaman inteqrasiyadan danışılıb. Avropa İttifaqına inteqrasiya üçün nə mümkündürsə, onu da edirik. İndi Avropa İttifaqı deyir ki, biz Qərbi Balkan regionuna daha çox diqqət göstərməliyik", - deyə B.Tadiç qeyd edib.

Macarıstanın sabiq Baş naziri Peter Medgyessi Qərbi Balkan ölkələrinin Avropa İttifaqına qatılması ilə bağlı fikirlərini bölüşərək deyib: "Qərbi Balkan ölkələrinin təhlükəsizliyindən danışarkən Aİ-nin də təhlükəsizliyini düşünməliyik. Biz, ilk növbədə, yeni dünya nizamı barədə danışmalıyıq. Bəyan etməliyik ki, ABŞ bizim üçün vacib oyunçudur və bu, belə də qalacaq. Biz çoxqütblü dünyaya yaxınlaşırıq və vəziyyətin tənzimlənməsi üçün bir təsisat yaradılmalıdır".

Monteneqronun sabiq Prezidenti Filip Vuyanoviç isə qeyd edib ki, baş verən münaqişələr dünya nizamına ziyan vurur. Aİ münaqişələrin həlli istiqamətində ən layiqli siyasəti yürütməlidir. "Artıq 10 ildir Monteneqroda genişlənmə prosesi davam edir. Monteneqro, demək olar ki, Aİ standartlarına uyğunlaşıb və artıq Avropa İttifaqına qəbul edilməlidir", - deyə sabiq Prezident bildirib.

F.Vuyanoviç həmçinin Qərbi Balkan ölkələrində ümumi ticarət bazarının açılmasının vacibliyini vurğulayıb.

Albaniyanın sabiq Prezidenti və Baş naziri Sali Berişa Qərbi Balkan regionunun böyük inkişaf əldə etsə də, təhlükəsizliyinin hələ də yüksək səviyyədə olmadığını qeyd edib. O bildirib ki, region ölkələrində millətçilik mövcuddur və bu, münaqişəni alovlandırır.

"Düşünürəm ki, Serbiya ilə Bosniya və Herseqovina arasında müqavilə çox vacibdir. Biz regiondakı problemləri öz aramızda həll etməliyik", - deyə S.Berişa vurğulayıb.

❖ ❖ ❖

Forumun ikinci gününün proqramında nəzərdə tutulan 4 panel iclasından sonuncusu "Yaxın Şərqdə ərəb və müsəlman dünyasında sülh, təhlükəsizlik və inkişaf axtarışı" mövzusuna həsr olunub.

Panel iclasında Yaxın Şərqdə sülh, təhlükəsizlik və sabitliyin gücləndirilməsi üçün daha yaxşı çərçivə təmin edə bilən aktorlar, mövcud mübahisələrin həlli yolları, regionda nüvə silahının yayılmasının qarşısının alınması, dünyada enerji istehsalı, neft və qaz ixracı üzrə şaxələndirmənin enerji bazarının qeyri-sabitliyinə təsiri, həmçinin sünni-şiə məsələsinin həm dövlət, həm də qeyri-dövlət sahəsində aktorlara təsiri ilə bağlı müzakirələr aparılıb.

İclasa Ərəb Dövlətləri Liqasının sabiq rəhbəri, Misirin sabiq xarici işlər naziri Əmr Musa moderatorluq edib.

Əmr Musa Yaxın Şərqdə mövcud vəziyyətdən narahatlıqla danışaraq regionda sülhün, təhlükəsizliyin və sabitliyin təmin olunması istiqamətində görüləcək işlərdən danışıb. Bildirilib ki, hazırda dünyada vəziyyətin gərginliyi bu barədə düşünməyə əsas verir. O, mövcud mübahisələrin həlli yolları, regionda nüvə silahının yayılmasının qarşısının alınması məqsədilə region ölkələrini münaqişələrə son qoymağa və birliyə çağırıb.

Ərəb Dövlətləri Liqasının Baş katibi Əhməd Əbul Qeyt bildirib ki, hazırda dünyada, həmçinin regionda vəziyyət çox gərgindir. Dünyanı gözləyən təhlükənin qarşısının alınması gündəmdə olan məsələdir. Ümumiyyətlə, qlobal təhlükə və qütblük geniş vüsət alıb və gərginlik yaradıb.

İqtidarda radikal ruhlu şəxslərin olmasının mövcud təhlükəli vəziyyətə mənfi təsir etdiyini bildirən Qeyt vurğulayıb ki, münaqişələr gələcəyimizə təsir edən mühüm amildir. O deyib: "Suriyada, Yəməndə vətəndaş müharibələri təhlükəsizliyə ciddi ziyan vurub. Ən çox Suriyadakı vəziyyət ürək ağrıdır.

Regional oyunçular mövcud vəziyyətə təsir edirlər. Bu oyunçular regionda hakimiyyəti əldə saxlamaq üçün sünni-şiə məsələsini də ortaya atırlar".

Yaxın Şərqdə mövcud çoxillik münaqişələrdən danışan Əhməd Əbul Qeyt bildirib ki, bu münaqişələrə son qoymaq lazımdır.

Ərəb Dövlətləri Liqasının regional münaqişələrin həlli ilə bağlı bir sıra məsələləri qaldırdığını qeyd edən İsrailin sabiq Baş naziri Ehud Barak deyib: "Düşünürəm ki, regionda mövcud olan münaqişələrdə dini aspektlər mühüm rol oynayır. Ekstremist, radikal qüvvələr hər zaman və hər yerdə var. Amma təəssüf ki, bu, bizim regionda üstünlük təşkil edir".

Yaxın Şərqdə təhlükəsizlik problemlərinin narahatlıq doğurduğunu diqqətə çatdıran E.Barak qeyd edib: "Suriya, Yəmən, İraq və digər dövlətlərdə problemlər yaranır. Bunun əziyyətini isə xalqlar çəkirlər. Bəs vəziyyətdən necə çıxmaq olar? Düşünürəm ki, İslam dünyasının alimləri bu məsələdə müsəlmanların müqəddəs kitabı olan "Qurani-Kərim"ə əsaslanaraq kömək edə bilərlər".

Sabiq Baş nazir qeyd edib ki, regionda sülhün bərqərar olması üçün səylərimizi birləşdirməliyik. Bizim fələstinlilərlə razılığa gəlməyimiz üçün imkanlar var.

Regionda sülh və təhlükəsizliyin təmin olunması məsələsində illərdir davam edən İsrail-Fələstin məsələsinə toxunan Türkiyənin sabiq xarici işlər naziri Yaşar Yakiş BMT-nin bu münaqişəli məsələyə obyektiv münasibət göstərmədiyini vurğulayıb. Onun sözlərinə görə, məhz qeyri-obyektiv yanaşma vəziyyətə mənfi təsir göstərib.

Yaxın Şərq regionunun enişli-yoxuşlu və mürəkkəb dövr yaşadığını diqqətə çatdıran Yaşar Yakiş əsrlər boyu yığılıb qalmış problemlərin tədricən özünü büruzə verdiyini qeyd edib.

"Düşünürəm ki, barışıq mümkündür və iki dövlət razılığa gəlməlidir. Biz əvvəlki Avropaya baxsaq görərik ki, bu qitədə də çoxtərəfli münasibətlər olub. Suriya məsələsinə gəldikdə, bu ölkə çox çətin dövr keçib. Türkiyə ilk dövrlərdən öz mövqeyini açıqlayıb və öz dəstəyini göstərir", - deyə Yaşar Yakiş bildirib.

Avropa İqtisadi Komissiyasının icraçı baş katibi Yan Kubiş isə bildirib ki, Yaxın Şərq regionunda təhlükəsizliyin təmin olunması üçün ilk növbədə Fələstin-İsrail münaqişəsinə son qoyulmalıdır. Xalqı fikirləşmək lazımdır. Münaqişələr dövləti və xalqı parçalayır. Ərəb baharının təkrarlanmasına yol vermək olmaz.

Nüvə silahlarına qarşı mübarizə aparmağın vacibliyini vurğulayan Y.Kubiş iqlim dəyişikliyindən, su ehtiyatının azalmasından, miqrantların sayının artmasından danışıb. Yan Kubiş diqqətə çatdırıb ki, biz seçim etməliyik, regionda sülh, yoxsa davamlı münaqişə və müharibələr.

Qırğızıstanın sabiq Baş naziri Comart Otorbayev qonşu ölkə Əfqanıstan və orada baş verən hadisələrdən narahatlıqlarını diqqətə çatdırıb. C.Otorbayev "Taliban" hakimiyyətinin regionda təhlükə yaratdığını qeyd edib. "Əfqanıstanda insan hüquqları kobud şəkildə pozulur. Miqrantların sayı artmaqdadır. Misirli alimlərdən xahiş edirəm ki, "Taliban" hərəkatı ilə bağlı araşdırma aparsınlar, bu hərəkatın kökünü müəyyən etsinlər", - deyə Qırğızıstanın sabiq Baş naziri bildirib.

Panel iclas müzakirələrlə davam edib.

İclasdan sonra forum iştirakçılarının şərəfinə ziyafət verilib.

Qeyd edək ki, "Qlobal dünya nizamına təhdidlər" mövzusunda keçirilən Qlobal Bakı Forumunda 50-dən çox ölkənin, eləcə də nüfuzlu beynəlxalq təşkilatların nümayəndələri iştirak edirlər. Forumda qlobal dünya nizamını təhdid edən mühüm problemlər, o cümlədən dünyada təhlükəsizliyin və sülhün təmin olunması üçün perspektivlər, enerji təhlükəsizliyinə yaranan təhdidlərin həlli yolları, həssas bölgələrdə sülh, əməkdaşlıq və inteqrasiya, qloballaşan dünyada artan ədalətsizliklər, yoxsulluğun qarşısının alınması üçün qida və kənd təsərrüfatı sektorunun transformasiyası kimi mühüm mövzularda səmərəli müzakirələr aparılacaq.

Forum işini iyunun 18-də başa çatdıracaq.

# Baş nazirin müavini Şahin Mustafayevin rəhbərlik etdiyi nümayəndə heyəti 25-ci Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda iştirak edib

**İyunun 15-17-də Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayevin başçılıq etdiyi nümayəndə heyəti 25-ci Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunda iştirak etmək məqsədilə Rusiyaya səfər edib.**




AZƏRTAC xəbər verir ki, nümayəndə heyəti İqtisadiyyat Nazirliyinin, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin, Kənd Təsərrüfatı Nazirliyinin, Dövlət Ehtiyatları Agentliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin və digər qurumların səlahiyyətli nümayəndələrindən ibarətdir.

Səfər çərçivəsində Rusiya Federasiyası Hökumətinin sədrinin birinci müavini Andrey Belousov, Hökumətin sədrinin müavini Aleksey Overçuk, Rusiya Federasiyası Prezidentinin köməkçisi Maksim Oreşkin, sənaye və ticarət naziri Dmitri Manturov, Sankt-Peterburq şəhər Administrasiyasının Xarici Əlaqələr Komitəsinin sədri Yevgeni Qriqoryev ilə görüşlər keçirilib.

Səfər zamanı Azərbaycan nümayəndə heyəti həmçinin 25-ci Sankt-Peterburq Beynəlxalq İqtisadi Forumunun plenar iclasında iştirak edib.

Nümayəndə heyəti forumun işi və tədbir çərçivəsində müxtəlif pavilyonlar ilə tanış olub, habelə bir sıra digər görüşlər keçirib.

# Dövlət Komissiyasının ötən dövr ərzində görülmüş işlərə və qarşıda duran vəzifələrə dair iclası keçirilib

İyunun 17-də Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının iclası keçirilib.



AZƏRTAC xəbər verir ki, əvvəlcə tədbir iştirakçıları mərkəzin foyesində Dövlət Komissiyası tərəfindən müxtəlif dillərdə nəşr edilmiş əyani vəsaitlərlə tanış olub, Birinci Qarabağ münaqişəsi nəticəsində itkin düşmüş Azərbaycan vətəndaşlarının fotoşəkillərindən ibarət sərgiyə baxıblar.

Dövlət Təhlükəsizliyi Xidmətinin rəisi, Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyasının sədri Əli Nağıyev komissiyanın Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamı ilə təsdiq olunmuş yeni tərkibdə ilk iclasını açıq elan etdikdən sonra Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Son illərdə Dövlət Komissiyası tərəfindən görülən işlər barədə danışan sədr Əli Nağıyev Birinci Qarabağ müharibəsində itkin düşən 3890 nəfər Azərbaycan vətəndaşı barədə məlumatların Ermənistan tərəfindən beynəlxalq humanitar hüquq normalarının ziddinə olaraq bu günə kimi təqdim olunmadığını, onların sırasından yalnız 100-dən artıq itkin düşmüş şəxsə aid olması ehtimal olunan meyit qalıqlarının təhvil verildiyini və hazırda eyniləşdirmə prosesinin aparıldığını vurğulayıb. Eyni zamanda bildirilib ki, Vətən müharibəsi başa çatdıqdan sonra 12 nəfər hərbçimizin yaralanaraq əsir düşdüyü məlum olub və beynəlxalq təşkilatların vasitəçiliyi ilə onlar qısa vaxtda Vətənə qaytarılıb. Altı hərbçimizin isə taleyi bu vaxtadək qeyri-müəyyən olaraq qalmaqdadır. Humanizm prinsiplərini daim rəhbər tutan Azərbaycan Respublikası isə əldə olunmuş tarixi qələbədən sonra düşmən tapdağından azad olunmuş torpaqlarda tapılmış 1713 nəfər Ermənistan hərbi qulluqçusunun cəsədlərinin qalıqları və müxtəlif vaxtlarda saxlanılmış 159 nəfər erməni əsiri qarşı tərəfə qaytarıb.

Komissiya sədri itkin vətəndaşlarımızın axtarışı üzrə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırığına uyğun olaraq, intensiv və təxirəsalınmaz tədbirlərin bundan sonra da davamlı və operativ şəkildə həyata keçiriləcəyini, bu istiqamətdə mövcud beynəlxalq əməkdaşlığın daha da genişləndiriləcəyini qeyd edib. Eyni zamanda Yaxın Şərqdə baş vermiş silahlı münaqişələr zamanı qeyri-qanuni silahlı birləşmələrin tərkibində döyüşlərdə iştirak etmiş şəxslərin İraq və Suriyada saxlanılan ailə üzvlərinin, xüsusən də qadın və uşaqların repatriasiyası və reabilitasiyası ilə bağlı müvafiq tədbirlərin görüldüyü və indiyədək hər iki ölkədən ümumilikdə mərhələli şəkildə 366 nəfərin repatriasiya edildiyi nəzərə çatdırılıb. Sonra Dövlət Komissiyasının katibi, İşçi qrupunun rəhbəri İsmayıl Axundov çıxış edərək Əli Nağıyevin rəhbərliyi altında son illərdə Dövlət Komissiyası tərəfindən əsir və itkin düşmüş şəxslərlə əlaqədar həyata keçirilmiş önəmli tədbirlər barədə geniş məlumat verib, qurumun fəaliyyətinin keyfiyyətcə yeni mərhələyə qədəm qoyduğunu, bu sahə üzrə mötəbər beynəlxalq təşkilatlarla sıx əməkdaşlıq münasibətlərinin qurulduğunu vurğulayıb, həmçinin meyit qalıqlarının axtarışı zamanı yeni texnologiyaların uğurlu tətbiqindən danışıb. O bildirib ki, bu günədək Ermənistan tərəfindən təhvil verilmiş, o cümlədən işğaldan azad olunmuş ərazilərdə aşkarlanmış və ölkə ərazisindəki naməlum şəhid məzarlıqlarında dəfn edilmiş meyit qalıqları üzrə ümumilikdə 282 məhkəmə molekulyar-genetik ekspertizası təyin olunub.

Tədbirdə həmçinin Xarici İşlər Nazirliyinin Konsulluq idarəsinin rəisi Emil Səfərov İraq və Suriyada saxlanılan Azərbaycan vətəndaşlarının repatriasiyası ilə bağlı məruzə edib, bu sahədə görülmüş və gələcəkdə görüləcək işlər barədə ətraflı məlumat verib.

Daha sonra Beynəlxalq Qızıl Xaç Komitəsinin Azərbaycan Respublikasındakı nümayəndəliyinin başçısı xanım Arian Bauer, Dövlət Komissiyasının üzvləri - Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti İsa Həbibbəyli, hərbi prokuror Xanlar Vəliyev, xarici işlər nazirinin müavini Xələf Xələfov, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi sədrinin müavini Sədaqət Qəhrəmanova, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədri Azay Quliyev çıxış edərək çalışdıqları sahələr üzrə gündəlikdə duran məsələlərdən danışıblar. Qeyd olunub ki, Birinci Qarabağ müharibəsi zamanı Beynəlxalq Qızıl Xaç Komitəsi tərəfindən həm Ermənistan ərazisində, həm də işğal edilmiş ərazilərdə saxlanılan 54 nəfər Azərbaycan Respublikası vətəndaşına baş çəkilib, onlardan 17 nəfərinin meyiti sonradan Azərbaycana təhvil verilib, 33 nəfərin öldüyü bildirilsə də, meyitləri qaytarılmayıb, 4 nəfərin isə sonrakı taleyi barədə ümumiyyətlə məlumat verilməyib.

İclasın yekununda Dövlət Komissiyasının sədri Əli Nağıyev qarşıda duran mühüm vəzifələr barədə ətraflı bəhs edib, əsir-girov götürülmüş, itkin düşmüş vətəndaşlarımızın taleyinə aydınlıq gətirilməsi yönümündə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin beynəlxalq arenada həyata keçirdiyi fəaliyyətin xüsusilə təqdirəlayiq olduğunu vurğulayıb. Həmçinin Dövlət Komissiyasına həvalə olunmuş məsələlərin və tapşırıqların yerinə yetirilməsi istiqamətində bundan sonra da bütün qüvvə və vasitələrin səfərbər olunacağını diqqətə çatdırıb.

# Azərbaycan ilə Rumıniya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi qeyd edilib

İyunun 17-də Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində Azərbaycan Respublikası və Rumıniya arasında diplomatik münasibətlərin qurulmasının 30-cu ildönümü münasibətilə tədbir və sərgi keçirilib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, tədbirdə XİN-in rəhbər heyəti, Rumıniyanın Azərbaycan Respublikasındakı səfirliyinin rəhbərliyi və əməkdaşları, habelə Bakı Qlobal Forumunda iştirak məqsədilə ölkəmizdə səfərdə olan Rumıniyanın keçmiş Prezidenti Emil Konstantinesku, sabiq Baş nazirinin müavini Ana Birçal, sabiq xarici işlər naziri və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının (QDİƏT) hazırkı baş katibi Lazar Komanesku, eləcə də digər qonaqlar iştirak ediblər.

Tədbir hər iki ölkənin Dövlət himnlərinin səslənməsi ilə başlayıb.

Tədbirdə çıxış edən Azərbaycan Respublikasının xarici işlər nazirinin müavini Xələf Xələfov son 30 il ərzində Azərbaycan və Rumıniya arasında müxtəlif istiqamətlərdə inkişaf edən münasibətlərin strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyini bildirib. Xələf Xələfov bu xüsusda həyata keçirilmiş çoxsaylı qarşılıqlı səfərlərin əhəmiyyətini vurğulayıb. Ölkələrimiz arasında iqtisadi əlaqələr və əməkdaşlığın uğurla inkişaf etdiyini bildirən nazir müavini Xələf Xələfov iqtisadi-ticarət sahəsində əməkdaşlığın genişlənməsi üçün böyük imkanların mövcudluğunu ifadə edib.

Daha sonra çıxış edən Rumıniyanın Azərbaycan Respublikasındakı səfiri Vasile Soare Azərbaycan Respublikası ilə Rumıniya arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyi münasibətilə öz səmimi təbriklərini çatdırıb. Rumıniyanın Türkiyədən sonra Azərbaycanın müstəqilliyini tanıyan ikinci dövlət olmasını bildirən səfir Vasile Soare 30 il ərzində ölkələrimiz arasında müxtəlif sahələrdə inkişaf edən dostluq və strateji tərəfdaşlıq münasibətlərini məmnunluqla qeyd edib və bu xüsusda 2009-cu ildə ölkələrimiz arasında imzalanan strateji tərəfdaşlıq haqqında Bəyannamənin əhəmiyyətini vurğulayıb. 30 il ərzində iki ölkə arasında münasibətlərin müxtəlif sahələrdə, o cümlədən siyasi, iqtisadi və mədəni sahələrdə inkişaf edən münasibətlərdən məmnunluq ifadə edən səfir bu xüsusda iki ölkə arasında mövcud ali səviyyəli dialoqun əhəmiyyətini qeyd edib.

Tədbirdə həmçinin Rumıniyanın sabiq Baş nazirinin müavini Ana Birçal, Rumıniyanın sabiq xarici işlər naziri Lazar Komanesku çıxış edərək iki ölkə arasında diplomatik münasibətlərin qurulması münasibətilə öz səmimi təbriklərini çatdırıb, habelə Azərbaycan və Rumıniya arasında münasibətlərin inkişafına dair baxışlarını tədbir iştirakçıları ilə bölüşüblər.

Tədbirin sonunda iştirakçılar Azərbaycan və Rumıniya arasında diplomatik münasibətlərin 30 illiyinə həsr edilmiş sərgi ilə tanış olublar.



# İlham Əliyev beynəlxalq birliyi qlobal təhdidlərə qarşı həmrəyliyə çağırdı

## Dünyanın 50-dən çox ölkəsinin siyasi xadimlərinin iştirak etdiyi IX Bakı Qlobal Forumunda yeni reallıqlarla bağlı mühüm təkliflər səsləndirildi

**Sivilizasiyalararası əməkdaşlığın mühüm platformasına çevrilən Azərbaycanda dünyanın siyasi arenasında baş verən məsələlərə təsir göstərmək imkanlarına malik olan Bakı Qlobal Forumunun IX toplantısı keçirilir.**

Prezident İlham Əliyevin himayəsi altında və Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə reallaşan və dünyanın 50-dən çox ölkəsinin nüfuzlu syasi xadimlərinin, həmçinin beynəlxalq təşkilatların nümayəndələrinin iştirak etdiyi forumda qlobal təhdidlər, o cümlədən təhlükəsizliyin və sülhün təmin olunması perspektivləri, enerji təhlükəsizliyinə yaranan təhdidlərin aradan qaldırılması yolları, həssas bölgələrdə sülh, əməkdaşlıq, inteqrasiya, artan ədalətsizliklər, yoxsulluğun qarşısının alınması kimi mühüm məsələlər müzakirə edilir. İyunun 16-da başlayan forum bu gün - iyunun 18-də başa çatacaq.

### Dünya nizamının ciddi dəyişikliyə ehtiyacı var

Nizami Gəncəvi Beynəlxalq Mərkəzi Azərbaycan Prezidentinin 23 dekabr 2011-ci il sərəncamına əsasən, dahi şairimiz Nizami Gəncəvinin 870 illik yubiley tədbirləri çərçivəsində 30 sentyabr 2012-ci il tarixdə şairin vətəni Gəncə şəhərində keçirilmiş xüsusi toplantıda təsis edilib. 2013-cü ildən bu günədək sayca 9 qlobal forum və 45 yüksəksəviyyəli toplantı keçirilib. Forum adından da göründüyü kimi bəşəriyyəti təhdid edən ciddi qlobal problemlərin müzakirə olunduğu unikal platformadır.

Müqayisə üçün deyək ki, mühüm məsələlərin müzakirə olunduğu bir neçə beynəlxalq forumun təyinatı yalnız bir istiqamətlidir. Məsələn, Davos İqtisadi Forumu, Münxen Təhlükəsizlik Konfransı belələrindəndir. Davosda dünyanın iqtisadi, Münxendə isə təhlükəsizlik məsələləri müzakirə edilir. Bakı Qlobal Forumu isə sosial-iqtisadi, siyasi və humanitar məsələləri gündəmə gətirilməklə bir növ universal xarakter daşıyır. Ötən ilki forumun "COVID-19-dan sonrakı dünya", bu il isə "Qlobal dünya nizamına təhdidlər" mövzusu istiqamətində təşkili də bunu təsdiqləyir.

Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin təşkilatçılığı ilə reallaşan Bakı Qlobal Forumunun bütün toplantılarında dünyanı təhdid edən müxtəlif qlobal problemlər müzakirəyə çıxarılır və onların həlli, vəziyyətdən çıxış yolları göstərilir, sonda isə beynəlxalq birliyə mühüm mesajlar ünvanlanır.

Elə budəfəki forumda da, panel müzakirələrdə də bəşəriyyəti narahat edən qlobal problemlər müzakirə mövzusu oldu və dövlətləri, insanları narahat edən məsələlərin həlli yolları istiqamətində tezislər səsləndirildi, istiqamətlər göstərildi.

Forumun ilk günündə İlham Əliyev növbəti dəfə dünyanın yeni reallıqlarına diqqət çəkib, qlobal problemlərin həlli istiqamətində görülməsi vacib olan işlərin əsas istqamətini göstərdi. Hər zaman dünyanı narahat edən mühüm məsələlərin həlli istiqamətində qlobal miqyaslı təklifləri ilə diqqət çəkən, eyni zamanda irəli sürdüyü ideyaları beynəlxalq birlik tərəfindən təqdir edilən Azərbaycan Prezidenti bəşəriyyəti narahat edən bütün təhdidlərə toxunaraq bəyan etdi ki, dünya nizamının ciddi dəyişikliyə və yeni yanaşmaların işlənib hazırlanmasına ehtiyac var.

Dəyişikliyin fundamental olduğunu deyən İlham Əliyev bəyan etdi ki, hazırda dəyişikliklər hələ proqnozlaşdırılması mümkün olmayan fəsadlarla müşayiət olunur, lakin dünyanın fərqli olacağı aydındır və o, artıq fərqlidir. Bu səbəbdən də hər bir ölkə təhlükəsizlik tədbirləri ilə bağlı öz töhfəsini verməlidir. Çünki təhlükəsizlik məsələləri beynəlxalq arenada, beynəlxalq gündəlikdə duran əsas məsələlərdən birinə çevrilib.

### İlham Əliyevdən Ermənistana növbəti sərt xəbərdarlıq

Azərbaycan Prezidenti həmçinin Cənubi Qafqazdakı reallığı dəyərləndirərək postmüharibə dövründə görülən işlərə və məğlub Ermənistanla aparılan sülh danışıqlarına da toxunub.

İlham Əliyev bir daha vurğulayıb ki, hazırda qalib ölkə kimi diktə edən tərəf Azərbaycandır. Ermənistan isə ölkəmizin sülh danışıqları üçün irəli sürdüyü 5 prinsipdən ibarət təklifini qəbul etsə də, son zamanlar artıq mövcud olmayan "Dağlıq Qarabağın statusu" məsələsini gündəmə gətirməklə bəhanələr uydurur. Amma bu hal yalnız Ermənistanın ziyanına işləyir və bu, tamamilə səmərəsiz, Ermənistanın özü üçün təhlükəlidir. Çünki artıq Dağlıq Qarabağ mövcud deyil. Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycan parlamentinin qərarı ilə 1991-ci ilin sonlarında ləğv edilib: "Bizim ərazimizdə belə bir inzibati struktur yoxdur. Bu səbəbdən, dırnaqarası statusla bağlı istənilən istinad yeni qarşıdurmaya gətirib çıxaracaq. Ermənistan hökuməti bunu anlamalı və tarixi yenidən yazmaq cəhdlərindən çəkinməlidir, çünki tarix artıq yazılıb".

Dövlət başçısı çıxışı zamanı onu da bildirib ki, Zəngəzur dəhlizinin açılması ilə bağlı bəndlərin yerinə yetirilməsi regionda sülh və əmin-amanlığın bərqərar olmasının təməl sütunudur. Yəni bu dəhlizin açılması bölgədə sülhün və təhlükəsizliyin təmin olunmasına şərait yaradacaq. Bu dəhlizdən həmçinin siyasi-iqtisadi bataqlıqda olan Ermənistan da yararlanacaq.

Qalib Ali Baş Komandan növbəti dəfə Ermənistan rəhbərliyinə, revanşist qüvvələrə sərt xəbərdarlığını da edib. Əgər Ermənistanın Qarabağdakı ermənilər üçün status tələbi davam edəcəksə, bu yanaşma çıxılmaz vəziyyətə gətirib çıxaracaq. Ona görə də məğlub ölkə 44 günlük İkinci Qarabağ müharibəsinin dərsini unutmamalıdır. Həmin dərsi yaxşı öyrənməli və Azərbaycana qarşı hər hansı ərazi iddialarından çəkinməlidir.

Əlbəttə ki, həm erməni xalqı, həm də onların hakimiyyəti çox yaxşı bilirlər ki, İlham Əliyevin sözü imzası qədər keçərlidir. Hansı vədi verib, hansı sözü işlədibsə, onu reallığa çevirib.

Ermənistanın arxalandığı Minsk qrupunun fəaliyyətinə də toxunan İlham Əliyev bir daha bəyan edib ki, ATƏT-dən mandat alan bu qrup 28 il ərzində heç bir nəticə əldə etməyib və buna görə də Azərbaycan Qarabağ münaqişəsini həll etdikdən sonra artıq ona ehtiyac qalmayıb. "Artıq onların pensiya vaxtıdır"- deyən Prezident qeyd edib ki, Ermənistanda və ya hər hansı başqa ölkədə Minsk qrupu ilə bağlı hər hansı spekulyasiya Azərbaycanda yalnız qıcıq doğurur. Çünki Azərbaycan özü münaqişəni həll edib və Minsk qrupu tərəfindən işlənib hazırlanan Madrid prinsipləri həll olunub. İndi o məsələlər deyil, əsas vacib olan sülh danışıqlarının aparılması və sənədin imzalanmasıdır. Ermənistan nə qədər tez sülh sazişini imzalamağa hazır olsa, bu, onun xeyrinə olacaq.

### Azərbaycan beynəlxalq əməkdaşlıq və təhlükəsizliyə mühüm töhfələr verir

Müstəqilliyinin bərpasından ötən 30 ildə əldə etdiyi nailiyyətlərlə Cənubi Qafqazın lider dövləti statusuna sahiblənən Azərbaycan həqiqətən də sivilizasiyalar arasında mənəvi körpü rolunu oynayır. Demokratik inkişaf yolunu seçmiş ölkəmizin səsi dünyanın ən mötəbər kürsülərindən eşidilir.

İlham Əliyevin hadisə və proseslərə prinsipial və qətiyyətli yanaşma tərzinə, ardıcıl və sistemli qərar qəbul etmək məharətinə, sarsılmaz iradəsinə heç bir kənar qüvvə təsir edə bilmir. Ölkəmiz milli maraqlarına xidmət edən bərabərhüquqlu və qarşılıqlı əməkdaşlıq əsasında xoşniyyətli tərəfdaşlar üçün unikal məkana çevrilib. Bu siyasətin təntənəsi Azərbaycanın ictimai-siyasi sabitliyində, iqtisadi gücündə, sosial rifahında, güclü ordusunda və uğurlu xarici siyasətində də öz təsdiqini tapıb. Bu həqiqət hər il Azərbaycanda keçirilən beynəlxalq konfranslarda, forumlarda da özünü bir daha büruzə verir.

Bakı Qlobal Forumu da bunu bir daha təsdiqləyir. Günün ən aktual çağırışlarını müzakirə etməyə imkan verən forumun əsas məqsədi dünyada sülh, dinc birgəyaşayış, ədalətin bərqərar olunması naminə həyata keçirilən fəaliyyətlərə töhfə verməkdir. Bakının belə forumlara evsahibliyi etməsi Azərbaycanın həm mədəni, həm iqtisadi, həm də siyasi baxımdan dünyada tanınmasına mühüm töhfə verir. Həmçinin bu cür qlobal əhəmiyyətli tədbirlər Azərbaycanın beynəlxalq münasibətlərdə oynadığı rola dinamika gətirir.

Bütün bunlar bir daha təsdiq edir ki, Cənubi Qafqazın lider dövləti kimi Azərbaycan artıq beynəlxalq əməkdaşlıq və təhlükəsizliyə mühüm töhfələr verir.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*

# Müttəfiqlik nümunəsi

## Şuşada keçirilən beynəlxalq konfrans Azərbaycan-Türkiyə siyasi sisteminin qarşılıqlı inteqrasiyası, daha geniş əməkdaşlığı üçün yeni imkanlar açdı



Böyük zəfərin simvoluna çevrilən Şuşa bərpa-quruculuq, tərəqqi ünvanına çevrilməklə yanaşı, həm də Azərbaycanın siyasi, diplomatik mərkəzi statusuna da sahiblənib. Həyata keçirilən müxtəlif layihələr əsasında simasını günbəgün dəyişən və sürətlə inkişaf edən mədəniyyətimizin paytaxtında mühüm toplantıların, konfransların və forumların keçirilməsi də bunun bariz təcəssümüdür.

İyunun 15-də Şuşa Bəyannaməsinin birinci ildönümü münasibətilə "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfrans da bunun bariz təcəssümü oldu. Bu toplantı eyni zamanda iki qardaş ölkənin həmrəyliyinin təntənəsi kimi tarixə yazıldı.

Konfransda Azərbaycan və Türkiyə tərəfindən siyası partiyaların rəhbərləri, müxtəlif dövlət qurumlarının rəsmi şəxsləri iştirak etdilər. Tədbirdə səsləndirilən fikirlər isə dünyaya bir mesaj oldu.

Təbii ki, 30 illik həsrətdən sonra Şuşada baş tutan hər bir tədbirin tarixi əhəmiyyəti böyükdür. Şuşa Bəyannaməsinin bir illiyi ilə bağlı Türkiyə və Azərbaycanın siyasi xadimlərinin yenidən bir araya gəlməsi, sənəddə nəzərdə tutulan müttəfiqliyin, iki qardaş ölkə arasında daimi əməkdaşlığın, sıx əlaqələrin bariz nümunəsidir. Bir il ərzində bu əlaqələr hər sahədə daha da inkişaf edib, regionda öz sözünü demiş iki dövlət tərəfindən müxtəlif layihələr həyata keçirilib və keçirilməkdədir. Qurtuluş Günündə Azərbaycan və Türkiyə arasında imzalanmış Şuşa Bəyannaməsinin bir illiyinə həsr olunan tədbirlə bağlı hər bir paylaşımdan isə qürur, fəxr hissləri duyulur.

### Şuşa Bəyannaməsi istinad nöqtəsinə çevrilib

Beynəlxalq konfransda iştirak edən Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili qəzetimizə açıqlamasında Şuşa Bəyannaməsini çox əhəmiyyətli sənəd adlandırdı. O qeyd etdi ki, bəyannamənin əsas əhəmiyyəti bütün dünyaya mesaj verməsidir: "Ötən bir il ərzində hadisələrin gedişi göstərdi ki, mesaj pozucu fəaliyyət göstərən qüvvələrə çatıb. Bir ildə sülh daha da möhkəmlənib, Azərbaycan regionda böyük quruculuq işlərinə başlayıb və Zəngəzur dəhlizinin açılması ilə əlaqədar mühüm təkliflər, eyni zamanda təşəbbüslərin həyata keçirilməsi ilə bağlı siyasi reallıq daha da güclənib".

Tahir Mirkişili bildirdi ki, digər mühüm oyunçular, xüsusən Avropa İttifaqının, Çinin, şərq-qərb, şimal-cənub-qərb istiqamətində iqtisadi layihələr həyata keçirmək istəyən qüvvələrin əsas istinad nöqtəsi hazırda Şuşa Bəyannaməsidir. Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən layihələr, yeni yaranan iqtisadi reallıqlar bəyannamədə olan bəndlərin müddəalarının ardıcıl olaraq həyata keçirilməsinə imkan yaradacaq. Bəyannamənin əsas tərəfi olan Türkiyə regionda ən böyük iqtisadi və siyasi gücdür. Bu baxımdan Azərbaycan və Türkiyə prezidentlərinin birbaşa və birgə təşəbbüsü ilə bəyannamədə yazılan iqtisadi layihələrin həyata keçirilməsi üçün hər gün daha mühüm zəmin yaranmaqdadır.

Deputat Şuşaya ilk səfəri olduğundan keçirdiyi hisslərdən də danışıb. O qeyd edir ki, Zəfər yolu ilə irəlilədikcə görülən işlərdən qürur duymamaq mümkün deyil. Eyni zamanda bu vaxt qəhrəman əsgərlərimizlə öyünürsən. Komitə sədrinin fikrincə, Şuşaya gedən hər bir azərbaycanlı qayıtdıqdan sonra özünü mənəvi cəhətdən "təmizlənmiş" hiss edir. Belə ki, 30 illik alçaldılmaqdan, təhqirlərdən, tapdalanmış ləyaqətdən xilasın yolu buradan keçir: "Şuşadan sonra sən yenidən doğulursan, yeni azərbaycanlı olursan".

### Şuşadan bütün dünyaya sülh və təhlükəsizlik mesajları verildi

Konfransda iştirak edən Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədr müavini Hikmət Babaoğlu isə qeyd edir ki, iki qardaş ölkənin hakim partiyaları - Yeni Azərbaycan Partiyası və Ədalət və İnkişaf Partiyasının təşəbbüsü ilə reallaşan toplantı ən yeni siyasi tariximizin mühüm hadisəsi kimi yadda qaldı.

Tədbirin möhtəşəmliyini vurğulayan deputat bildirir ki, konfrans iki qardaş ölkənin hakim partiyalarının əməkdaşlığı kontekstində iki ölkənin siyasi sistemini təşkil edən aparıcı təşkilatlanmaların da təması və milli maraqlar ətrafında ortaq fəaliyyəti təcəssüm etdirdi.

Onun sözlərinə görə, bu konfransda Şuşadan regiona və bütün dünyaya sülh və təhlükəsizlik mesajları verildi. Regionun inkişafı və təhlükəsizliyinin təmin edilməsi üçün olduqca maraqlı konseptual fikirlər səsləndirildi və çıxışlar edildi. Hikmət Babaoğlu bunların hər iki ölkənin siyasi sisteminin qarşılıqlı inteqrasiyası və əməkdaşlığı üçün yeni fürsət və imkanların əsasını qoyduğunu da qeyd etdi.

### Tarixi sənədin əhəmiyyəti bir daha nümayiş olundu

Milli Məclisin deputatı, Böyük Quruluş Partiyasının sədri Fazil Mustafa da konfransada iştirak edib. Deputat qeyd edir ki, Şuşa Bəyannaməsinin bir illiyi ilə bağlı Yeni Azərbaycan Partiyası və Türkiyənin Ədalət və İnkişaf Partiyası arasında olan razılaşma əsasında keçirilən möhtəşəm tədbirin əsas mahiyyəti tarixi sənədin əhəmiyyətinin həm Türkiyə, həm də Azərbaycan tərəfindən yüksək qiymətləndirilməsini cəmiyyətə nümayiş etdirmək olub.

Deputatın fikrincə, konfransın məhz bəyannamənin imzalandığı yerdə - Şuşada keçirilməsi xüsusi məna daşıyır. Burada həm Türkiyə, həm də Azərbaycanın müvafiq strukturlarının rəhbərləri, müxtəlif sahələrin təmsilçilərinin çıxış etməsi, gələcəyin layihəsinin birlikdə müəyyən olunması istiqamətində çağırışlar, fikirlərin ictimailəşməsi olduqca böyük önəm daşıyırdı. Digər əsas məqamlardan biri də konfransa təkcə hakim partiya deyil, Azərbaycanda fəaliyyət göstərən demək olar ki, bütün partiyaların təmsilçilərinin dəvət olunması idi.

Fazil Mustafa deyir ki, ümummilli məsələlərdə bütün siyasi partiyalar eyni mövqedən çıxış edir, ölkə Prezidentinin xarici siyasət kursunun Qarabağ üzərindən gerçəkləşən istiqamətlərini birmənalı şəkildə dəstəkləyir və bunun ölkənin gələcəyi üçün nə qədər önəmli olduğunu bilirlər: "Biz də Böyük Quruluş Partiyası olaraq tədbiri yüksək qiymətləndiririk. Tədbirdə iştirak edərək ayrıca bəyanatla da çıxış etdik. Bu, Prezidentin siyasi partiyalara dəstəyini real fəaliyyətdə ifadə etdiyini göstərən bir tədbir kimi də qiymətləndirilə bilər".

Deputatın fikrincə, Şuşa Bəyannaməsinin ayrı-ayrı bəndlərinin icra olunması istiqamətində yaxın gələcəkdə detallar üzrə fəaliyyət ortaya qoyulacaq.

### Mənəvi önəm daşıyan beynəlxalq konfrans

Şuşa zəfərimizin zirvəsi kimi bütün tədbirlərə layiqincə evsahibliyi edir. Şuşada keçirilən hər bir tədbir regionda yeni reallıqların yarandığını, Azərbaycan və Türkiyənin birliyini, Azərbaycanın təşəbbüsü ilə yeni layihələrin uğurla həyata keçirildiyini göstərir.

Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətində dediyi kimi, "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə dost, qardaş və strateji tərəfdaş olan ölkələrimiz arasında əlaqələr keyfiyyətcə yeni mərhələyə yüksəlib. Şuşa Bəyannaməsinin Azərbaycan xalqı və dövləti üçün əlamətdar tarix olan 15 İyun Milli Qurtuluş Günündə imzalanmasının və bir il sonra bununla bağlı beynəlxalq konfransın təşkil olunmasının rəmzi xarakteri, mənəvi önəmi də var. İki qardaş ölkə arasında strateji tərəfdaşlığın dərinləşdirilməsi türk dünyasının parlaq şəxsiyyətləri - "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" deyən Mustafa Kamal Atatürkün və "Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir" deyən Heydər Əliyevin irsinə sadiqliyin ifadəsi, gələcək nəsillər üçün örnəkdir.

*Əsmər QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# Avropa İttifaqının nüfuzlu nəşrində Şuşada keçirilən konfrans haqqında material dərc edilib

"EU Politics" nəşri Şuşada keçirilən, Şuşa Bəyannaməsinin imzalanmasının birinci ildönümünə həsr edilmiş konfrans haqqında AZƏRTAC-a istinadla məlumat yayıb (https://eu-politics.jimdofree.com/promoted-content/shushaconference2022).




Xatırladaq ki, işğaldan azad edilmiş Şuşa şəhərində keçirilən "Azərbaycan-Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfrans iki qardaş dövlətin aktivində belə bir tarixi bəyannamə imzalanmasının ildönümünə həsr edilib.

Nəşrin materialında konfransın iştirakçıları barədə məlumat verilir, o cümlədən bu tədbirin məşhur qonaqlarının adları çəkilir.

Bildirilir ki, konfransın əvvəlində Azərbaycanın və Türkiyənin dövlət himnləri səslənib, hər iki ölkənin ərazi bütövlüyü və müstəqilliyi uğrunda canlarından keçmiş şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Sonra Şuşa Bəyannaməsinin imzalanmasının birinci ildönümünə həsr edilmiş videoçarx nümayiş etdirilib.



# "Ayrılarmı könül candan"

## Azərbaycan-Türkiyə qardaşlığı ən yüksək zirvədədir

**"TEKNOFEST" mahiyyət etibarilə yüksək texnologiyaları sərgiləyən nüfuzlu aerokosmik beynəlxalq tədbirlərdən biri olmaqla yanaşı, həm də bir millətin və iki dövlətin qırılmaz qardaşlıq telləri ilə necə sıx bağlandığını nümayiş etdirən möhtəşəm bayram kimi tarixə yazıldı.**

Vaxt var idi ki, bu sevgini büruzə verənlər, onu dilə gətirənlər məhbəslərə atılır və Sibirə sürgün edilirdi. Lakin Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra eyni kökdən olmağımız haqqında yaza, danışa bilirik və bundan qürurlanırıq. Amma bu qardaşlığın mahnı ilə, sözlə ifadə edilən vaxtları olub. Əlimiz Türkiyəyə çatmasa da, Rəşad Nuri Güntəkinin romanlarını oxumuşuq, Nazim Hikmətin poeziyasından zövq almışıq, Əziz Nesinin satirası gözlərimizin aynasında təbəssüm doğurub.

Yaxşı yadımdadır, 1970-ci illərdə Bakıya türk müğənnisi Emel Sayın gəlmişdi. Zal və səhnə eyni hisslərlə elə kükrəyirdi ki, bunu adi konsert yox, ayrılıqların divar kimi uçurulub qırıq kərpiclərlə sovrulduğunu təsdiq edən tarixi an kimi ruhumuzla hiss edirdik.

Bu sevginin nə qədər dərin və səmimi olduğunu bütün keçmiş Sovet İttifaqı miqyasında belə üzə çıxaran çoxsaylı nümunələr mövcuddur. Onlardan yalnız birini xatırlamaq yerinə düşərdi. Ötən əsrin 80-ci illərində Lomonosov adına MDU-nun Jurnalistika fakültəsində bütün sovet respublikalarını təmsil edən bir qrup tələbə oxuyurdu və onlara milli kadrlar deyirdilər. Belə qruplardan birində tələbələrin himni "Sev kardeşim" mahnısı idi.

Tələbələrdən biri - 45 illik dostum, qazaxıstanlı Jumadildin Baxtıbayla bu gün də əlaqələrimiz qırılmır. İndi o, "Qazaxtonu" jurnalının baş redaktorudur. Baxtıbaya yazıb soruşdum ki, bəlkə yadında bu barədə nəsə qalıb? İndi dünyanın o başına məktub yazıb cavab almaq üçün aylarla gözləmək lazım gəlmir. Elə yazdığım günün axşamı Bəxtıbaydan cavab gəldi: "Qaldığımız yataqxanada - Tələbə və Aspirantlar Evində bizimlə yanaşı ermənilər də yaşayırdılar. Onlar imkan düşən kimi guya türklərin törətdiyi uydurma erməni soyqırımı ilə bağlı iftira dolu böhtanları sel kimi yağdırardılar. Amma onlara anlatdım ki, həmin hadisələrlə əlaqədar mənə bəlli olan başqa tarixə görə türklər haqlıdır. Elə heyrətlənmişdilər ki, deməyə söz belə tapmamışdılar. Mən onlara danışdım ki, Birinci Dünya müharibəsinin başladığı 1914-cü ildə Omskda Müəllimlər Seminariyasında yalnız bir tələbə ermənilərə dəstək üçün türklərlə müharibəyə pul ödəmədi. O, öz fikrini belə əsaslandırmışdı ki, türklər bizim qan və din qardaşlarımızdır. Ermənilərə anlatdım ki, mənim yanımda soyqırımından danışa bilməzlər. Mənim anadan olduğum Qazaxıstan çölləri "qolodomor"un (rus dilində olan bu sözun mənası aclıqla öldürmək, qırmaqdır - morit qolodom) mərkəzi idi. Orada hər 10 nəfərin 9-u acından ölürdü. Həmin 1932-ci ildə qazaxların planlı surətdə aclıqla qırılmasının təşkili nəticəsində onların yarıdan çoxu - 4 milyon insan (son məlumatlara görə isə 5 milyondan artıq ) məhv edilmişdi. Lakin bu cavabla da bizim yataqxanadakı erməni tələbələrlə münaqişəmiz bitmədi. Tələbə yoldaşımız türkmən Əvəz Rəhimov barmaqlarını gitaranın simlərinə çırpıb "Sev kardeşim" mahnısını oxuyan gündən ermənilər otağımızı tərk etdilər və bir də heç vaxt qapımızı döyüb bizi rahatsız etmədilər. O vaxtdan bu türk mahnısı bizim milli qrupun özünəməxsus himninə çevrildi. Hamı oxuyurdu - ukraynalı Olqa Betko və Olya Karpiy, rus Serqey Medvedyev, Kostya Kreknik, latış Maris Anderson... Əlbəttə ki, özbəklər, qırğızlar, qazaxlar, azərbaycanlılar da oxuyurdular. Oxuyanların sırasında təkcə "ən qədim xalqın nümayəndələri"ndən kimsə yox idi".

Bu əhvalat nə qədər adi olsa da, keçmiş imperiyanın tərkibində türkdilli xalqların bir-birinə olan sevgisini aşkarlayan ciddi faktdır. Hamımızı bölüb, parçalayıb nə qədər qarşı-qarşıya qoysalar da, biz ruhən və daxilən bir-birimizə möhkəm bağlıyıq. O da sirr deyil ki, bütün imperiyalar tarix boyu ərazisindəki xalqları beləcə parçalayaraq ayırır, bir-birindən uzaqlaşdırmaqla idarə edirlər. Lakin nədənsə o zaman kəsən qılınc ermənilərin əlində idi. Və dəhşətlisi odur ki, ermənilər bu gün də həmin qılıncı əllərindən qoymaq istəmirlər.

Amma nə qədər azğın olsalar da, nə qədər əllərinə düşən imkanlardan faydalansalar da, əsrlər boyu törətdikləri vəhşiliklər və yeritdikləri təbliğat Türkiyə-Azərbaycan qardaşlığını sarsıda bilmədi. Zamanın aynasında biz bu dostluğun möhtəşəm güc kimi kükrəyib göylərə millənməsinə şahidlik edirik.

1980-ci illərdə Türkiyə ilə sərhəd kəndlərdə, əsasən də Naxçıvan Muxtar Respublikasının keçmiş İliç rayonunun ərazisində türk telekanallarına baxmaq üçün "kəllə"li elektriklər 500, 1000 vatlıq elektrik lampalarından antena düzəldər, bir-birinə etibar edənlər yığışıb gecələr türk telekanallarına baxardılar. Gizlincə baxardılar, çünki kimi tutsaydılar, damlayacaqdılar. Haradansa, hansısa naməlum yolla Azərbaycana daşınan türk musiqilərinin, filmlərinin də sayı-hesabı olmazdı.

1990-cı ilin Qanlı Yanvar hadisələri zamanı isə Türkiyə-Azərbaycan sərhədləri boyu hər iki tərəfdə tonqallar qalandı, qardaş qardaşla min il əvvəl olduğu kimi, alovların dili ilə danışdı. Başa düşdük və güvəndik ki, Türkiyə arxamızdadır.

İkinci Qarabağ müharibəsindən xeyli əvvəl Türkəyə Azərbaycan Ordusunun formalaşmasında, yüksək döyüş qabiliyyətinə nail olmasında xüsusi rol oynadı. İlham Əliyevin cəsur sərkərdəlik bacarığı bütün dünyanı heyran qoyan beşinci nəsil silahlarını qibtə olunası mükəmməlliklə idarə etməyə imkan verdi. Hər döyüşə atılan Azərbaycan əsgəri sanki əsl cəngavər idi. Düşmən başını necə itirmişdisə, bu gün də müharibəni xatırlayan erməni əsgərləri bizim igidlərimizi vahimə ilə yada salır, sanki kabusdan danışırlar. Dünyanın ən məşhur hərbi ekspertləri isə böyük qələbəmizdən il yarım ötməsinə baxmayaraq, hələ də Qarabağ döyüşlərini öyrənir, öz qoşunlarında yeni islahatların qaçılmaz olduğunu bildirir, Azərbaycanın hərbi sirlərinin incəliklərini açmağa, döyüşləri şərh etməyə çalışırlar.

Bütün sirlərin agah olunduğu məkan isə "TEKNOFEST" festivalı idi. Burada "Baykar" şirkətinin texniki direktoru Selçuk Bayraktar "TEKNOFEST"i müstəqilliyi, qardaşlığı, elmi və əxlaqı əldə rəhbər tutan bir ruh kimi qiymətləndirdi. O, bu festifalı tam müstəqillik və firavanlıq gətirən, bizi yüksək texnologiyaların səmalarına qanadlandıran unikal şans kimi dəyərləndirdi: "Vəzifəmiz türk nəsillərinin yolunu açmaq üçün dayanmadan çalışmaqdır". Nobel mükafatı laureatı professor Əziz Səncər də çıxışında bütün dünyanın gənclərinə tövsiyəsini verdi: "Həyatda və işlərinizdə yüksəlmək və ya mükafat almaq kimi məqsədlər üçün çalışmayın. Gördüyünüz hər işdə həmişə ən yaxşı olmağa çalışın. Ən önəmlisi, insanlığa və Vətəninizə töhfə verməyə çalışın. Dürüst, əxlaqlı və ədalətli olun".

Prezident İlham Əliyev isə Türkiyə ilə Azərbaycanın qoşa addımlamasını bölgəmizdə barışın qarantı kimi qiymətləndirdi: "Bunu biz və bütün dünya İkinci Qarabağ müharibəsi zamanı gördük. Türkiyə bizim yanımızda idi. Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğanın müharibənin ilk saatlarında "Azərbaycan tək deyil, Türkiyə onun yanındadır" deməsi bizə əlavə güc verdi, ruh verdi, inam verdi. Azərbaycan xalqı bunu heç vaxt unutmayacaq". Azərbaycan Prezidenti festivaldakı çıxışında gənclərə də müraciət etdi: "Əminəm ki, "TEKNOFEST"də iştirak edən gənclər bu tarixi günü hər zaman yadda saxlayacaqlar. Bir neçə gün bərabər olan Türkiyə və Azərbaycan gəncləri artıq bir ailə kimi bir-birinə yaxın oldu, bir-birini tanıdı və əminəm ki, gələcəkdə də daim bir yerdə olacaqlar".

Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan da çıxışında bir neçə vacib məqama toxundu: "Xəzərin incisi Bakıda "bir millət, iki dövlət, tək festival" şüarı ilə dünyanın ən nüfuzlu aviasiya, kosmos və texnologiya festivalı - "TEKNOFEST"i keçiririk… Badi-Kubədən, yəni küləklər şəhəri gözəl Bakıdan Nuru Paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusunun azərbaycanlı qardaşlarımızla birlikdə mübarizə apardığı torpaqların hər qarışına, Natəvanın qəzəlinin eşidildiyi ovalıqlara, şəhidimiz Xudayar qardaşımın mahnı oxuduğu diyarlara, Gəncəyə, Şuşaya, Füzuliyə, Laçına, Azərbaycanın hər bölgəsinə salam və sevgilərimi göndərirəm... Bəli, bizlər kədəri də, sevinci də bir olan, sözdə deyil, əməldə də qardaş olan iki dövlətik. Göylərdə nazlı-nazlı dalğalanan bayraqlarımız kimi, biz eyni inancı bölüşən qədim bir millətin mənsublarıyıq. Eynilə Anadolu kimi, bura da bizim torpağımızdır. Eynilə Türkiyə kimi, bura da bizim Vətənimizdir. Eynilə doğulduğumuz yerlər kimi, bura da bizim öz yurdumuzdur. Eyni qaydada Türkiyənin hər bir qarışı da sizlərin Vətəniniz, yurdunuzdur. Türk millətinin qəlbindəki Azərbaycan sevgisini kim qoparıb ata bilər?"

***Bahadur İMANQULİYEV,***
***"Azərbaycan"***

# Bolqarıstan Azərbaycandan qaz idxalının artırılmasında maraqlıdır

## Yeni IGB interkonnektoru məhz bu məqsədlə tikilib

**"Cənub qaz dəhlizi"nin Bolqarıstan üçün də əhəmiyyəti böyükdür. Bu ölkə Yunanıstanla interkonnektor vasitəsilə həmin dəhlizə çıxa bilir.**




Bolqarıstanda bunu qaz təchizatının diversifikasiyasının, regionda həmin şaxələndirmənin əks olunmasının vacib meyarı hesab edirlər. Çünki bu, Bolqarıstanın qaz təchizatını etibarlı şəkildə təmin edərək gələcəkdə daha sanballı töhfələr verəcək.

Hər il "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının Bakıda keçirilən toplantılarında Bolqarıstanın yüksəkvəzifəli şəxsləri də iştirak edirlər və sözügedən layihənin onların ölkəsi üçün önəm daşıdığını vurğulayırlar. Bu il fevralın 4-də keçirilən 8-ci iclasda Bolqarıstanın energetika naziri Aleksandr Nikolov demişdir: "Bolqarıstanın strateji tərəfdaşı olan Azərbaycandan sabit və şaxələndirilmiş təchizatın həyata keçirilməsi enerji qiymətlərinin yüksək dəyişkənliyinin iqtisadiyyata və cəmiyyətə mənfi təsirlərini azaltmaq üçün şərtdir. Bu kontekstdə Bolqarıstan Azərbaycandan təchizatın artırılmasında maraqlıdır. Bir ildən çoxdur ki, Azərbaycandan "Cənub qaz dəhlizi" vasitəsilə Bolqarıstana müntəzəm olaraq təbii qaz tədarük olunur".

Bu günlərdə isə Bolqarıstanın baş naziri Kiril Petkov jurnalistlər üçün keçirdiyi brifinqdə bildirib: "İyulda növbəti böyük qələbəmiz Yunanıstandan Azərbaycan qazının keçəcəyi qaz kəmərinin açılışı olacaq. Təchizat həcmini təsdiqləmək üçün bu həftə Bakıya səfər edəcəyəm".

Baş nazir sözünə davam edərək deyib: "Hamı sentyabr, oktyabr, noyabr aylarını proqnozlaşdırmışdı - amma, xeyr, interkonnektor iyulda işə salınacaq". O həmçinin qeyd edib ki, Bolqarıstan ölkə iqtisadiyyatının rəqabət qabiliyyətinə və şaxələndirilməsinə nail olmaq üçün müxtəlif mənbələrdən mayeləşdirilmiş təbii qaz, o cümlədən Azərbaycan qazını idxal etməyə çalışır.

Beləliklə, IGB (Interconnector Greece-Bulgaria) sistemlərarası qaz kəməri Bolqarıstanın "Bulqartransqaz" və Yunanıstanın qaz şəbəkəsini birləşdirəcək. Bu kəmər vasitəsilə iyulun əvvəlində təbii qazın ilk partiyalarının göndərilməsinə başlanacağı gözlənilir.

IGB işə salındıqdan sonra bu qoşulma əvvəlcə Bolqarıstanı ildə 1 milyard kubmetr qazla təmin edəcək. Gələn aydan Azərbaycandan almağa hazırlaşdığı bu həcm Bolqarıstanın illik tələbatının üçdəbirini ödəyəcək. Sonrakı mərhələdə isə həmin həcm 3 milyard kubmetrə qədər artacaq ki, bu da interkonnektorun hazırkı gücünə uyğundur.

Ölkəmizin Bolqarıstana 1 milyard kubmetr qazın (sonradan 3 milyard kubmetrə qədər artırılmaqla) tədarükünə dair müqavilə də bağlanıb. Xatırladaq ki, ötən il Bolqarıstana 273 milyon kubmetr Azərbaycan qazı ixrac edilib. İnterkonnektorun olmaması ilə əlaqədar Azərbaycan qazının nəql həcmi nəzərdə tutulduğundan az olub. Hazırda qaz Bolqarıstana Yunanıstanın sərhəd nöqtəsində (Kula-Sidirokastro) illik ötürmə gücü 3,68 milyard kubmetr olan mövcud xətlə nəql edilir. Bu, Azərbaycan qazının Bolqarıstana idxalını kəskin azaldır və illik yalnız 250-300 milyon kubmetr qaz nəql etməyə imkan verir.

IGB interkonnektoru Yunanıstanın Komotini stansiyasından Bolqarıstanın Stara Zaqora şəhərinə qədər uzanır. Kəmərin uzunluğu 182 kilometr, diametri 32 santimetrdir və onun boruları yerin altından ən azı 150 santimetr dərinlikdə keçir.

Boru kəməri Bolqarıstanın "Energy BEH" enerji şirkəti, İtaliyanın "Edison" və Yunanıstanın DEPA şirkətləri arasında təşkil olunmuş birgə müəssisə tərəfindən tikilib. Yəni bu tamamilə yeni marşrutdur.

IGB Trans-Adriatik Qaz Boru Kəmərinə (TAP), Yunanıstanın Milli Qaz Sisteminə və gələcəkdə Yunanıstanın liman şəhəri Aleksandrupolisdəki üzən LNG reqazifikasiya qurğusuna birləşdiriləcək. Eyni zamanda IGB-nin gələcəkdə Yunanıstandan Bolqarıstana, oradan isə Serbiya, Şimali Makedoniya, Rumıniya, Macarıstana və digər yerlərə təbii qazın çatdırması planlaşdırılır.

Xatırladaq ki, Yunanıstan-Bolqarıstan İnterkonnektoru boru kəməri Azərbaycan qazını Bolqarıstana çatdırmaq üçün TAP-la birləşdiriləcək. "Cənub qaz dəhlizi"nin sonuncu seqmenti olan TAP-ın ötürücülük qabiliyyəti ildə 10 milyard kubmetr qaz təşkil edir. Azərbaycan qazının TAP vasitəsilə İtaliya, Yunanıstan və Bolqarıstandakı istehlakçılara tədarükü 2020-ci il dekabrın 31-dən başlayıb. Qaz kəmərinin ötürmə qabiliyyətinin artırılması hazırda gündəmdə olan məsələlərdəndir.

IGB layihəsi Bolqarıstan və Cənub-Şərqi Avropa regionu üçün tədarük təhlükəsizliyinin artırılması və təbii qaz mənbələrinin şaxələndirilməsinin təmin edilməsində mühüm əhəmiyyət kəsb edir. Regional səviyyədə IGB Bolqarıstan bələdiyyələri və hələ qoşulma imkanı olmayan regionlar üçün qaz ötürücü şəbəkəyə çıxışı təmin edəcək. Layihənin ikinci mərhələsi təklif edilib ki, bu da kəmərin ötürücülüyünü ildə 5 milyard kubmetrə çatdıracaq.

Yeri gəlmişkən qeyd edək ki, Prezident İlham Əliyev "Qlobal dünya nizamına təhdidlər" mövzusunda IX Qlobal Bakı Forumundakı nitqində enerji təhlükəsizliyinin vacibliyinə bir daha toxunub və bunun da qlobal gündəliyin aktual məsələlərindən olduğunu vurğulayıb: "Azərbaycanın enerji resurslarına ehtiyac artmaqdadır. Bu il fevral ayının 4-də "Gülüstan" sarayında "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının illik toplantısını keçirdik və gələcək addımlarımızı müzakirə etdik. Lakın Avropada vəziyyət kəskin şəkildə dəyişib və Azərbaycanın karbohidrogen ehtiyatlarına tələbat artır. Biz bir çox ölkənin artan tələbatını təmin etmək üçün əlimizdən gələni edirik. Son bir neçə ay ərzində bir çox Avropa ölkəsindən qaz təchizatı ilə bağlı bizə müraciətlər daxil olub. Əlbəttə, bu, asan məsələ deyil. Çünki əvvəlcə həmin qaz hasil edilməlidir və biz qaz hasilatını artırmağı planlaşdırmırdıq. Hazırda bu məsələ ilə bağlı biz Avropa Komissiyası ilə çalışırıq". Dövlət başçısı Avropa Komissiyası ilə enerji dialoquna start verildiyini, buraya yalnız qazın deyil, neft, elektrik enerjisi və hidrogenin də daxil olduğunu nəzərə çatdırıb: "Bərpaolunan enerji ilə bağlı Azərbaycanda böyük potensial var".

***Flora SADIQLI,***
***"Azərbaycan"***

# "Anadolu Qartalı-2022" beynəlxalq təliminə hazırlıq brifinqi təqdim edilib

Türkiyə Respublikasının Konya şəhərində yerləşən aviabazada müxtəlif ölkələrin hərbi qulluqçularının iştirakı ilə təşkil olunan "Anadolu Qartalı-2022" beynəlxalq taktiki-uçuş təliminə hazırlıq məqsədilə brifinq keçirilib.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, əvvəlcə iştirakçılara təlimin planlaşdırılması və keçiriləcəyi ərazi, ona hazırlıq prosesi, həmçinin mərhələlər üzrə icra olunacaq tapşırıqlar barədə ətraflı məlumat verilib.

Beynəlxalq təlimdə ölkəmizi Azərbaycan Hərbi Hava Qüvvələrinin pilotları və aviasiya vasitələri təmsil edir.




# DSX Sərhəd Qoşunlarının Xudat sərhəd dəstəsində hərbi hissənin yaradılmasının 30 illik yubileyi qeyd olunub

Dövlət Sərhəd Xidməti (DSX) Sərhəd Qoşunlarının Xudat sərhəd dəstəsində hərbi hissənin yaradılmasının 30 illik yubileyinə həsr olunmuş təntənəli tədbir keçirilib.



Dövlət Sərhəd Xidmətinin mətbuat mərkəzindən AZƏRTAC-a bildiriblər ki, tədbir iştirakçıları və dəvət olunmuş qonaqlar əvvəlcə Vətən müharibəsində şəhid olmuş hərbi qulluqçuların xatirəsinə ucaldılmış abidə kompleksini ziyarət edib və önünə gül dəstələri qoyublar.

Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsindən sonra Dövlət Sərhəd Xidmətinin rəisi general-polkovnik Elçin Quliyevin təbrik telefonoqramı şəxsi heyətə çatdırılıb.

Tədbirdə Azərbaycan Respublikasının şimal sərhədlərini ilk dəfə mühafizə altına götürmüş hərbi hissənin bu illər ərzində keçdiyi şərəfli inkişaf yolu haqqında ətraflı məlumat verilib. Xudat sərhəd dəstəsinin dövlət sərhədinin etibarlı mühafizəsinin təşkilində böyük nailiyyətlər əldə edərək hazırda Dövlət Sərhəd Xidmətinin ən nümunəvi hərbi hissələrindən biri olması xüsusi vurğulanıb.

Çıxış edənlər dahi Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkənin bütün sahələrində vüsət alan tərəqqi və dirçəliş sayəsində ilk dövrlərdə heç bir sərhəd mühafizə infrastrukturu olmayan şimal sərhədlərimizdə böyük tikinti-quruculuq işlərinə başlanıldığı, sərhəd dəstəsinin qarnizonunun, 19 sərhəd zastavasının, 3 sərhəd komendantlığının, 2 sərhəd nəzarəti məntəqəsinin inşa edilməsi, 11 ikimərtəbəli 66 mənzilli yaşayış kompleksinin sərhədçilərin istifadəsinə verilməsinin dövlətimizin sərhəd təhlükəsizliyi məsələlərinə ali diqqətinin ifadəsi olması diqqətə çatdırılıb.

Azərbaycan Sərhəd Mühafizəsinin inkişafı məsələlərinə hər zaman ciddi önəm verən Azərbaycan Respublikasının Prezidenti Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin Xudat sərhəd dəstəsinə dörd dəfə səfər etməsi sərhədçilərə olan inam və etimadın təzahürü olmaqla yanaşı, Ali Baş Komandanla görüşmək şərəfinin şəxsi heyətdə böyük ruh yüksəkliyi, sərhədçi adını hər zaman qürurla daşımaq əzmi yaratdığı bildirilib.

Tədbirdə xidməti-döyüş fəaliyyətində və hərbi əməkdaşlıqda fərqlənmiş hərbi qulluqçular və veteran sərhədçilər, həmçinin hərbi hissənin əsasının qoyulduğu gün - 1992-ci il iyunun 16-da ilk dəfə Samur körpüsü üzərində sərhəd nəzarəti xidmətinə çıxmış şəxslər təltifləndirilib, hərbi hissənin formalaşdığı ilk dövrlərdə sərhədçilərə yaxından kömək göstərən yerli sakinlərə, sərhədyanı rayonların dövlət orqanlarının əməkdaşlarına qiymətli hədiyyələr verilib və fəxri fərmanlar təqdim olunub.

Yubiley tədbirinin rəsmi hissəsi şəxsi heyətin təntənəli marşla tribunanın önündən keçidi ilə başa çatıb.

Sonra tədbir iştirakçıları hərbi hissədə əsaslı təmir olunmuş binalara baxış keçiriblər.

Tədbirin sonunda Dövlət Sərhəd Xidmətinin hərbi orkestri və Mədəniyyət mərkəzinin kollektivi konsert proqramı ilə çıxış ediblər.





# Vətən deyəndə...





● Qarabağ Azərbaycandır!



# Zəfər yolunun başlanğıcını Heydər Əliyev qoyub

**Çox da uzaq olmayan yaxın keçmişimizdə vətənimiz ərazi bütövlüyü ilə təhdid olunub parçalanmaq təhlükəsi yarandığı bir vaxtda sanki Tanrı xalqımızın böyük oğlu, müdrik şəxsiyyət Heydər Əliyevi xilaskar kimi millətinin köməyinə, nicatına yetirdi. Əslində, o zaman dövlət adına ciddi heç nə yox idi. Dağılmış sovet hökumətinin qalıqları üzərində nəyinsə qurulmasına naşı, qeyri-peşəkar insanların nəticəsiz cəhdləri var idi.**

Ölkənin iqtisadiyyatı tamamilə çökmüş, pərakəndəlik, xaos baş alıb getmişdi. Əldə olan nə vardısa kor-koranə dağıdılmış, yerində heç nə yaradılmamışdı. Çünki qurub-yaratmaq üçün nə fərasət, nə də istək vardı.

Bir tərəfdən də fürsət gözləyən namərd qonşularımızın başladığı ədalətsiz müharibə... Əhalinin ciddi ərzaq problem ilə üzləşdiyi, sözün həqiqi mənasında, çörəklə imtahana çəkildiyi bir vaxtda ordu quruculuğundan söhbət belə gedə bilməzdi. Milli Ordu adı ilə ayrı-ayrı siyasi qruplara, ambisiyalı, hətta müstəqilliyimizi gözü götürməyib bizi təhdid edən dövlətlərin məkrli niyyətlərini həyata keçirmək istəyən adamlara, separatçı dəstələrə xidmət edən silahlı dəstələr "fəaliyyət" göstərirdi. Nəticədə düşmənlə qeyri-bərabər döyüşlərdə vətənpərvər gənclərimizin göstərdikləri şücaətlərə baxmayaraq, işğal edilmiş ərazilərimizin coğrafiyası genişlənirdi. İnsanlar min illər öncə dədə-babalarının məskən saldıqları doğma yurdlarından didərgin düşürdülər. Ölkədə dövlətə inam azalır, müstəqilliyimizin əldən getməsi təhlükəsi hər an real görünürdü.

O üzdən 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndərin ilk işi ordu quruculuğu oldu. Silahlı hərbi birləşmələr ayrı-ayrı adamların təsir dairəsindən çıxarıldı. Çox sürətlə və ciddi şəkildə nizami ordu quruculuğu prosesi başladı. Amma bu, az idi. Nəfəs dərmək lazım idi. Odur ki, 1994-cü ildə atəşkəs haqqında Bişkek sazişi imzalandı. Məqsəd hərbi əməliyyatlarda yaranan fasilə zamanı iqtisadiyyatda təxirəsalınmaz problemlərin həllinə və ordu quruculuğuna başlamaq idi. Hadisələrin sonrakı inkişafı göstərdi ki, Heydər Əliyev bu dəfə də qərarında yanılmamışdı.

Ümumiyyətlə, Ümummilli Liderin xalqımız və dövlətimiz qarşısında xidmətlərini saymaqla tükənən deyil. Nə xoş ki, artıq ölkəmizdə böyük şəxsiyyətin müasir Azərbaycan dövlətinin xilaskarı, qurucusu və əbədiliyinin təminatçısı olduğunu dərk etməyən yoxdur. Xalqımız onun dahi, xalqının və dövlətinin yolunda ömrünü fəda edən fenomen şəxsiyyət, böyük vətənpərvər olduğunu birmənalı olaraq qəbul edir. Qəbul edir ki, Ümummilli Liderin xalq, Vətən və dövlət qarşısında gördükləri işlər misilsizdir.

Ulu Öndəri səciyyələndirən başlıca xüsusiyyətlərdən biri onun uzaqgörən, praqmatik siyasətçi olmasıdır. Bu baxımdan böyük rəhbərin xalqımız qarşısında gördüyü ən mühüm tarixi xidmətlərdən biri də Azərbaycanın gələcək taleyini cənab İlham Əliyevə etibar etmək qərarına gəlməsidir. Bu, təkcə siyasi hakimiyyətin varisliyi deyildi. Ulu Öndərin ürəyində Qarabağ nisgili vardı. Şuşa həsrəti, Kəlbəcər acısı, Ağdam yarası var idi. Heydər Əliyev yaxşı bilirdi ki, vacib olan problemlər, hər gün gözlənilən müharibə təhdidləri qoyub gedir. Amma İlham Əliyevin onun yarımçıq qalmış işlərini uğurla davam etdirəcəyinə, ölkənin problemlərini köklü həll edəcəyinə əmin idi.

Cənab İlham Əliyev Ulu Öndərin yürütdüyü siyasi kursun, strateji xəttin davamçısı kimi hakimiyyətə gəldi və qısa vaxtda Azərbaycanın inkişafını təmin edən, qüdrətini artıran, Ulu Öndərin inamına, etimadına layiq işlər gördü, bütün sahələrdə köklü islahatlar apardı. Nəticədə ölkə iqtisadiyyatı yenidən quruldu. Əhalinin sosial rifahının yaxşılaşması istiqamətində, Vətənimizin hərbi qüdrətinin artırılması, ordu quruculuğu sahəsində inqilabi dəyişikliklər edildi. Əsgər və zabitlərimizin sosial-məişət şəraiti yaxşılaşdı, ordunun təchizatı, maddi-texniki bazasının daha da güclənməsi istiqamətində böyük işlər görüldü. Ölkənin hərbi sənaye kompleksi yenidən quruldu. Bütün qoşun növləri müasir tələblərə uyğun komplektləşdirildi. Bu illər ərzində ölkə təkcə iqtisadi cəhətdən deyil, eyni zamanda hərbi qüdrəti baxımından regionun lider dövlətinə çevrildi.

Təməli Ulu Öndər tərəfindən qoyulub uğurla davam etdirilən bu siyasət bizi 2020-ci ilin möhtəşəm qələbəsinə aparırdı. Prezidentin səbir və təmkini, vaxtında düzgün və qətiyyətli qərarlar qəbul etmə bacarığı, siyasətdə ardıcıllıq və dözümlülük nəhayət ki, xalqımızın illərdən bəri gözlədiyi böyük Qələbə ilə başa çatdı. Qazanılan bu zəfər nəticəsində torpaqlarımızın işğaldan azad olunması ilə yanaşı, son 200 ildə ermənilərin mübtəla olduqları sərsəm "böyük Ermənistan" ideyasına da birdəfəlik nöqtə qoyuldu.

Şuşanın düşmən işğalından azad olunması haqqında Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qürurverici hesabatını dinləyən hər bir Azərbaycan vətəndaşı bu zaman Ulu Öndər Heydər Əliyevin müqəddəs ruhu qarşısında baş əyməyə bilməzdi.

Bu gün işğaldan azad olunmuş torpaqlarda sürətlə abadlıq, quruculuq işləri aparılır. Düşmənin viran qoyub xarabazara çevirdiyi yurd yerlərimizdə həyat yenidən canlanır. Qarabağda və Şərqi Zəngəzurda görülən işlər hamımızı, daha çox isə ömrünü xalqa bağışlayıb onun tərəqqisi naminə daim çalışan Ulu Öndər Heydər Əliyevin ruhunu sevindirir.

*Elşən QƏNİYEV, "Azərbaycan"*

● Öncə Vətəndir

# Həqiqətən, aslanın erkəyi-dişisi olmazmış

## Bacı-qardaş Günəş və Vüqar Vətən savaşının od-alovundan keçiblər

**Vətən müharibəsi təkcə dövlətin deyil, hər bir ailənin, hər bir vətəndaşın qeyrət, qürur məsələsinə çevrildi. Həmin günlər hər kəs Vətən sevgisini öz canından artıq sandı və bu mübarizəyə qatılmaq istədi. Qusarlılar da üçrəngli bayraq altında birləşərək Vətən savaşına kökləndilər.**
**Biz sizə qəlbini Vətən bayrağına bükən bir ailənin iki üzvündən söz açmaq istəyirik. Bu həyat hekayəsi Əlimovlar ailəsinin üzvləri Vüqar və Günəş barədədir.**




Hərbi forma geyinən hər kəs el oğluna çevrilir. Bu oğullar ölkənin çətin sınaqdan çıxmasında qan tökdü, can qoydu, can aldılar. Mənfur düşmənə "dəmir yumruq"la cavab verənlərdən biri də Vüqar oldu. O, erkən yaşlarında məhəllə uşaqları ilə "dava-dava" oyunlarında həmişə "döyüş"lərə rəhbərlik edərdi. "Qarabala" ləqəbli "komandir" həm əmrləri, həm də taktiki səriştəsi ilə digərlərindən fərqlənirdi. Bəlkə də, həmin xüsusiyyətləri idi ki, həqiqi hərbi xidmətini başa vuran "komutan" hərbi qulluğunu davam etdirməyi qərara almışdı. Əyninə kip biçilmiş hərbi formanın gözəlliyi bacısı Günəşə də müsbət mənada sirayət etməsində əsaslı rol oynamışdı.

Nəhayət, Vüqar da özünü göstərmək, çətin günlərdə, sınaq dönəmində Vətənə yardımçı olmaq fürsəti qazandı. Şuşa uğrunda gedən döyüşlərdə həlledici güc sahibi olan xüsusi təyinatlıların heyətində vuruşan igidimiz hələ də işğaldan azad olunan ərazilərin keşiyində-xidmətdədir.

"Aslanın erkəyi-dişisi olmaz" deyiblər babalarımız. Amma aslanlıq etməyə də savaş meydanı lazımdır. Vətənin ərazi bütövlüyü uğrunda ölüm-dirim mübarizəsinə qalxmaq aslanlarımıza - mərd oğul və qızlarımıza hünər meydanı deyildimi?! O da müasir hərb tarixində az-az rast gəlinən olay-bacı və qardaşın yenilməz ordu sıralarında, hərbi formada Vətən uğrunda savaşı ola...

Neçə illərdir ki, Günəş və Vüqar Əlimovlar mülki paltarı hərbi forma ilə əvəz ediblər. Günəş Bakıdakı 1 saylı Tibb Texnikumunun məzunu kimi 5 ildən artıqdır "N"saylı hərbi hissədə ixtisası üzrə tibb bacısı kimi xidmətdədir. Məlahətli səsi, şirin ləhcəsi, mehriban, qayğıkeş xasiyyəti ilə əsgər və zabitlərimizə, sözün həqiqi mənasında, bacılıq edir.

Qismət elə gətirdi ki, iki uşaq anası Günəşə Vətən müharibəsində iştirak etmək, topun, tankın, raketin hədəfinə çevrilmək, yaralıları döyüş meydanında ölümün caynağından çıxarmaq, həyatını hər an itirmək təhlükəsi ilə üzləşmək, yaralılara hərbi palatada yox, elə səngərdəcə ilkin tibbi yardım göstərmək kimi şücaət nəsib oldu.

Günəş özü bunlar haqqında belə deyir:

- İkinci Qarabağ savaşının ilk günündə vətənin müdafiəsinə yollanmalı oldum. Döyüş yolum Füzulidən başladı. Hər gün işdən sonra evə - ailəmin yanına qayıtmağa vərdiş etmişdim. İndi isə tamamilə sanki qorxulu nağıllar aləminə düşmüşdüm. Hər dəfə yaralı hərbçi görəndə qonşu rayonda döyüşən xüsusi təyinatlı qardaşımı göz önünə gətirirdim. O üzdən bütün yaralıları qardaşım bilirdim. Düşünürdüm ki, yaralansa, qardaşım Vüqara da başqa bir bacısı yardım göstərəcək. Amma əkiz oğlanlarımı da unuda bilmirdim. Şəhid olacağım halda vəziyyətləri necə olacaq fikri bir an da məni rahat buraxmırdı. Amma vəzifə borcumu da layiqincə yerinə yetirməyə borcluydum. Axı yaralı qardaşlarımın mənə ehtiyacları vardı.

Bax elə bu səbəbdən halallığı həyatın bütün nemətlərindən üstün tutan Şakir və Ritanın ailəsində böyüyüb tərbiyə almış Günəş və Vüqar Əlimovlarla təkcə ailə və yaxınları deyil, habelə bütün Çiləgir sakinləri, onları tanıyan hər kəs fəxr edir. Bu günlər Əlimovlardan şad xəbər gəlib - Vüqar ailə qurub. Xoşbəxt olsun!

*Cavid TAHİROV, Qusar*

● Tarix yazan oğullar

# O, cəsur döyüşçü idi

**Vətəni canından əziz bilən, onu ürəklə sevən, yolunda tərəddüd etmədən həyatından keçən Vətən müharibəsinin qəhrəmanlarından biri də şəhid Orxan İsmayılovdur. Orxan Zöhrab oğlu İsmayılov 23 yanvar 1990-cı ildə Ucar rayonun Məlikbalı kəndində anadan olub.**



Anası Həcər xanım o günləri belə xatırlayır: "Qanlı 20 Yanvar hadisələri zamanı şəhid olmuş həmvətənlərimizin dəfn günü idi. Bakıda kirayədə yaşayırdıq. Orxanımın dünyaya gələcəyini bildiyim üçün kəndə gəlmişdim. Ürəyimiz qan ağlayırdı. Heç ilk övladımızın dünyaya gəlməyinin sevincini də düz-əməlli yaşaya bilmədik. Bütün Azərbaycan şəhid olmuş övladlarını dəfn edən zaman Tanrı taleyinə şəhid ömrü yazılmış, Vətənin bütövlüyü uğrunda canını fəda edəcək Orxanıma həyat verdi".

Gözünü açandan qulağı Vətən kəlməsini, Qarabağ nidasını eşidən Orxan ürəyində böyük bir vətən sevgisi ilə böyüyürdü. Xətai rayon şəhid Tahir Bağırov adına 59 saylı məktəbin birinci sinfinə gedən Orxan İsmayılov 10-cu və 11-ci sinifləri doğulduğu Məlikbalı kəndində oxumalı olub. 2008-ci ildə orta məktəbi bitirib elə həmin il də hərbi xidmətə yola düşüb. Orxan İsmayılov hərbi xidmətinin ilk 6 ayını Pirəkəşkül qəsəbəsində, bir ilini isə Bərdənin Xanağalı kəndində keçib. 2010-cu ilin yanvar ayında ordu sıralarından tərxis olan Orxan 2011-ci ildə ailə həyatı qurub. Əsgərlikdən gəldikdən sonra avtomobil təmirçisi kimi işləməyə başlayıb.

2020-ci ilin yayında Səbail rayon Hərbi Səfərbərlik Üzrə Dövlət Xidmətinə ön cəbhədə xidmət etmək üçün ərizə ilə müraciət edib. 2020-ci il sentyabrın 21-də hərbi təlimlərə cəlb edilən Orxan İsmayılov oktyabrın 1-də Cəbrayıl rayonunun işğaldan azad olunması uğrunda gedən döyüşlərdə qəhrəmancasına döyüşərək şəhid olub. Vətənə əmanət Zöhrab və Ayxan adlı iki oğul qoyub.

Söhbətə Zöhrabla başlayırıq:

- Mən canını Vətən yolunda qurban vermiş, şəhid Orxan İsmayılovun oğlu olduğum üçün çox qürurluyam. Atamla fəxr edirəm. O, mənə babamın adını qoyduğu üçün "ata" deyə müraciət edərdi. Nənəm deyir ki, sənin bütün hərəkətlərin atana oxşayır. Atan kimi danışır, xarici görünüşcə də atana bənzəyir, onun uşaqlıqda etdiyi hərəkətləri edirsən. İstəyirəm ki, böyüyəndə də atam kimi bir insan olam. Atam bizim yanımızda deyil. Amma anam deyir ki, atam hər zaman bizimlədir. Onun ruhu bizi qoruyur.

Bu yerdə söhbətə şəhidin həyat yoldaşı Fərqanə xanım qoşulur:

- Orxanla ilk tanışlığımız 2011-ci ildə olub. İlk baxışdan bir-birimizi sevmişik. Sözün əsl mənasında, aramızda bizi xoşbəxt edəcək bir sevgi yarandı. Elə həmin il nişanımız, sonra da toyumuz oldu. 2012-ci ildə ilk övladımız dünyaya göz açdı. Orxan övladımıza atası Zöhrabın adını qoydu. Zöhrab gəlişi ilə sevgi dünyamıza nur çilədi. Həyatımızı işıqlandırdı. 2014-cü ildə ikinci övladımız oldu. Biz 8 il 10 ay ailəli olduq. Bu mənim üçün bir ömrə bərabər, xoşbəxt bir həyat deməkdir. Onun mənə verdiyi sevgi ömrümün sonunadək bəsimdir.

Orxanın döyüş yoldaşı baş gizir Mustafayev Fəzailin xatirələri: "Orxan İsmayılovla 2020-ci ilin 21 sentyabrında Pirkəşküldə Təlim Mərkəzində tanış olmuşduq. Orxan hərbi hissəyə gələn gündən uca boyu, şux qaməti, xoş xasiyyəti ilə hamının diqqətini cəlb etməyi bacardı. Qısa bir zamanda hərəkətləri, zarafatları, eyni zamanda Vətənə olan sevgisi ilə döyüş yoldaşlarının sevimlisi oldu. Oktyabrın 1-də gecə ikən döyüş mövqelərinə çıxmaq əmrini alıb yola düşdük. Lələtəpə ərazisindən keçərək Cəbrayılın Nüzgar kəndinə doğru hərəkətə başladıq. Getdiyimiz yol dağlıq, dərəlik ərazilər idi. Düşmən bu ərazilərdə öz mövqeyini illərdir ki, möhkəmləndirərək istehkamlar qurmuşdu. İriçaplı silahlar, ağır artilleriya ara vermirdi. Oktyabrın 1-də gündüz saat 13-də qeyri-bərabər döyüşə girdik. Düşmən gözümüzü açmağa aman vermirdi. Döyüş yoldaşlarımızdan yaralananlar, şəhid olanlar vardı. Qrupumuzun döyüşçüləri qarşıya qoyulan tapşırığı canları bahasına olsa da, yerinə yetirməyə çalışırdı. Əmrə əsasən, qarşıdakı düşmən postunu götürmək və işğalda olan əraziləri azad edərək irəliləməli idik. İnsanların fərdi xüsusiyyətləri, cəsarəti, qəhrəmanlığı döyüş zaman üzə çıxır. Orxan da qəhrəman kimi döyüşürdü. Əmr gözləmədən, həyatını təhlükəyə ataraq, təkbaşına yaralı döyüş yoldaşlarımızı döyüş yerindən çıxarıb təhlükəsiz yerə, sanitar maşınlarının gələ biləcəyi əraziyə təxliyə edirdi. Saat 14:30 radələri idi. Düşmən postunun beş addımlığındaydıq. Orxan məndən sağda 20 metr məsafədə olardı. Qəflətən onun yerə çırpıldığını gördüm. Yavaş-yavaş Orxana sarı hərəkət etməyə çalışdım. Mən Orxanın yanına çatanda artıq o, şəhid olmuşdu. Biz düşmənin müqavimətini qırdıq, torpaqları azad edərək irəlilədik. Mənə belə gəlirdi ki, biz irəli getdikcə Orxan da bizimlə birlikdə hərəkət edir".

*E.QƏNİYEV, "Azərbaycan"*

● Şəhidlər ölməz, Vətən bölünməz!

# Dağlar diyarının dağ vüqarlı qəhrəmanı

**Mayor Amid Heydərov Vətən müharibəsində canını fəda etməklə xalqın qəlbində əbədi yaşamaq hüququ qazandı. Dağlar diyarı Lerik camaatı isə hər yerdə, hər zaman öz şanlı, şöhrətli oğlunun adını qürurla çəkir, onu özünə iftixar mənbəyi bilir. İndi elə bir lerikli tapılmaz ki, bu Vətən sevdalısının şəklini evində asmasın. Həm də rayonda onun xatirəsini yaşadan çoxsaylı ünvanlar var.**




Bu günlərdə isə Lerik şəhərində Vətən Müharibəsi Qəhrəmanı, şəhid mayor Amid Heydərovun doğum günü və mərkəzdə yerləşən 2 saylı körpələr evi-uşaq bağçasına adının verilməsi münasibətilə tədbir keçirildi. Tədbirə qatılanlar ehtiram əlaməti olaraq əvvəlcə şəhidin məzarını və Lerik şəhərindəki büstünü ziyarət etdilər. Sonra körpələr evi-uşaq bağçasına gəldilər. Dövlət himninin səslənməsi ilə açıq elan edilən tədbirdə Vətən müharibəsində canından keçən şəhidlərin xatirəsi bir dəqiqəlik sükutla yad edildi və Amid Heydərovun körpələr evi-uşaq bağçasının girişindəki barelyefinin üzərindən örtük götürüldü, ətrafına gül-çiçək dəstələri düzüldü.

Amid Rəbbil oğlu Heydərov 1988-ci il mayın 20-də Lerik şəhərində anadan olmuşdur. 1995-2006-cı illərdə Valeh İbrahimov adına Lerik şəhər orta internat məktəbində təhsil almış, 2006-cı ildə Bakıda Ali Hərbi Akademiyaya qəbul olmuşdur. 2010-cu ildə Ali Hərbi Akademiyanı bitirən Amid Heydərov Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinə taqım komandiri təyin edilmişdir. 2015-ci ildə baş leytenant hərbi rütbəsi alıb 4 il bölük komandiri olmuş Amid 2016-cı ilin Aprel döyüşlərində Lələtəpə yüksəkliyində gedən döyüşlərdə iştirak etmiş, göstərdiyi qəhrəmanlığa görə vaxtından əvvəl kapitan hərbi rütbəsi almışdır. 2020-ci ilin iyul ayında Tovuz döyüşlərində fəal iştirakına görə isə mayor hərbi rütbəsinə layiq görülmüş və Müdafiə Nazirliyinin "N" saylı hərbi hissəsinin komandiri vəzifəsinə yüksəlmişdir.

Mayor Amid Heydərov Vətən müharibəsinin ilk günlərindən döyüşlərdə iştirak etmişdir. Cəbrayıl uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olan zabitə ölümündən sonra "Vətən Müharibəsi Qəhrəmanı" adı verilmişdir. Bundan başqa, "Vətən uğrunda", Cəbrayılın, Füzulinin azadlığına görə medalları ilə təltif edilmişdir.

*Zəfər ORUCOĞLU, Azərbaycan Jurnalistlər Birliyinin üzvü, Lerik*

# Prezident İlham Əliyevin göstərişinə əsasən bölgələrdə vətəndaşların qəbulu keçirilir

Mərkəzi icra hakimiyyəti orqanları rəhbərlərinin şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəlinə əsasən, iyunun 17-də ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Yevlax şəhərində yerləşən Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Mətbuat xidmətindən verilən xəbərə görə, qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilərək önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin əziz xatirəsinə dərin ehtiram bildirilib.

Görüş zamanı ətraf mühitin mühafizəsi, meşələrin qorunması, biomüxtəliflik, mineral xammal, hidrometeorologiya, işlə təminolunma və digər məsələlərlə bağlı vətəndaşların müraciətləri dinlənilib. Qaldırılan məsələlərin bir qismi yerindəcə həllini tapıb, digərlərinin isə qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə nazirliyin məsul işçilərinə müvafiq tapşırıqlar verilib.

❖ ❖ ❖

Baş Prokurorluğun Mətbuat xidmətindən bildiriblər ki, iyunun 17-də Baş prokuror Kamran Əliyev Masallı Rayon Prokurorluğunun inzibati binasında Masallı, Cəlilabad və Yardımlı rayonlarından olan vətəndaşları qəbul edib.

Əvvəlcə Baş prokuror xalqımızın Ümummilli Lideri Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini, Birinci və İkinci Qarabağ müharibələri şəhidlərinin xatirəsinə yaradılmış abidə kompleksini ziyarət edib, gül dəstələri düzərək əziz xatirələrini ehtiramla anıb.

Kamran Əliyev qəbulda iştirak edən 82 vətəndaşın müraciətində qaldırılan məsələlərin qanunauyğun və operativ şəkildə həll edilməsi üçün Baş Prokurorluğun əlaqədar struktur qurumlarının rəhbərlərinə və tabe rayon prokurorlarına müvafiq göstərişlər verib.

Qəbuldan sonra Baş prokuror Cəlilabad və Yardımlı Rayon prokurorluqlarına gedib, əməkdaşlarla görüşlər keçirərək onlara konkret tapşırıqlar verib. Görüşlərdə vətəndaşların müraciətlərinə obyektiv baxılması və qəbulu işinin düzgün təşkilinə görə tabe prokurorların fərdi məsuliyyət daşıdıqları diqqətə çatdırılıb.

❖ ❖ ❖

İyunun 17-də Azərbaycan Respublikası Ali Məhkəməsinin sədri Ramiz Rzayev Zaqatala rayonunda Zaqatala, Qax və Balakən, eləcə də digər rayonlardan olan vətəndaşlarla görüşüb.

Ali Məhkəmənin Mətbuat xidmətindən bildiriblər ki, qəbuldan əvvəl Zaqatala rayonunda Ulu Öndər Heydər Əliyevin adını daşıyan mədəniyyət və istirahət parkında dahi şəxsiyyətin abidəsi ziyarət edilərək önünə gül dəstəsi qoyulub, əziz xatirəsinə dərin ehtiram bildirilib.

Sonra Ali Məhkəmənin sədri Zaqatala rayonunda yerləşən müasir standartlarla inşa edilmiş Heydər Əliyev Mərkəzinə səfər edib və orada yaradılmış şəraitlə yaxından tanış olub.

Görüş zamanı Ali Məhkəmənin sədri görüşə gələn hər bir vətəndaşın məhkəmələrin fəaliyyəti ilə bağlı müraciətlərini dinləyərək qaldırılan məsələlərin araşdırılması və onların qanunauyğun şəkildə həll edilməsi üçün Ali Məhkəmə Aparatının qəbulda iştirak edən məsul işçilərinə müvafiq tapşırıqlar verib.

❖ ❖ ❖

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Naftalan şəhərində vətəndaşları qəbul edib.

Bu barədə agentliyin İctimaiyyətlə əlaqələr şöbəsindən bildirilib.

Qəbuldan əvvəl Ümummilli Lider Heydər Əliyevin abidəsi ziyarət edilib, abidə önünə gül dəstələri düzərək Ulu Öndərin əziz xatirəsi ehtiramla anılıb.

Daha sonra Naftalan şəhərində agentliyin tabeliyində olan "29 N-li Yol İstismarı" MMC-nin inzibati binasında keçirilən qəbulda Naftalan şəhəri, Goranboy və Xocalı rayonlarından olan vətəndaşların müraciət və şikayətləri dinlənilib.

Qəbul zamanı müraciətlər əsasən avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub.

Qəbulda hər bir vətəndaşın müraciəti dinlənilərək şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib. Vətəndaşlar tərəfindən qaldırılan məsələlərin bir qismi yerində həll olunub, araşdırılmasına ehtiyac olan müraciətlər nəzarətə götürülüb.

Sakinlər bölgələrdə vətəndaşların qəbulu və müraciətlərinə baxılması üçün rahat və əlverişli şərait yaradılmasından razılıqlarını dilə gətirərək göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə minnətdarlıqlarını bildiriblər.

Qeyd olunub ki, Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyində vətəndaşların müraciətlərinin baxılması qaydası haqqında qanuna uyğun olaraq, vətəndaşların qəbul günlərinin cədvəli təsdiqlənib. Regionlarla yanaşı, həmin cədvələ əsasən, agentliyin inzibati binasında da vətəndaşların qəbulu keçirilir.

❖ ❖ ❖

Qida Təhlükəsizliyi Agentliyinin sədri Qoşqar Təhməzli iyunun 17-də Tovuz şəhər Heydər Əliyev Mərkəzində Tovuz, Qazax və Ağstafa rayonlarından olan vətəndaşları qəbul edib.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilərək önünə gül dəstələri qoyulub, dahi şəxsiyyətin əziz xatirəsinə dərin hörmət və ehtiram bildirilib.

Agentliyin İnformasiya təminatı və innovativ həllər şöbəsindən verilən məlumata görə, qəbulda vətəndaşların müraciətləri dinlənilib, ərizə və şikayətlərinə baxılıb. Vətəndaşların müraciətləri əsasən agentliyin səlahiyyət dairəsinə aid məsələlərlə (qida məhsullarının təhlükəsizliyi, baytarlıq və fitosanitar nəzarətinə dair normativ tənzimləmə, qida təhlükəsizliyi sahəsində fəaliyyət göstərən subyektlərin qeydiyyatı, qida təhlükəsizliyi, fitosanitar və baytarlıq sertifikatlarının verilməsi və s.) bağlı olub. Müraciətlərin bir qismi yerində həll olunub, bəzi məsələlər araşdırılmaq üçün nəzarətə götürülüb, agentliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə müvafiq qurumlara çatdırılmaq üçün qeydiyyata alınıb.

❖ ❖ ❖

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyinin sədri Vüqar Behbudov Cəlilabadda vətəndaşların müraciətlərinə cavab verib.

Agentliyin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən verilən məlumata görə, Cəlilabad həmçinin Neftçala və Biləsuvar sakinlərinin qəbulu zamanı 60-a yaxın vətəndaşın fərdi ev, avtomobil təminatı, səyyar sosial xidmətin təşkili, sanatoriya-kurort yollayışları ilə əlaqədar müraciətləri dinlənilib.

Agentlik sədri müraciətlərin aidiyyəti üzrə araşdırılması və qanunvericiliyin tələblərinə uyğun olaraq həll edilməsi üçün müvafiq tapşırıqlar verib.

Vətəndaş müraciətlərinin dinlənilməsi onların yerində araşdırılaraq həll edilməsinə dəstək göstərmək məqsədilə həyata keçirilir.

Onu da qeyd edək ki, bu ilin mayından etibarən başlanan qəbul prosesi ərzində artıq 18 rayondan 250-dən çox sakinin müraciəti dinlənilib.

*AZƏRTAC*

# ADA Universitetində 10-cu Beynəlxalq Festival keçirilib

İyunun 17-də ADA Universitetində 40-a yaxın ölkənin səfirinin iştirakı ilə ənənəvi beynəlxalq festival keçirilib.

AZƏRTAC xəbər verir ki, tədbirin keçirilməsində məqsəd müxtəlif mədəniyyətlərlə tanışlıq və mədəniyyətlərarası dialoq yaratmaqdır.

Universitetin yerli və xarici tələbələrini, ADA icması üzvlərini bir araya gətirən tədbirdə təmsil edilən ölkələrin mədəni xüsusiyyətləri, zəngin irsi nümayiş etdirilib.

ADA Universitetinin kampusunda açıq havada keçirilən festivalda 300-dək tələbə iştirak edib.

Universitetin multikultural dəyərlərini və buradakı beynəlmiləl mühiti əks etdirən festivalda xarici ölkələri təmsil edənlər onlar üçün ayrılmış xüsusi stendlərdə mədəni irsləri barədə məlumat veriblər.











# "Zəngin hövzələr" layihəsi çərçivəsində balıq körpələri təbii su hövzələrinə buraxılıb



Azərbaycanın daxili su hövzələrinin bioresurslarının mühafizəsi və bərpasına yönəlmiş genişmiqyaslı "Zəngin hövzələr" layihəsi çərçivəsində IDEA İctimai Birliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin birgə təşkilatçılığı ilə iyunun 17-də Kür çayına və Göygöl gölünə balıq körpələri buraxılıb.

AZƏRTAC xəbər verir ki, ETSN rəsmilərinin, IDEA İctimai Birliyi və nazirliyin könüllülərinin iştirakı ilə keçirilən tədbir zamanı 1000 ədəd körpə çəki balığı Kür çayına, 2000 ədəd körpə forel balığı isə Göygöl gölünə buraxılıb.

Qeyd edək ki, ölkənin müxtəlif regionlarında təbii su hövzələrinə balıq buraxılışı ilin sonunadək davam edəcək.

"Zəngin hövzələr" layihəsi balıq növlərinin təbii populyasiyasının artırılması, balıqartırma zavodlarında yetişdirilən müxtəlif növ balıq körpələrinin təbii mühitə buraxılması, eləcə də daxili su hövzələrində çirkləndirilmənin azaldılması, qanuni və sivil qaydalarla balıq ovunun təşviqi üzrə tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

Xatırladaq ki, "Zəngin hövzələr" layihəsinə 2020-ci ilin may ayında start verilib. Təkcə ötən il 6 milyona yaxın müxtəlif növ balıq körpəsi su hövzələrinə buraxılıb.

Balıqartırma zavodlarında yetişdirilən müxtəlif növ balıqların müntəzəm olaraq təbii su hövzələrinə buraxılması nəsli kəsilməkdə olan növlərin təbii populyasiyasının artırılmasını hədəfləyir.

Son onilliklər ərzində Xəzər dənizinin nadir balıq növlərinin populyasiyası insan fəaliyyətinin mənfi təsirləri, o cümlədən çirklənmə, qaçaqmalçılıq və həddən artıq ovlanma nəticəsində məhvolma təhlükəsi həddinə çatıb. Bununla əlaqədar Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü ilə Azərbaycanın və Qafqaz regionunun su faunasının qorunması və bərpası üzrə bir sıra mühüm təşəbbüslər həyata keçirilir.

Balıqların kürütökmə dövrü ilə əlaqədar hər il ölkəmizdə may ayının 1-dən etibarən balıq ovuna dörd aylıq moratorium tətbiq edilir.

Layihə təşkilatçıları bütün vətəndaşları balıq ehtiyatlarının qorunmasına, məsuliyyətli olmağın təşviqinə dəstək verməyə, balıq ehtiyatlarının artımının qarşısını alan bütün hərəkətlərdən imtina etməyə çağırır.



# Meymunçiçəyi "qapımıza" çatdı

## Gürcüstanda iki yoluxma faktının qeydə alınması ciddi tədbirlər görülməsini zəruri edir

Meymunçiçəyi getdikcə ölkəmizə daha çox yaxınlaşır. Gürcüstanda bir neçə gün öncə qeydə alınan fakta əsasən bildirmək olar ki, qapımıza qədər gələn virusun Azərbaycanda da müşahidə edilməsi istisna olunmur.

Gürcüstanın Xəstəliklərə Nəzarət və İctimai Sağlamlıq Milli Mərkəzi açıqlamasında bildirib ki, ilk virusa yoluxan şəxs xəstəliyi mülayim keçirib və müvafiq müalicədən sonra səhiyyə müəssisəsindən evə buraxılıb. O da məlum olub ki, Avropadan səyahətdən qayıdan şəxs virusa orada yoluxub. İlk yoluxma faktının ardından Gürcüstanın İctimai Səhiyyə Departamentinin iclasında ikinci yoluxmanın olduğu da bildirilib. Həmin şəxs də təcrid edilərək müalicəyə cəlb olunub.

Bu faktlar əlbəttə ki, ölkəmizdə narahatçılıq yaratmaya bilməz. Ona görə də artıq bu istiqamətdə ciddi tədbirlərin görülməsi zərurəti yaranıb.

### Epidemiyanın qiymətləndirilməsi yönündə işlər davam edir

Ümumdünya Səhiyyə Təşkilatının verdiyi məlumata əsasən, son həftələrdə dünyada təxminən 1600 xəstəliyə yoluxma halı qeydə alınıb. Meymunçiçəyinin endemik olduğu ölkələrdə 72 ölüm faktı təsdiqlənsə də, Böyük Britaniya kimi virusun yeni aşkarlandığı 32 ölkədə heç bir ölüm halı qeydə alınmayıb.

Hazırda ümumilikdə 39 ölkədə virus özünü göstərib. Bunlardan 7-si daha öncələrdə də meymunçiçəyinin olduğu ərazilər, 32-si isə ilk dəfə virusla üzləşən ölkələrdir. Avropada virusun yayılma riski yüksək, digər regionlarda isə orta qiymətləndirilir.

Ümumdünya Səhiyyə Təşkilatı epidemiyanın beynəlxalq əhəmiyyətli fövqəladə vəziyyət kimi təsnif edilib-edilməməsini müəyyən etmək üçün iclas keçirəcəyini söyləyib. ÜST-ün baş direktoru Tedros Adhanom Qebreyesus açıqlamasında deyib: "Meymunçiçəyi xəstəliyinin yayılması qeyri-adi narahatlıq doğurmağa başlayıb. Virusla bağlı keçmişdə məlum olandan daha fərqli hallar müşahidə edilir. Həm də getdikcə daha çox ölkəyə yayılır. Bu səbəblə də gələn həftə epidemiyanı qiymətləndirmək üçün beynəlxalq sağlamlıq qaydalarına uyğun olaraq Fövqəladə Hallar Komitəsini çağıracağıq".

ÜST həmçinin meymunçiçəyi virusunun, onun növlərinin və törətdiyi xəstəliyin adının dəyişdirilməsi üzərində dünyanın müxtəlif ölkələrindən olan tərəfdaşlar və ekspertlərlə işləyir. Yeni adlarla bağlı qısa zamanda açıqlama veriləcəyi bildirilib.

Peyvəndlə bağlı isə baş direktor vurğulayıb ki, çiçək peyvəndinin meymunçiçəyi virusuna qarşı da qoruma gücünün olduğu qeyd edilsə də, ancaq bu preparatların ehtiyatları məhduddur. Vaksin şəxsdə individual xarakterli qiymətləndirmədən sonra tətbiq edilməlidir. Hazırda kütləvi vaksinasiya tövsiyə edilmir. O da bildirilir ki, suçiçəyinə qarşı istifadə olunan peyvənd bu infeksiyaya qarşı 85 faiz effektiv təsirə malikdir.

### Azərbaycanda hələ ki heç bir yoluxma halı yoxdur

Bir neçə gün əvvəl sosial şəbəkələrdə yayılan bir şəxsin bədənindəki səpgilərin görüntüsü ölkəmizdə də meymunçiçəyinin aşkarlanması yönündə müzakirələrə səbəb olmuşdu.

Səhiyyə Nazirliyindən sosial şəbəkələrdə və mətbuatda qeyd olunan ehtimallara cavab olaraq bildirildi ki, Azərbaycanda meymunçiçəyi virusuna yoluxma faktı aşkarlanmayıb, yoluxma halı müşahidə edilərsə, bu barədə ictimaiyyətə məlumat veriləcək. Səhiyyə naziri Teymur Musayev də rəsmi açıqlamasında ölkəmizdə meymunçiçəyi virusunun qeydə alınmadığını və əhaliyə sadə fərdi gigiyena qaydalarına riayət etməklə bu beladan uzaq durub normal həyat tərzinə davam etməyi bildirib.

Həmçinin o da qeyd edilib ki, Ümumdünya Səhiyyə Təşkilatı tərəfindən ölkəmizə yaxın günlərdə testlər və meymunçiçəyinin müalicəsi üçün lazım olan qeydiyyatdan keçmiş bütün dərman preparatları gətiriləcək.

Bir daha xatırladaq ki, meymunçiçəyi virusu xəstə insanla sıx fiziki təmas zamanı ötürülür. Həmçinin virus yoluxmuş şəxsin toxunduğu vasitələrdən də (dəsmal, paltar, qab-qacaq və s.) keçə bilər. Gigiyenik qaydaları gözləməklə yanaşı, tövsiyə olunur ki, hər hansı şübhəli hal qeydə alınarsa, simpomtlar özünü müəyyən qədər büruzə verərsə, digərlərinə də yoluxdurmamaq üçün təcrid olunmalı və mütəxəssislərə müraciət edilməlidir. Eyni zamanda virusa yoluxmuş şəxslə təmasda olanların vaksin vurdurması da məsləhət görülür.

*Aydan XƏLİLOVA,*
*"Azərbaycan"*

# Ermənistanda xalq dilənçi vəziyyətinə düşüb

## Gündəlik istehlak mallarının bahalaşması vəziyyəti daha da çətinləşdirir

Ermənistanda iqtisadiyyatdan tutmuş siyasət və digər sahələrə qədər vəziyyətin daha sürətlə pisləşməsi özünü qabarıq göstərir. Sosial-iqtisadi sahədə vəziyyətin getdikcə ağırlaşdığı, insanların maddi rifah halının pisləşdiyi müşahidə edilir.

Müharibədəki məğlubiyyətdən sonra sülh müqaviləsinin imzalanmasının uzadılması fonunda Ermənistanda iqtisadi göstəricilər daha da gərginləşib. Nəticədə yoxsulluq səviyyəsi bir qədər də artıb. İqtisadi tənəzzülün davam etməsi nəticəsində hakimiyyətin reytinqi də sıfıra yaxınlaşır.

Hazırda Ermənistanda adambaşına düşən gəlir bəzi ölkələrlə müqayisədə təxminən 16 dəfə, məhsuldarlıq isə 9 dəfə aşağıdır. Ərzaq təhlükəsizliyi ilə bağlı isə heç bir tədbir görülmür. Uzun illərdir ki, aqrar sektorda böhran hökm sürür. Bu sahədə islahatlara başlamaq üçün heç bir təşəbbüs göstərilmir.

Cari ildən etibarən inflyasiyaya görə əhalinin əməkhaqlarından pul tutulur. Həmin vəsaitlər müxtəlif fondlara və dövlətin xeyriyyə layihələri üçün nəzərdə tutulmuş büdcəsinə verilir. Dövlətin bir sıra qanunvericilik dəyişiklikləri səbəbindən ölkədə kəskin bahalaşma müşahidə edilir. Məcburi pensiyalar üçün maaşdan ödənilən aylıq məbləğ bu il əhəmiyyətli dərəcədə artıb. Əgər yanvarın 1-dək 500 min drama qədər əməkhaqqı alanlar bunun 3,5 faizini icbari pensiyaya verirdilərsə, cari ilin yanvarın 1-dən bu, 4,5 faizə qədər artıb. Bu, gəlir vergisinin 1 faiz azalması ilə qismən kompensasiya edilir.

Erməni iqtisadçılar problemin sabit gəlir vergisi ilə bağlı olduğunu qeyd edərək bildirirlər ki, bütün hallarda gəlirin məbləğindən asılı olmayaraq, vətəndaşlar eyni gəlir vergisini ödəyəcəkləri üçün ölkədə narazı təbəqə artacaq. Vurğulanır ki, hazırda Ermənistanda bu problem daha da kəskinləşib. Çünki yeni qaydalar ən həssas təbəqəyə, o cümlədən minimum istehlak səbətinə uyğun pensiya və müavinət ala bilməyən aztəminatlı işçilərə və ya təqaüdçülərə zərbə vuracaq.

Bundan əlavə, Ermənistanda yanvarın 1-dən suyun, işığın və qazın qiymətləri daha da yüksəlib. İşığın tarifi orta hesabla təxminən 5,5 dram artıb, qaz tarifinin isə daha da artacağı gözlənilir. İqtisadçıların fikrincə, artımlar təkcə insanların gəlirlərinə deyil, həm də əlavə inflyasiyaya səbəb olan amillərə də təsir edəcək.

"4rd.am" saytı yazır ki, Ermənistanda cari ildə istehlakçılar üçün 200 kilovat-saata yaxın elektrik enerjisinin sutkalıq qiyməti 44,98 dramdan 46,48 dram, gecə tarifi isə 34,98 dramdan 36,48 drama yüksəlib. Sutkada 201-400 kilovat-saat elektrik enerjisinin qiyməti isə hazırkı 44,98 dram əvəzinə 48,48 dram, gecə tarifi isə 34,98 dram əvəzinə 38,48 dramdır. 400 kilovat-saatdan artıq istehlak üçün gündüz qiyməti 47,98 dram əvəzinə 53,48 dram, gecə isə 37,98 dram əvəzinə 43,48 dram təşkil edib.

Ermənistanda yanvarın 1-dən malların gömrük rüsumları da artırılıb. Belə ki, Ermənistanda idxal edilən quş əti üçün gömrük rüsumu 30 faiz, düyü və marqarin yağı üçün 2 faiz, kartof və lobya toxumları üçün 1 faiz artıb. Qiymətli və yarımqiymətli daşlar və metallar üzrə tariflərdə qızıl üçün 3-6 faiz, gümüş üçün 5 faiz artım olub. Bu ildən etil spirti, alkoqollu içkilər, tütün və bir sıra digər məhsulların aksiz dərəcələri artırılacaq ki, bu da onların son qiymətlərinin yüksəlməsinə səbəb olacaq.

Ermənistanda istehlak mallarının bahalaşması bir neçə həftədir müzakirə edilir. "4rd.am" saytı İrəvanda yaşamaq, yaxşı və çox yaxşı yaşayış üçün nə qədər pul lazım olduğunu öyrənmək məqsədilə beş mindən yuxarı sakin arasında sorğu aparıb. Sorğunun nəticələrinə əsasən, yaxşı yaşayış üçün bir nəfərə ayda ortalama 347 234 dram və ya 723 dollar, çox yaxşı yaşayış üçün 655 060 dram və yaxud 1363 dollar, birtəhər keçinmək üçün 120 523 dram və ya 251 dollar lazımdır. Halbuki son rəsmi statistik məlumatlara görə, ölkədə minimum əməkhaqqı 68 min dram təşkil edir. Deməli, indiki şərtlər daxilində Ermənistanda birtəhər dolanmaq da mümkün deyil. Gündəlik istehlak mallarının bahalaşması isə vəziyyəti daha da çətinləşdirir.

Bütün bunlar Ermənistanda vəziyyətin nə dərəcədə ağır olduğunu aydın şəkildə nümayiş etdirir. Bu ölkəni qarşıdakı dövr ərzində daha böyük xaos gözləyir.

*Elçin CƏFƏROV,*
*"Azərbaycan"*

# REGİONLAR



# Əkinçinin üzünün gülən vaxtıdır

## Bu il də Ağstafada bol taxıl yetişdirilib

**Ərzaq deyəndə nədənsə ilk növbədə yada taxıl düşür. Söz yox ki, etibarlı ərzaq təminatında onun əvəzsiz rolu var. Odur ki, taxıl istehsalı ilə məşğul olan fermerlərin maraqlarını artırmaq üçün ölkədə müxtəlif stimullaşdırıcı tədbirlər görülür. Bundan yararlanan taxılçılar məhsuldarlığı artırmaq, daha çox taxıl istehsal etmək üçün yorulmaq bilmədən çalışırlar.**



Taxılçılıqda uğur qazanan rayonlardan biri də Ağstafadır. Əkinçilər mövcud güzəştlərdən istifadə edərək hər il yüksək göstəricilərə nail olurlar. Keçən il əkilmiş 9 min 81,5 hektar taxıl sahələrinə göstərilən yüksək aqrotexniki qulluq nəticəsində fermerlər bol məhsul əldə etmişlər. Hər hektarın məhsuldarlığı 34,7 sentnerə çatmışdır. 7 min 82 hektardan 258 min 490 sentner buğda götürülmüşdür ki, bu da 36,5 sentner məhsuldarlıq deməkdir. Arpa sahələrindən də bol məhsul biçilmişdir - 1995,6 hektardan 56 min 990 sentner.

Ağstafa taxılçıları bu il keçən ilki göstəriciləri yeniləmək əzmindədirlər. Cari ilin məhsulu üçün 9 min 15 hektarda taxıl toxumu əkilmişdir ki, bunun da 695,6 hektarı buğda, 2 min 63 hektarı arpadır. Mütəxəssislərin rəyinə əsasən, bu il də zəmilərdə bol məhsul yetişib. Bir neçə gündür ki, rayonun aşağı bölgələrində arpa biçilir. İlk nəticələr ürəkaçandır. Məhsuldarlıq 35 sentnerdən çoxdur. Hələlik sahələrdə iki kombayn işləyir. Buğda biçini başlayanadək ehtiyatda olan kombaynlar digər rayonların arpa biçininə verilib. Buğda biçini başlayanda rayonda mövcud olan 18 kombaynın hamısı biçinə səfərbər olunacaq.

Rayonda taxılçılıqda zəngin təcrübəsi olan fermerlər çoxdur. Onlardan biri də Aşağı Kəsəmən kənd sakini Araz Abbasovdur. Fermer keçən il 180 hektarda taxıl toxumu əkmişdi ki, onun da 80 hektarı buğda, 100 hektarı arpa olmuşdur. Hər hektardan 40 sentner buğda, 35 sentner arpa götürən təsərrüfat sahibi cari ilin məhsulu üçün 200 hektarda əkin (100 hektarda buğda, 100 hektarda arpa) aparmışdır. Arpa biçininə başlayan fermer hər hektardan 40 sentnerdən çox arpa biçmişdir. Araz Abbasov deyir ki, məhsuldarlıqda əvvəlki illəri üstələyəcək.



Dağ Kəsəmən kəndinin sakini Asif Allahverdiyev də bu il bol məhsul yetişdirib. Keçən il 42 hektarda taxıl əkmiş fermer məhsuldarlığa görə rayonda birincilər sırasında olub. Belə ki, hər hektardan 45 sentner buğda, 35 sentner arpa götürüb. Təsərrüfat sahibi bu il 52 hektarda taxıl yetişdirib. Əmindir ki, məhsuldarlığı keçən ildəkindən çox olacaq.

Ümumiyyətlə, Ağstafada taxılçılığın inkişafında nümunə olan çoxlu sayda fermer təsərrüfatları fəaliyyət göstərir. Məsələn, Dağ Kəsəmən kəndi ərazisində hər il 978, Qırılı kəndində 485, Köçəsgərdə 745 hektarda taxıl əkilir ki, bu da rayonun taxıl istehsalında sanballı paya malik olmaq deməkdir.

***S.ƏLİYEV,***
***"Azərbaycan"***

# "Qarabağda məni ən çox təsirləndirən yer düşmən tərəfindən tamamilə viran qoyulmuş Ağdam oldu"

"Ağdamın erməni işğalından əvvəlki vəziyyətini fotolarda görmüşəm. Əvvəlki Ağdamla işğala məruz qalaraq dağıdılan Ağdamın bugünkü vəziyyətini müqayisə edərkən ürəyim sızladı". Bu sözləri AZƏRTAC-a açıqlamasında Şuşaya səfər edən türk səyyah Uğur Dəmircan bildirib.

"İstanbuldan gəldim, Türkiyəni təmsil etmək üçün səyyahlara qoşuldum və dünyanın məşhur səyyahları ilə birlikdə Azərbaycandayıq. Qarabağda bu günə qədər gördüyüm yerlər arasında məni ən çox təsirləndirən tamamilə viranə qoyulmuş Ağdam oldu. Buranın necə gözəl bir yer olduğunu erməni işğalından əvvəl çəkilən fotolarda gördüm. Azərbaycanlı qardaşlarımızın nələr çəkdiyini bir daha hiss etdim. Şəhər erməni işğalı nəticəsində tamamilə dağıdılıb. Dağıdılan yerləri gördükcə belə bir sual yaranır ki, nə üçün bu yerlər işğal edilmişdi? Bu sualın cavabı yoxdur. Şəhərdə yalnız Cümə Məscidinin divarları qalıb və hazırda təmir edilir. Ağdamda gördüyüm mənzərə çox kədərləndiricidir", - deyə Uğur Dəmircan əlavə edib.

# Goranboyluların çörəyi torpaqdan çıxır

## Taxılçılıq, pambıqçılıq, tütünçülük, baramaçılıq getdikcə daha gəlirli sahələrə çevrilir

Ölkə iqtisadiyyatında, xüsusən, qeyri-neft sektorunda kənd təsərrüfatının xüsusi çəkisinin dinamik artımı təsadüfi deyil. Dövlət əhalinin ərzağa olan daxili tələbatının, əsasən, yerli potensial və imkanlar hesabına ödənilməsi üçün zəruri olan bütün tədbirləri həyata keçirir.



Regionların sosial-iqtisadi inkişafı dövlət proqramlarında nəzərdə tutulan layihələrin uğurlu icrası ölkəmizin bütün bölgələrində olduğu kimi, Goranboy rayonunun da inkişafına güclü təkan vermişdir. Xüsusilə investisiyanın cəlb edilməsi, emal müəssisələrinin yaradılması və əhalinin məşğulluğunun artırılması ilə bağlı çoxsaylı işlər görülmüşdür.

Hazırda Goranboy rayonunda pambıqçılıq, tütünçülük və baramaçılıq daha sürətlə inkişaf edir. Təkcə cari təsərrüfat ilində 23955 hektarda taxıl, o cümlədən 15998 hektarda arpa, 7957 hektarda buğda toxumu əkilmişdir. Yüksək nəticə əldə olunacağı gözlənilir. Fermerlərdən Fərid Əkbərzadə (Muzdurlar kəndi), Nizami Bağırov (Qırıxlı kəndi), Sahir Qurbanov (Fəxralı kəndi) və Murad Muradova (Səfikürd kəndi) ümid daha çoxdur.

Rayonda pambıq əkini və tədarükü ilə "MKT İstehsal Kommersiya", "Azərpambıq" və "Goran-Cotton" MMC-lər məşğul olur. Cari məhsul ili üçün 2526,2 hektar üçün müqavilə bağlanmışdır. Vaxtında çiyid səpini yekunlaşmış sahələrdə yaxşı çıxış alınmışdır.

Rayonda iqtisadi cəhətdən gəlirli olan tütünçülüyün inkişafına da diqqətlə yanaşılır. Bu sahə ilə, əsasən, Qarqucaq, Zeyvə, Şəfəq, Qaraçinar və Yenikənd kəndlərinin sakinləri məşğul olurlar. Cari il, ümumilikdə, 8 hektar ərazidə tütün şitilləri əkilmişdir.

"Azərbaycan Respublikasında baramaçılığın və ipəkçiliyin inkişafına dair 2018-2025-ci illər üçün Dövlət Proqramı" Goranboy rayonunda da uğurla icra olunur. Cari il rayonda yem bazasının təminatı üçün 2600 yeni tut tingləri əkilmişdir. Hazırda rayon ərazisində 33600 tut ağacı vardır ki, bu da ipəkqurdlarını yemləməyə bəs edir. Cari il rayonun 41 yaşayış məntəqəsində 55 kümçüyə 142 qutu ipəkqurdu paylanmışdır. Artıq baramanın toplanması mərhələsidir və yaxın günlərdə toplanan məhsul qəbul məntəqələrinə təhvil veriləcək.

# Qubada tatarların milli bayramı qeyd olunacaq

Qubada tatarların milli bayramı Sabantuy təntənəli şəkildə qeyd olunacaq.

AZƏRTAC xəbər verir ki, iyunun 19-u Qəçrəş kəndində təşkil olunacaq bayram tədbirində tatarların milli musiqi və rəqsləri, Azərbaycan və tatar milli mətbəxinin dadlı təamları, əyləncəli müsabiqələr təqdim ediləcək. Bununla yanaşı, tatar estradasının tanınmış nümayəndələri populyar tatar mahnıları, özfəaliyyət kollektivləri isə milli folklor nümunələri ilə çıxış edəcəklər. Pəhləvanlar tatarların milli güləş növü olan kureşdə gücünü sınayacaqlar.

Ümumdünya Tatarlar Konqresi, Tatarıstan Respublikası Mədəniyyət Nazirliyi, Quba Rayon İcra Hakimiyyəti və Bakıdakı Rus Evinin dəstəyi ilə keçirilən bayram tədbirinin təşkilatçısı "Yaşlek" Azərbaycan Tatar Gəncləri Mərkəzidir.

# NDU-nun müəllimi Strasburqda keçirilən iclasda iştirak edib

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, Naxçıvan Dövlət Universitetinin baş müəllimi Aidə Cəlilzadə Azərbaycan Respublikasının Avropa Şurası Konqresindəki nümayəndə heyətinin üzvü qismində Fransanın Strasburq şəhərində keçirilən Avropa Şurası Yerli və Regional hakimiyyətlər Konqresinin Cari Məsələlər Komitəsinin iclasında iştirak edib.

Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, "İnnovativ, demokratik və dayanıqlı ucqar cəmiyyətlər üçün yeni modellər" mövzusunda debatda çıxış edən Aidə Cəlilzadə Naxçıvan Muxtar Respublikasında ucqar bölgələrdə yaşayan gənclər üçün yaradılan şəraitdən - yenidənqurma və müasir standartların tətbiqindən bəhs edib. Bu yeniliklərin, "kənd mərkəzləri"nin xidmət sahələrini genişləndirməsinin mərkəz və ucqar bölgələr arasındakı fərqin minimuma endirilməsinə hesablandığını bildirib.

Deputat "Avropa şəhər və regionlarında qadın və uşaq qaçqınların qəbulu" adlı növbəti müzakirədə Böyük qayıdış proqramından, işğaldan azad olunmuş ərazilərdə "ağıllı kənd" layihəsinin tətbiqindən və Azərbaycanın bu prosesi tezləşdirmə yolunda üzləşdiyi problemlərdən bəhs edib. Bunların sırasında partlamamış, müəyyənləşdirilməmiş minalar, çirklənmiş torpaq və çirklənmiş su kimi problemlər vardır.

Aidə Cəlilzadə Avropa Şurası Konqresi və Qırğızıstan təmsilçiləri arasında keçirilən görüşdə Azərbaycan nümayəndə heyətinin üzvü kimi iştirak edib.

# Seçimi özünüz edin

## Səs-küylü, bahalı istirahət mərkəzi, yoxsa təbiətin qoynu, hər cəhətdən sərfəli kənd yeri

Məlum olduğu kimi, kənd turizmi dedikdə, əsasən, kənd mühitində yataq yerləri ilə təmin etməyə istiqamətləndirilmiş kompleks xidmət fəaliyyəti nəzərdə tutulur. Kənddə yaşayan yerli əhali üçün bu fəaliyyət növü əlavə qazanc mənbəyidir. Bununla yanaşı, kənd turizmi regionun adət-ənənəsinin, mətbəx və digər mədəni-məişət sahələrinin təbliğində mühüm rol oynayır.

Kənd turizmində ən vacib məqam isə insanların səs-küylü şəhər mühitindən uzaqlaşması, təbiətin qoynunda yaşayıb istirahət etməsi, ekoloji cəhətdən təmiz ərzaq məhsulları ilə qidalanmasıdır. Bu baxımdan ölkəmizin səfalı bölgəsində yerləşən Göygöl rayonu turistlərin ən çox üz tutduqları məkandır.

Ölkəmizin qərbində yerləşən Göygöl öz təbiətinə, flora və faunasına görə seçilən rayonlardandır. Burada turizmin bütün növlərinə uyğun olan lazımi şərait var. Əsrarəngiz təbiəti, gözoxşayan mənzərələri ilə bərabər, rayonda çoxlu sayda tarixi abidələr də mövcuddur. Hazırda rayonda 31 yerli əhəmiyyətli tarixi və memarlıq abidələri var ki, onlardan da 8-i kurqan, nekropol və açıq düşərgə, digərləri isə bina və körpülərdir. Göygöl şəhərində 1854-cü ildə tikilmiş "Lüteran" kilsəsi, XVI əsrə aid ikigözlü və 1896-cı ildə tikilmiş üçgözlü, eləcə də XII əsrə aid Ağ körpülər, bundan başqa, Şəhriyar kəndində 1674-cü ildə tikilmiş Qabriyel kilsəsi, Çaykənddə tarixi məlum olmayan Anahid məbədi və Müqəddəs Məryəm kilsəsi, Yeni Zod kəndində Alban kilsəsi, Balçılı və Üçbulaq kəndlərinin ərazisində tarixi məlum olmayan Qız qalası, Köşkü kəndində Dəmir dövrünə aid kurqanlar, Balçılı və Quşqara kəndlərinin ərazisində Tunc dövrünə aid qəbirlər və s. turistlərin daha çox maraq göstərdikləri tarixi abidələrdir. Üstəlik, son illər kəndlərdə aparılan genişmiqyaslı abadlıq və yenidənqurma işləri, həyata keçirilən genişmiqyaslı infrastruktur layihələri rayonun ucqar yaşayış məntəqələrini də qonaqlar üçün cəlbedici etmişdir.



Havaların isinməsi, məzuniyyət mövsümünün başlanması bu bölgəyə gələn turistlərin sayını xeyli artırmışdır. Kəndlərdə ev kirayələmək getdikcə daha çətin olur. Kənd sakinlərinin isə işi çoxdur. Onlar evlərində qalacaq turistləri razı salmaq üçün kirayə verəcəkləri evləri təmir edir, həyət-bacalarında səliqə-sahman yaradırlar. Qonaqlarsa daha çox göllər tacı olan Göygölə yaxın kəndlərdə istirahət etməyə üstünlük verirlər. Aşıqlı, Yeni Zod, Toğanalı, Topalhəsəni, Üçbulaq, Mixaylovka, Şəhriyar və digər kəndlərdə dincələn turistlər çox asanlıqla Göygöl Milli Parkının ərazisinə səyahətə çıxır, istirahətlərini əvəzsiz mənzərələrin qoynunda keçirirlər.

Ən çox turist qəbul edən kəndlərdən biri də Aşıqlıdır. Kənd həm Gəncəyə, həm də Göygölə yaxın olduğu üçün burada istirahət etmək istəyənlərin sayı çox olur. 3 minə yaxın sakini olan kəndin hər cür infrastrukturu var. Aşıqlıda "ADA", "Gilavar", "Kəpəz" kimi istirahət mərkəzləri də fəaliyyət göstərir. Amma daha sərfəlisi kənddə kirayə verilən evdə istirahət etməkdir. Çünki bu zaman ən vacib hesab edilən qiymət məsələsi hər iki tərəfə sərf edir. Belə ki, turistlər üçün yüksək şərait yaradılmış evlərin bir günü 20-30 manat civarındadır.

Kənd sakini Lamiyə Əliyeva deyir ki, bəzən qiymətləri endirmək də olur, təki turist gəlsin. Lamiyə Əliyeva geniş və bağlı-bağçalı həyətində turistlərə kirayə vermək üçün əlavə ev inşa etdirmişdir. Burada bir gündə 15 nəfərədək turist dincələ bilər. Onun həmkəndlisi İkram Məmmədovun evi də yay ayları qonaq-qaralı olur. İkram bunun üçün həyətində əlavə 4 otaq tikdirib. Üstəlik, bağlı-bağçalı həyətindəki meyvə ağaclarını da turistlərin sərəncamına verir. Qonaqlar istədikləri meyvədən istədikləri qədər yeyə bilərlər.

Aşıqlı kənd nümayəndəliyinə daxil olan Köşkü və Üçbulaq kəndləri də turist sarıdan korluq çəkmir. Üçbulaq kəndində müalicəvi əhəmiyyəti olan "Nurud" suyu da çıxır. Odur ki, bu kənddə dincələnlərin sayı ildən-ilə artır. Bunun bir səbəbi də kənd sakinlərinin qonaqlara münasib qiymətə təmiz ərzaq məhsulları təklif etmələridir.

Toğanalı kəndi də turistlərin ən çox istirahət etdikləri kəndlərdəndir. Kəndi Göygöllə cəmi bir dağ ayırır. Sıx meşələrin arası ilə asfalt yolla cəmi 20 dəqiqəyə Göygölə, eləcə də onun ətrafındakı Maral gölə, Zəli gölə və digər göllərə getmək mümkündür. Onu da qeyd edək ki, Toğanalı kəndi Kəlbəcərə gedən yolun başlanğıcında yerləşir. İndi buradan Kəlbəcərə geniş yol çəkilir. Dağlardan axıb gələn çay kəndi iki yerə ayırır. Çayın gur səsi burada dincələn turistlərə rahatlıq, ürəklərə sərinlik gətirir. Son illər bu kənddə də infrastruktur yenilənib. 8 kilometr məsafədən içməli su xətti çəkilmiş, tibb məntəqəsi istifadəyə verilmiş, poçt, kitabxana fəaliyyətə başlamışdır. Kəndin ərazisində "Cənnət məkan", "Ağrı dağı", "Gəncəbasar" və sair istirahət mərkəzləri də fəaliyyət göstərir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Azercell

### abunəçilərinin nəzərinə

19 iyul 2022-ci il tarixdən etibarən "Azercell Telekom" MMC-nin yeni fakturasız (SimSim) xətt nömrəsi əldə edən abunəçilərə "Xoş gəldin" kampaniyası çərçivəsində təqdim edilən 3 AZN hədiyyə balansı yalnız "Sadə6", "GəncOl6", "GəncOl9" və bütün "Sərbəst" tarif paketlərinin alınmasına istifadə edilə biləcək. Həmçinin yeni fakturasız (SimSim) xətt nömrəsi alınan zaman abunəçi tərəfindən nömrə təsis haqqı üçün ödənilən minimal məbləğ bütün 050, 051 və 010 prefiksli nömrələrdə 2 AZN təyin ediləcək. Nəzərinizə çatdırırıq ki, yuxarıda qeyd edilən dəyişikliklər yalnız fakturasız (SimSim) xətt sisteminə yeni qoşulan nömrələrə aiddir.

***Qeyd:*** abunəçilər göstərilən dəyişikliklər, "Xoş gəldin" kampaniyasının şərtləri barədə, o cümlədən "Azercell Telekom" MMC tərəfindən təqdim edilən xidmətlər, tariflər və keçirilən kampaniyalar barədə ətraflı məlumatı rəsmi internet səhifəmizdən **(www.azercell.com),** həmçinin Müştəri Xidmətlərinə (MX və ya Eksklüziv ofisləri, həftənin 7 günü 24 saat ərzində fəaliyyət göstərən Telefon Mərkəzi) müraciət etməklə əldə etmək imkanına malikdirlər.


# Heydər Əliyev Beynəlxalq Aeroportu MDB məkanında ardıcıl olaraq beşinci dəfə ən yaxşı hava limanı seçilmişdir

## Bu aeroport Mərkəzi Asiya və MDB üzrə ardıcıl olaraq beşinci dəfədir ki, ən yaxşı hava limanları reytinqinə başçılıq edir

"Azərbaycan Hava Yolları" Mətbuat xidmətinin verdiyi məlumata əsasən, Azərbaycanın əsas hava limanı növbəti dəfə nüfuzlu "Skytrax" beynəlxalq agentliyinin qiymərləndirməsinə görə World Airport Awards 2022 "Mərkəzi Asiya və MDB üzrə ən yaxşı hava limanı" mükafatına layiq görülmüşdür.

Hava limanları üçün bu mükafat sənayenin keyfiyyət etalonudur. Həmçinin bu il ilk dəfə olaraq Bakı hava limanı daha bir mühüm nominasiyada - "Mərkəzi Asiya və MDB üzrə ən yaxşı hava limanı heyəti" nominasiyasında qalib olmuşdur. "Biz şadıq ki, Heydər Əliyev Beynəlxalq Aeroportunda sərnişinlərə göstərilən yüksəksəviyyəli xidmət növbəti dəfə ən yüksək qiymətə layiq görülüb. Təqdim edilən mükafatlar bir daha Azərbaycanın aviasiya sənayesinin inkişafına göstərdiyimiz xidmət və töhfələrimizin xarici həmkarlarımız tərəfindən təsdiq olunduğunu sübut edir", - deyə AZAL prezidenti Cahangir Əsgərov bildirdi. 2022-ci il üçün Skytrax mükafatları dünyanın 100-dən çox ölkəsində 2021-ci ildən 2022-ci ilədək 8 ay ərzində keçirilən World Airport Survey sorğusuna əsaslanır. Sorğu zamanı hava limanlarında sərnişinlərə göstərilən xidmətin və hava limanı xidmətlərinin keyfiyyəti qiymətləndirilib. Bu xidmətlər sırasında əsas səmərəlilik göstəriciləri üzrə sərnişinlərin qeydiyyatı, gəlmə və transfer zonaları, təhlükəsizliyə nəzarət, alış-veriş, pasport nəzarəti və uçuş prosedurları əsas meyar kimi seçilir. "Skytrax"ın World Airport Awards mükafatı beynəlxalq mülki aviasiyada ən nüfuzlu mükafatlardan biridir. Hava limanlarının reytinqi xidmət keyfiyyətinin qiymətləndirilməsinin tədqiqi vasitəsilə formalaşır, hava limanları çoxsaylı meyarlar əsasında qiymətləndirilir. Yoxlama və təqdim olunan mükafat hava limanının nəzarətindən və ya müdaxiləsindən asılı deyil və nəticə etibarilə hava limanının üstünlüyünün və keyfiyyətinin obyektiv qiymətləndirilməsini təmin edir.







# Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi

## respublika ərazisində modul tipli təhsil müəssisələrinin quraşdırılması işlərinin satın alınması ilə bağlı

## *açıq tender elan edir*

Açıq tender iştirakçılarına təklif edilir ki, öz təkliflərini imzalanmış, möhürlənmiş, ikiqat bağlamada, yazılı surətdə təqdim etsinlər.

Təkliflərin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: iddiaçıların ixtisas göstəricilərinin uyğunluğu, aşağı qiymət, ödəniş şərtləri, müqavilənin vaxtında yerinə yetirilməsi, təminat verilən istismar müddəti.

Açıq tender proseduru ilə əlaqədar məlumat almaq üçün əlaqələndirici şəxsə müraciət edə bilərsiniz:

Əlaqələndirici şəxs - Z.Quliyev.

Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Y.Bakuvi, 18.

Tel: (+99412) 465 73 48 (134).

Maraqlananlar açıq tender prosedurunun Əsas şərtlər toplusunu 1200,0 (bir min iki yüz) manat məbləğində iştirak haqqını aşağıda qeyd olunan hesaba köçürdükdən sonra yuxarıdakı ünvandan ala bilərlər.

**Bankın adı: "Azərbaycan Beynəlxalq Bankı" ASC-nin Sənaye filialı**
**Kod: 805603**
**VÖEN: 9900001881**
**M/h: AZ03NABZ01350100000000002944**
**S.W.I.F.T. İBAZAZ 2X**
**H/h: AZ88IBAZ38030019441856517211**
**VÖEN: 1500016711**

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçı açıq tender prosedurunda iştirak etmək üçün aşağıdakı sənədləri (müvafiq icra orqanı tərəfindən verilmiş, rəsmi blanklarda və möhürlə təsdiq olunmuş) təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması (Uçotda olduğu vergi orqanından alınmalıdır. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir). Müvafiq orqandan tələb olunan sənədin cari ayı əhatə etməsi mütləqdir (arayış 01.06.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının mikro, kiçik, orta və iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı məlumat (Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin arayışı. Əgər sənəd elektron formada alınıbsa, notarial təsdiq edilməsi mütləqdir);*
- *iddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə bütün fəaliyyəti dövrü) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış (01.06.2022-ci il tarixdən sonra alınmış arayış təqdim edilməlidir);*
- *iddiaçının ilkin qeydiyyat sənədlərinin müvafiq qaydada təsdiq edilmiş surətləri (iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsinin qeydiyyatdan keçdiyi ölkə və əsas fəaliyyət yeri göstərilməklə), ünvan və bank rekvizitləri;*
- *iddiaçının tikinti işlərinin həyata keçirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olması;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat (vergi oqranı və yaxud Kommersiya Məhkəməsi tərəfindən təqdim olunmuş);*
- *kənar audit tərəfindən tərtib olunmuş son bir ildəki audit hesabatları (əgər varsa);*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsini təsdiq edən sənədlər (Daxili İşlər Nazirliyindən və ya "ASAN Xidmət" mərkəzlərindən 01.06.2022-ci il tarixdən sonra alınmış arayış qəbul ediləcəkdir);*
- *tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər, tenderdə xarici şirkətlər iştirak etdikdə onların Azərbaycan nümayəndəliyinin olmasını təsdiq edən sənədlər;*
- *iddiaçının müvafiq sahədə peşəkarlığı, təcrübəsi, maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi barədə təsdiqedici sənədlər (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *iddiaçı inşa etdiyi analoji tikililər barədə istismara qəbul Dövlət Aktının surətini və ya inşasını davam etdirdiyi analoji işlər üzrə bağlanmış müqavilənin təsdiq olunmuş surətini təqdim etməlidir (oxşar işlərə dair son 3 ildə bağlanmış müqavilələrin surətləri (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *oxşar işlər üzrə iş təcrübəsini təsdiq etmək üçün belə işlərin həyata keçirildiyi müəssisə və təşkilatdan tövsiyə məktubları;*
- *iddiaçının maddi-texniki bazası (sifarişi yerinə yetirilməsi imkanı) haqqında məlumat (ƏŞT-nin ƏLAVƏ 1-nə uyğun);*
- *sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilində tərcümə olunmalıdır);*
- *iddiaçının tender təklifi (zərflərin açıldığı tarixdən sonra azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının tender təklifinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır).*

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmalar haqqında" Azərbaycan Respublikası Qanununa uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda qeyd olunan sənədləri **26 iyul 2022-ci il saat 11:00-dək,** tender təklifi və tender təklifinin bank təminatını **03 avqust 2022-ci il saat 17:00-dək** yuxarıda göstərilən ünvana təqdim etməlidirlər. İddiaçıların təklifləri **04 avqust 2022-ci il saat 15:00-da** Təhsil Nazirliyinin Təsrüffathesablı Əsaslı Tikinti və Təchizat İdarəsinin iclas zalında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# 36,5 milyondan çox uşaq acı qaçqın taleyi yaşayır

## Müdafiəsiz azyaşlılar insan alverinin qurbanına çevrilirlər





Münaqişə, zorakılıq və digər böhranlar nəticəsində qaçqın düşmüş uşaqların sayı İkinci Dünya müharibəsinin bitməsindən sonrakı dövr ərzində pik həddinə çatıb.

Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondunun (UNICEF) iyunun 17-də verdiyi məlumata görə, 2021-ci ilin sonunda onların sayı 36,5 milyon nəfər olub. 2020-ci illə müqayisədə bu rəqəm 2,2 milyon nəfər artıb.

Söhbət xaricdə sığınacaq istəyən 13,7 milyon azyaşlı qaçqından, eləcə də silahlı münaqişələr səbəbindən evlərini tərk etmək məcburiyyətində qalan və öz ölkələrinin ərazisində olan təxminən 22,8 milyon insandan gedir.

"Biz faktlara məhəl qoymaya bilmərik. Münaqişələr və böhranlar nəticəsində öz yurdundan didərgin düşmüş uşaqların sayı sürətlə artır və elə həmin sürətlə də bizim onlara kömək etmək cavabdehliyimiz artır", - deyə UNICEF-in icraçı direktoru Ketrin Rassel vurğulayıb. O, ümid etdiyini bildirib ki, "həyəcanverici rəqəm" hökumətləri bu cür halların qarşısını almağa təşviq edəcək, eyni zamanda qaçqın uşaqların təhsilə, müdafiəyə, habelə onların rifahını və inkişafını dəstəkləyən digər vacib xidmətlərə çıxışını təmin edəcək.

### İnsan alveri üzrə qurbanların 34 faizi uşaqlardır

Fond bildirir ki, son 10 il ərzində bütün dünyada qaçqınların sayı iki dəfədən çox artıb və uşaqlar ümumi sayın təxminən yarısını təşkil edir. Bu kateqoriyadan olan uşaqların üçdə birindən çoxu (36 faiz və ya 3,9 milyon) Saharadan cənubda Afrika ölkələrində, dörddə biri (25 faiz və ya 2,6 milyon) Avropa və Mərkəzi Asiyada, daha 1,4 milyon insan və ya 13 faiz isə Orta Şərqdə və Afrika qitəsinin şimal hissəsində yaşayır.

UNICEF iştirakçı dövlətlərin hakimiyyət orqanlarını Qaçqınlar üzrə qlobal saziş və Miqrasiya üzrə qlobal saziş çərçivəsində götürülmüş öhdəliklər də daxil olmaqla, bütün qaçqın uşaqların hüquqlarına dair öhdəliklərini qorumağa çağırıb.

Fondun vurğuladığı kimi, təsdiqlənmiş insan alveri hallarının qurbanlarının təxminən 34 faizini uşaqlar təşkil edir.

### Müdafiəsiz uşaqlar istismarçılar üçün asan "ov"dur

Birləşmiş Millətlər Təşkilatının Uşaq Fondu (UNICEF) bir müddət əvvəl Avropaya valideynlərinin və ya digər yetkin qohumlarının müşayiəti olmadan gələn qaçqın və miqrant uşaqları qorumaq üçün təcili tədbirlər görməyə çağırıb. Bu müdafiəsiz uşaqlar istismarçılar və insan alverçiləri üçün asan "ov"dur.

Təkcə 2015-ci ildə sərhədi böyüklər olmadan keçən 95 min uşaq müəyyən edilərək qeydiyyata alınıb. İnterpolun hesablamalarına görə, Avropaya gələn hər 9 uşaqdan biri itkin düşüb və bu, yalnız rəsmi məlumatdır. Əslində, belə "itkin uşaqlar" daha çox ola bilər.

Məsələn, Sloveniyada müşayiət olunmayan uşaqların 80 faizindən çoxu qəbul mərkəzlərində itkin düşüb. İsveçdə həftədə 10-a yaxın uşaq izsiz yoxa çıxır. Almaniyada 2016-cı ildə 4700 qaçqın uşaq böyüklər olmadan itkin düşüb.

"Bu uşaqlar şəraitin qurbanıdır. Bir çoxu sadəcə olaraq qəbul mərkəzlərindən qaçır və işlərinə baxılarkən uzaq qohum ailələrə qoşulur", - deyə UNICEF-in Avropadakı Qaçqın və Miqrant Böhranı üzrə Xüsusi Koordinatoru Mari-Pyer Puarye bildirib. Lakin uşaqlarla bağlı qeydə alınan və ya gizli qalan faciəli hadisələr də az deyil.

BMT-nin Uşaq Fondu Avropa İttifaqına üzv dövlətlər arasında miqrant və qaçqınlarla iş üçün daha ədalətli və uzunmüddətli sistemin işlənilib hazırlanmasına yönəlmiş danışıqların başlanması ilə əlaqədar miqrant və qaçqın uşaqları müdafiə etməyə çağırıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***


# OXUCULARIN NƏZƏRİNƏ!
# "AZƏRBAYCAN"

***qəzetinə 2022-ci il üçün abunə yazılışı kampaniyası davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
**124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat**

*6 aylıq*
**62,40 (altmış iki manat qırx qəpik) manat**

*3 aylıq*
**31,20 (otuz bir manat iyirmi qəpik) manat**

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

# ABUNƏ YAZILMAĞA TƏLƏSİN!


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Milli Məclisinin İşlər İdarəsinin kollektivi iş yoldaşları Nicat Hüseynliyə atası

**ƏLİSAHİB HÜSEYNLİNİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının professor və müəllim heyəti kafedranın müəllimi Seyfulla Aslanova qardaşı

**CÜMŞÜD ASLANOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
***e-mail:***
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 539-72-39,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 539-63-82, 432-37-68
Humanitar siyasət şöbəsi - 538-56-60
İctimai əlaqələr şöbəsi - 539-49-20, 538-31-11,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Kompüter mərkəzi - 538-20-87,
Mühasibatlıq - 539-59-33

**Qeydiyyat nömrəsi 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-də çap edilmişdir**

**Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir**

**Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır**

***Gündəlik qəzet***

**Tiraj 5975**
**Sifariş 1675**
**Qiyməti 40 qəpik**